www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet 19-20 iyul 2014-cü il Şənbə № 183 (5892)   Qiyməti 40 qəpik

**Xəbər**

## Bakıda jurnalisti maşın vurub öldürdü

yazısı səh.2-də

## "Des Consulting" barədə cinayət işinin şok səbəbləri

# "SOVETSKİ"DƏ BİNA TİKMƏK İSTƏYƏNLƏRİN TORBASINI NECƏ TİKDİLƏR

Şirkət rəhbərləri "Sovetski" sakinlərinin problemini həll etmək üçün təkliflərini açıqladıqdan cəmi 24 saat sonra barələrində cinayət işi açılıb; tikinti sektorundakı mənbələr cinayət işinin sifarişli olduğunu deyir və bunu şirkətin təkliflərinin tikinti mafiyasının maraqlarına zidd olması ilə izah edirlər

yazısı səh.5-də



## Zakir Qaralovun korrupsiya teatrının şok "Akkord"u

Baş prokuror "Akkord"da aşkarlanan 20 milyon yeyinti faktını ört-basdır edir; bu müdhiş yeyintiyə görə indiyədək kimsə həbs edilməyib

yazısı səh.9-da

**Gündəm**

### Ermənilər girov vətəndaşlarımıza qarşı ittiham irəli sürdü



Dövlət başçısının məsələni şəxsən nəzarətə götürdüyü bildirilir, Beynəlxalq Qızıl Xaç Komitəsinə isə ciddi xəbərdarlıq edilib

yazısı səh.6-da

### Ukraynada sərnişin təyyarəsinin vurulması dünyanı dəhşətə gətirdi

yazısı səh.15-də

### "Karl Bildtin çıxışı Azərbaycana ciddi mesajdır"

yazısı səh.3-də

### Zərdüşt Əlizadəyə ata qaxıncı

yazısı səh.4-də

### Toni Bleyer Azərbaycan qazı ilə bağlı məsləhətçi işinə götürüldü

yazısı səh.8-də

### QHT rəhbərləri ölkə başçısına müraciət etdilər

yazısı səh.4-də

*Rey Kərimoğlu:*

### "İkiqat minalanmış sahəni də keçmək mümkün olur..."

yazısı səh.11-də

### Hikmət Hacızadənin Səməd Vurğun haqqında dedikləri etiraz doğurdu

yazısı səh.12-də

### Fransa prezidentinin Qarabağ təşəbbüsü fiasko olur

yazısı səh.8-də

### Hər çıxışına görə 28 min dollar qazanan Klinton və bizimkilər...

yazısı səh.12-də

**Ramazan ayının 21-ci günü**

İftar 21.24 İmsaq (azan) 5.00 (QMİ-nin cədvəli)

21-ci günün duası: "İlahi, bu gün Öz istəkli əməllərinin yolunu mənə göstər! Belə bir gündə şeytanın istədiyi yolları mənim üzümə bağla və onu mənə qalib etmə! Məni cənnətdə məskunlaşdır və onu mənim üçün bir məskən qərar ver! Ey ehtiyaclı olan bəndələrin Ehtiyacını Ödəyən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!



*Qubad İbadoğlu:*

### "Müsavatın başqanı seçilsəm, QHT işindən imtina edəcəm"

yazısı səh.10-da



*Gülər Əhmədov:*

### "Həyatımı ailəmə həsr etmək istəyirəm"

yazısı səh.5-də



*Alqış Həsənoğlu:*

### "YAP adından danışan adamlar çox ciddi siyasi səhvlərə yol verir"

yazısı səh.3-də



# İlham Əliyev 7 nəfərə vəzifə verdi

**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" sərəncam imzalayıb. Sərəncamla aşağıdakı şəxslər Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvləri təyin ediliblər:**

Abdullayev Kamal Mehdi oğlu
Ələkbərov Urxan Kazım oğlu
Əmiraslanov Əhliman Tapdıq oğlu
Həsənli Sabir Hüseyn oğlu
Nemətov Azərpaşa Zəfər oğlu
Qafarova Sahibə Əli qızı
Qurbanlı Mübariz Qəhrəman oğlu.

# Pərviz Həşimliyə əfv ərizəsi yazdırmaq cəhdi olmayıb

## Jurnalist təkrar məhkəmə tələb edir

**Xəbər verdiyimiz kimi, iyulun 17-də Bakı Apelyasiya Məhkəməsində ötən ilin sentyabrından həbsdə olan jurnalist və hüquq müdafiəçisi Pərviz Həşimlinin şikayəti üzrə məhkəmə prosesi davam etdirilməli idi. Ancaq məhkəmə iclası baş tutmayıb. Buna səbəb isə jurnalistin vəkillərinin məhkəmənin ilkin baxış iclasının qərarından Ali Məhkəməyə kassasiya şikayəti verməsidir.**

Bakı Ağır Cinayətlər Məhkəməsində bu işə baxılarkən Pərviz Həşimli və onun vəkillərinin vəsatətlərinin heç biri təmin olunmayıb, hərtərəfli araşdırma aparılmayıb. Ona görə də vəkillər Bakı Apelyasiya Məhkəməsində prosesin məhkəmə istintaqı aparılmaqla keçirilməsini istəyirdilər. Proses qeyri-müəyyən vaxtadək təxirə salınıb.

Bu arada vəkil Elçin Sadıqovdan P.Həşimlidən əfv ərizəsi alınıb-alınmadığını, bununla bağlı müraciət edildiyini soruşduq. Dedi ki, belə bir cəhd olmayıb.

Qeyd edək ki, Pərviz Həşimi ötən il sentyabrın 17-də həbs olunub və bu il mayın 15-də Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 8 il azadlıqdan məhrum edilib. Ona qarşı qanunsuz silah-sursat saxlama, qaçaqmalçılıq kimi ittihamlar irəli sürülüb. Lakin jurnalist ittihamların yalan olduğunu bildirir və həbsinin sırf peşə fəaliyyəti ilə bağlı olduğunu bəyan edir. Yerli və beynəlxalq hüquq-müdafiə təşkilatları da bu qənaətdədir. "Amnesty İnternational" Pərviz Həşimlini "vicdan məhbusu" elan edib.

❑ **Sevinc TELMANQIZI**

# Metropolitenin bəzi işçilərinin maaşı 30-50 faiz artırılıb

**"Bakı Metropoliteni" QSC-nin bəzi işçilərinin maaşları artırılıb. Bu barədə APA-ya qurumun mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev məlumat verib. Onun sözlərinə görə, "Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynovun əmri ilə bəzi struktur rəhbərlərinin, stansiya işçilərinin maaşlarında təxminən 30-50 faiz artım olub.**

O qeyd edib ki, ümumilikdə metro işçilərinin maaşlarına baxılır, mümkün variantlar nəzərdən keçirilir, gələcəkdə digər işçilərin də maaşlarının artırılması nəzərdə tutulur.


# Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41


# "Silahlı Qüvvələr NATO-ya inteqrasiya istiqamətində qurulur"

**"Azərbaycan Silahlı Qüvvələri NATO-ya inteqrasiya istiqamətində qurulur". APA-nın məlumatına görə, bunu müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev KİV rəhbərləri ilə görüşdə deyib.**



Nazir müavini Azərbaycan Ordusunun NATO proqramlarından imtina etməsi və keçmiş SSRİ, Rusiya hərbi sisteminə üz tutması barədə iddiaların əsassız olduğunu qeyd edib.

"Azərbaycanın NATO-ya inteqrasiya yolu tutduğu birmənalıdır. Doğrudur, biz müxtəlif ölkələrin, o cümlədən Rusiyanın hərbi sahədə təcrübəsini öyrənirik, lakin ordu quruculuğu, Silahlı Qüvvələrin formalaşdırılması NATO standartlarına uyğun aparılır", - deyə K. Vəliyev vurğulayıb.

**O, hazırda 237 nəfərin müxtəlif ölkələrin hərbi məktəblərində təhsil aldığını deyib:** "Rusiyanın hərbi məktəblərində oxuyanlarımız var. Lakin onların sayı çox azdır. Əksər hərbçilərimiz NATO sistemli ölkələrdə təhsil alır".

**K. Vəliyev Rusiya hərbi məktəblərindən tam imtina olunmamasının səbəblərini də açıqlayıb:** "Məlumdur ki, Azərbaycan Ordusunun istifadəsində əsasən Rusiya istehsalı olan texnika və silahlardır. Onlardan istifadə mənimsəmək üçün Rusiya hərbi məktəblərində təhsil almağa ehtiyac var. Hərbçilərimiz də məhz bu məqsədlə Rusiyaya hərbi təhsil almağa göndərilir. Taktiki və digər hazırlıqlarda isə Rusiya təhsil sisteminin proqramlarından birmənalı istifadə olunmur".



# Akif Nağının Qusar səfərində insident

**İyulun 18-də QAT sədri Akif Nağı, sədr müavini İlqar Əli, qurumun Ali Məclisinin üzvləri Paşa Dadaşov və Etibar Əbülqasımovun Quba-Qusar zonasına səfəri zamanı insident yaranıb. Bu barədə musavat.com-a QAT sədri Akif Nağı məlumat verib. Onun dediyinə görə, səfərdə məqsəd Qusar və Qubada QAT-ın yerli şöbəsi, əlillərlə, şəhid ailələri ilə görüş keçirmək, onların problemlərinin həlli istiqamətində müvafiq qurumlar qarşısında məsələ qaldırmaq olub. "Biz Qusara çatanda QAT-ın yerli təşkilatının sədri Səmaya Bədəlova bizə məlumat verdi ki, yerli rəhbərlik görüş üçün yer verməyib. Bu səbəbdən biz Qarabağ döyüşçüsü olmuş bu fədakar xanımın evində yığışmaq istədik, lakin oranı da polislər mühasirəyə aldı.**

Bundan sonra Qusar və Quba rayonları arasındakı Digah kəndində toplaşdıq ki, görüşümüzü keçirək. Lakin 40 dəqiqə ərzində iclasımızı keçirməkdəydik ki, rəis müavininin rəhbərlik etdiyi Quba polisi kəndə gəldi. Onlar çox aqressiv şəkildə "dərhal rayonu tərk edin, görüş üçün icazəniz olmalıdır" deyə, bizim qarşımızda tələb qoydular və tədbiri pozdular. Biz bundan sonra qarşıdurmadan qaçmaq üçün Qusara gedib icra başçısı ilə görüşmək istədik".

A.Nağının sözlərinə görə, nə üçünsə bundan sonra onlara qarşı münasibət dəyişib: "İcra hakimiyyətinə getdik, başçı məzuniyyətdə olduğundan 1-ci müavin Şahid Fərəcovla görüşdük, sözümüzü dedik. Müavin dedi ki, burda hər cür qruplaşmalar var, ona görə narahat oluruq.

Biz də görüşdə şəhid ailələri və əlillərin problemlərini qaldırdıq, onların həllini istədik. Söz verdilər ki, bu problemləri aradan qaldıracaqlar. Biz də məsələlər həllini tapmayacağı halda ölkə rəhbərliyi qarşısında məsələ qaldırılacağı barədə xəbərdarlıq etdik".

# DYP texniki baxışla əlaqədar sürücülərə müraciət etdi

## Texniki baxışdan keçmə müddəti mayın 1-də başlayıb və avqustun 1-də başa çatacaq

**Respublika Baş Dövlət Yol Polisi İdarəsi nəqliyyat vasitələri sürücüləri və sahiblərinə müraciət edib. İdarədən APA-ya verilən məlumata görə, "Yol hərəkəti haqqında" Qanuna cari ilin fevral ayında edilən dəyişikliklərə əsasən ölkədə qeydiyyatda olan mexaniki nəqliyyat vasitələri, onların qoşquları və yarımqoşquları istehsal olunduqları vaxtdan dörd il keçdikdə iki ildə bir dəfə, istehsal olunduqları vaxtdan on il keçdikdə ildə bir dəfə texniki baxışa cəlb olunurlar. Avtobuslara, icazə verilən maksimum kütləsi 3,5 tondan artıq olan yük avtonəqliyyat vasitələrinə, təhlükəli yüklərin daşınması üçün xüsusi təyinatlı texniki təhlükəsizlik üzrə uyğunluq sertifikatı olan nəqliyyat vasitələrinə isə istehsal olunduqları vaxtdan bir il keçdikdə ildə bir dəfə texniki baxış keçirilir.**

Yeni qanunla 2003-cü ilə qədər olan (2003 də daxil olmaqla), 2005, 2007, 2009-cu illərin istehsalı olan mexaniki nəqliyyat vasitələrinin (Xarici dövlətlərdə və onların baza modelləri əsasında MDB-də istehsal olunan minik avtomobilləri üçün) texniki baxışdan keçmə vaxtı cari ilin may ayının 1-də başlayıb və avqust ayının 1-də başa çatacaq.

İdarədən sürücülərə göstərilən tarixə qədər avtonəqliyyat vasitələrinin texniki baxışdan keçməl追rinin zəruri olduğu bildirilib. Göstərilən vaxtda avtonəqliyyat vasitələrinə texniki baxış nəqliyyat vasitəsinin qeydiyyat yerindən asılı olmayaraq sahibinin istəyinə uyğun Baş Dövlət Yol Polisi İdarəsinin Bakı şəhəri Sabunçu rayonu Maştağa qəsəbəsində yerləşən, müasir avadanlıq və ölçü cihazları ilə təchiz edilmiş texniki müayinə mərkəzində və ya respublikanın digər rayonlarındakı regional qeydiyyat-imtahan və texniki baxış şöbələrində həftənin bütün günləri, fasiləsiz olaraq keçirilir.

# Salyanlı vəhhabi Suriyaya döyüşməyə getdi

**"Şorsulu kəndindən Zülfüqarov Kamran Azər oğlu adlı şəxs doğrudan da Suriyaya döyüşməyə gedib". Bu sözləri Salyan rayon icra başçısının müavini Rəşad Cəbrayılov axar.az-a açıqlamasında Salyandan vəhhabi təriqətinə məxsus şəxsin Suriyaya döyüşə yollanması barədə danışarkən deyib. Onun sözlərinə görə, bu hadisə yeni deyil, xeyli əvvəl baş verib:**

"Bu hadisə xeyli müddət əvvəl baş verib. Bu barədə bizdə rəsmi məlumat var. Həmin şəxs ruhi xəstə idi və indi Suriyada öldü-qaldısından bir xəbər yoxdur. Salyanda bu faktdan başqa Suriyaya döyüşməyə gedən heç kim yoxdur. Bizim rayon dinə bağlı bölgədir, möminlər diyarıdır. İnsanların böyük əksəriyyəti inanclıdır".

Qeyd edək ki, Salyanda rəsmi olaraq 30 nəfər vəhhabi, 7 ibrahimi, 2 nəfər də nəqşibəndi cərəyanının üzvü var.


"Elm" tədris mərkəzi
**MAGIC LANGUAGES**
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05




# Bakıda jurnalisti maşın vurub öldürdü

**Bakı şəhərində jurnalist Sarvan Ağayevi vuran avtomobilin sürücüsü müəyyənləşdirilib. Xətai Rayon Polis İdarəsindən APA-ya bildiriblər ki, jurnalist Bakı şəhər sakini, 24 yaşlı Teymur Məlikovun idarə etdiyi "Hyundai" avtomobili ilə vurulub. Faktla bağlı araşdırma aparılır.**

"Qarabağ" qəzetinin baş redaktor müavini yol qəzasında ölüb. Bu barədə APA-ya "Ədalət" qəzeti baş redaktorunun birinci müavini Əbülfət Mədətoğlu məlumat verib.

Ə. Mədətoğlu deyib ki, iyulun 17-də S. Ağayev Bakının Xətai rayonu ərazisində yolu keçərkən onu maşın vurub. S. Ağayev hadisə yerində ölüb.

Xətai Rayon Polis İdarəsindən APA-ya bildiriblər ki, hadisə Nobel prospekti 15 ünvanında, "Megafun" Əyləncə Mərkəzinin qarşısında qeydə alınıb. Sürücüsü məlum olmayan avtomobil yolu keçən Sarvan Ağayevi vurub.

Jurnalist Klinik Tibbi Mərkəzə yerləşdirilsə də, onun həyatını xilas etmək mümkün olmayıb

Qeyd edək ki, S. Ağayev əvvəllər "Ədalət" qəzetində çalışıb.

# "İran Dağlıq Qarabağda xarici sülhməramlıların yerləşdirilməsinin əleyhinədir"

**İran regionda xarici sülhməramlı qüvvələrin yerləşdirilməsinin əleyhinədir. APA-nın "news.am" saytına istinadən verdiyi məlumata görə, belə bir bəyanatla İranın Ermənistandakı səfiri Məhəmməd Rəisi İrəvanda keçirilən brifinqdə çıxış edib.**

Sülhməramlı qüvvələrin Dağlıq Qarabağ münaqişəsi zonasında yerləşdirilməsi ehtimalını şərh edən səfir qeyd edib ki, rəsmi Tehran bu təşəbbüsün əleyhinədir. Onun sözlərinə görə, bu məsələnin həlli Ermənistan, Azərbaycan və ATƏT-in Minsk Qrupundan asılıdır.

"Mən əminəm ki, kənar qüvvələrin yerləşdirilməsi bölgədəki təhlükəsizliyi sual altına qoya bilər. İraq və Əfqanıstan bunun bariz nümunəsidir", - deyə o vurğulayıb.

İranın regionda istənilən zorakılıq təzahürlərinə qarşı olduğunu deyən diplomat Tehranın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirib. O qeyd edib ki, Dağlıq Qarabağda hərbi əməliyyatların bərpası ehtimalı azdır.

YENİ MÜSAVAT
N 183 (5892) 19 iyul 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**"Mən münasibətlərin bu formatda, bu üslubda aydınlaşdırılmasını qeyri-məqbul hesab edirəm. Belə məzmunlu müzakirələrin mətbuat səhifələrinə çıxarılması, şəxsi münasibətlərin ictimailəşdirilməsi heç kimə başucalığı gətirməz".**

# Maksim Musayev-YAP davasına ilginc reaksiyalar

"Yeni Azərbaycan" qəzetinin sabiq baş redaktoru və keçmiş deputat, YAP üzvü Alqış Həsənoğlu qocaman YAP-çı Maksim Musayevin hakim partiya rəhbərliyində təmsil olunan bir sıra şəxslərə qarşı ittihamlarına və qarşı tərəfdən gələn bəzi reaksiyalara münasibət bildirərkən bunları bildirdi.

"Yeni Müsavat"a açıqlamasında **A.Həsənoğlu** xüsusilə də M.Musayevin YAP sədrinin 1-ci müavini Əli Əhmədova qarşı ittihamlarını, onun baş nazirin müavini postunu tutmağa haqqının çatmadığı barədə fikirləri qəbul etmədiyini vurğuladı: "Əli Əhmədovun partiyadakı mövqeyini özü təyin etmir. Partiya sədri ona etimad göstərib, partiyanın ali məclisi olan qurultay onun səlahiyyətlərini müəyyənləşdirib. Mən Əli Əhmədovu korrekt düşünən və korrekt davranmağı bacaran partiya funksioneri kimi tanıyıram. Əli Əhmədov deyilənlərin əksinə olaraq Maksim müəllimə çox hörmətlə yanaşır. Maksim müəllimin sərt açıqlamalarına, çox ağır ittihamlarına baxmayaraq Əli Əhmədov təmkinini qoruyub saxlayır. Bu da ki, onun Maksim müəllimin keçdiyi həyat yoluna, ağsaqqallığına ehtiramının ifadəsidir". **A.Həsənoğlu tərəfləri soyuqqanlı olmağa çağırdı:** "Mən hesab edirəm ki, təkcə bu mövzu ilə bağlı yox, ümumiyyətlə, partiya rəhbərliyində təmsil olunan şəxslər kimin onlara nə və necə deməsindən asılı olmayaraq, min ölçüb bir biçəndən sonra mövqe bildirməlidirlər. Mən konkret faktlara toxunmadan deyim ki, bəzən partiya adından danışan adamlar çox



**Alqış Həsənoğlu:** "Partiya adından danışan adamlar çox ciddi siyasi səhvlərə yol verir"



**Etibar Əliyev:** "Vəzirov və Mütəllibovun vaxtında vəzifə tutmaq nə, Əliyevçi olmaq nə?"

ciddi siyasi səhvlərə yol verir, dövlət idarəçiliyinə xələl gətirən ziddiyyətli açıqlamalarla çıxış edirlər. Ona görə də düşünürəm ki, partiyanın İdarə Heyətində təmsil olunan funksionerlərin ictimai təmasları, mətbuatla əlaqələri mütləq şəkildə partiyanın icra katibliyi, mətbuat xidməti vasitəsilə tənzimlənməlidir".

**Qərbi Azərbaycandan olan tanınmış təhsil eksperti, fəlsəfə doktoru Etibar Əliyev da məsələyə münasibət bildirib. Onun sözlərinə görə, çox vaxt qərbi azərbaycanlıları regionçuluqda, bir-birilərinə dayaq duran insanlar kimi tanıyırlar:** "Ancaq bu, belə deyil. Vəzifə və karyera uğrunda ən çox bir-biriləri ilə mübarizə aparan bizim regionun insanları olub. Bu əvvəllər də belə olub, indi də belədir. İndi təsəvvür edin, 74 yaşlı Maksim Musayev 61 yaşlı Əli Əhmədovu mətbuatda təhqir edir. Məncə, Maksim Musayevin indiki yaşı dinc həyat sürmək yaşıdır. Və bu hərəkətlər vaxtilə müdrik insanları ilə tanınan bizim regionun adına yaraşmır. Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra "gerçək Əliyevçi kimdir" sualı ortaya çıxdı və indi də bu davam edir. Kimdir gerçək Əliyevçi? Məncə, gerçək Əliyevçi odur ki, 1987-ci ildən 1993-cü ilə qədər hansısa mətbuat orqanında, yaxud televiziyada onun haqqında heç olmasa bir cümlə fikri olsun. Belə adamların sayı azdır. Hakimiyyətdə olanda tərifə nə var ki? Məsələn, adam tanıyıram ki, kitabında mərhum Heydər Əliyevə qarşı saxtakarlığa yol verib və hemin illərdə onu ən kəskin tənqid edənlərdən biri olub. Bu adamı bir neçə çağırış deputat, sonra isə akademik ediblər. İndi o, heç YAP-çılara da danışmağa imkan vermir. İlk dəfə "Yeni Müsavat"a bunu deyirəm: 1988-1989-cu illərin qızğın mitinqləri gedən vaxtları Heydər Əliyevin "Komsomolskaya pravda" qəzetində maraqlı bir müsahibəsi dərc olunmuşdu. Bu, istefadan sonra Heydər Əliyevin mətbuatda ilk müsahibəsi idi. 2-3 köşkdən qəzetin bütün nüsxələrini alıb meydanda mən paylamışam. Belə çıxır ki, indi mən durum YAP-ın irəlidə olan simalarına deyim ki, onda siz harada idiniz? Bu düzgün məsələ deyil". **E.Əliyev deyir ki, o, M.Musayevin fəaliyyətini bir qədər izləyib:** "Sovet dövründə yüksək vəzifə tutan şəxslərin tam əksəriyyəti kimin hakimiyyətdə olmasından asılı olmayaraq mövqelərini, vəzifələrini qorumağa çalışırdılar. Maksim müəllim də onlardan biri idi. Vəzirov qərbi azərbaycanlıların əksəriyyətini vəzifədən azad edirdi. Elə bilirsiniz ki, onlar Vəzirova yol axtarmırdılar? Elə axtarırdılar ki... Bu adamlar artıq siyasi arenada olmamalıdırlar. Diqqət edin, Maksim Musayev 1989-cu ildə Azərbaycan Dövlət Qaçqınlar Komitəsi sədrinin müavini, 1990-cı ildən Xızı Rayon Partiya Komitəsinin birinci katibi, sonra rayon sovetinin sədri, 1991-1992-ci illərdə Xızı Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışıb. Vəzirov və Mütəllibovun vaxtında vəzifə tutmaq nə, Əliyevçi olmaq nə? Mən bunu başa düşmürəm. Onda Siyavuş Novruzovun 20 yaşı var idi, Əli Əhmədov isə BDU-da müəllim işləyirdi. Onda duraq deyək ki, yazıçı Elçin AMİP İdarə Heyətinin üzvü olub. İndi necə baş nazirin müavini postunu tutur? Məncə, Maksim Musayev yaşına görə bir qədər səmimi olmalıdır. Onun kiməsə savadsız deməsi də doğru deyil. İndi belə ifadələr işlətməyin özü savadsızlıq əlamətidir".

❑ **Cavid TURAN**



Natiq Miri

# "Karl Bildtin çıxışı Azərbaycana ciddi mesajdır"

## Natiq Miri: "Avropa qurumlarında həmişə aktiv və təşəbbüskar olan bu siyasətçinin açıqlamalarını özfəaliyyət kimi qəbul etmək yanlışdı..."

**Xəbər verdiyimiz kimi, İsveçin xarici işlər naziri Karl Bildt bir neçə gün əvvəl Vaşinqtonda etdiyi çıxışı zamanı Azərbaycan hakimiyyətini avtoritar rejim qurmaqda günahlandırıb. K.Bildt deyib ki, bu davranış Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramında iştirakın səmimi olduğuna şübhələr doğurur: "Azərbaycan xüsusi bir mövzudur. Neft gəliri üzərində siyasi avtoritarizm qurulur və bu bizim üçün problemlər yaradacaq".**

İsveç XİN rəhbərinin bu açıqlaması, gözlənildiyi kimi, Azərbaycan hakimiyyətini qəzəbləndirib. Məsələ burasındadır ki, K.Bildt ötən il Avropa Birliyinə rəhbərlik edib, Bakıda səfərdə olub. Onun bu şəkildə sərt formada Azərbaycan hakimiyyətini tənqid etməsinə ilk reaksiya Prezident Administrasiyasından gəlib. PA rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov K.Bildti "məsuliyyətsiz və səviyyəsiz" çıxışlar etməkdə günahlandırıb: "Azərbaycanla bağlı isə Karl Bildtin belə ifadə işlətməsinin bir yox, bir neçə səbəbi ola bilər. Birincisi, bu sözləri o, Vaşinqtonda işlədib. Yəqin ki, bu da təsadüfi deyil. Çünki onun hələ 1973-cü ildən Vaşinqtonda müəyyən qurumlarla sıx əlaqəsi, hətta informatorluq etməsi haqqında məlumatları "Wikileaks"in materiallarına girmək imkanı olan "Ekspressen" qəzeti bir neçə il əvvəl yaymışdı".

**N.Məmmədov Bildti hədələyərək onu da çexiyalı həmkarı Şvartsenberqin taleyinin gözlədiyini deyib:** "Çexiyanın xarici işlər naziri cənab Şvartsenberq (onun da adı Karldır) də bir müddət əvvəl Azərbaycanla bağlı qərəzli, əsaslandırılmamış mövqe bildirməkdən çəkinmirdi. Lakin çox çəkmədi ki, Şvartsenberq belə bəyanat və fikirlərinə görə postunu itirdi. Oxşar situasiyaya Bildtin də düşməsini istisna etmək olmaz".

**Qeyd edək ki, son dövrlərdə məhz Avropada bir sıra siyasətçilər Azərbaycan hakimiyyətinin ünvanına sərt tənqidi çıxışlar edirlər. Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan siyasi şərhçi Natiq Miri hesab edir ki, nüfuzlu siyasətçi hesab olunan K.Bildtin Azərbaycan hakimiyyətinin ünvanına bu cür fikirlər söyləməsi Avropada Azərbaycana olan münasibət kimi qəbul edilməlidir:** "Bildt Avropada çox nüfuzlu bir siyasətçidir və elə bir ölkənin xarici işlər naziridir ki, orada bütün siyasi, iqtisadi faktorlar yalnız insanın rifahı və tam təhlükəsizliyinə xidmət edir. Ona görə də bu cür örnək ölkələrin rəsmilərinin açıqlamalarını artıq tədricən Avropa məkanında formalaşmış bir fikir kimi qəbul etmək lazımdır. O, eyni zamanda Ukrayna hadisələrində Rusiyaya qarşı qətiyyətli mövqeyi ilə tanındı".

**Ekspert deyir ki, bir qayda olaraq siyasətçilər hər şeyi çılpaq şəkildə ifadə etmirlər. Ancaq K.Bildtin bu şəkildə açıqlaması onu deməyə əsas verir ki, Avropadan Azərbaycana qarşı tənqidi münasibət formalaşıb:** "Avropada qurumlarında bir çox məsələlərin qoyuluşunda həmişə aktiv və təşəbbüskar olan bu siyasətçinin açıqlamalarını özfəaliyyət kimi qəbul etmək yanlış olardı. Adətən Avropa strukturlarının rəhbərləri ikitərəfli münasibətlərə xələl gətirməmək üçün ümumi formalaşmış fikirləri Bildt kimi nüfuzlu şəxsiyyətlərin dili ilə ortaya qoyurlar. Bunu bir növbəti xəbərdarlıq kimi qəbul etmək lazımdır. Çünki bu açıqlamada bütün məqamlar tam çılpaqlığı ilə ortalığa qoyulmaqla alternativ fikirlərin üstündən tamamilə xətt çəkilmiş olur və diqqətə çatdırılır ki, bu siyasətlə Azərbaycan Avropada heç bir perspektivə ümid edə bilməz. Eyni zamanda bu mesaj Azərbaycanı Avrasiya Birliyindən çəkindirməyə də xidmət edir. Adətən bu cür sərt bəyanatlar onlar üçün vazkeçilməz strateji məqamlarda səsləndirilir. Düşünürəm ki, indiki məqam da həm Avropa, həm də ABŞ üçün həmin anlar hesab oluna bilər. Çünki dünyada artıq böyük güclərin savaşının başladığını demək olar. Ona görə də Azərbaycanın mövqeyinin birmənalı olmasını istəyirlər".

❑ **KƏNAN**

# AzadlıqRadiosunun rəhbəri dəyişir?

**AzadlıqRadiosunun Bakı ofisinin rəhbəri Babək Bəkirin işindən uzaqlaşdırılması və bu vəzifəni Zeynal Məmmədlinin icra etdiyi xəbəri yayılıb. Zeynal Məmmədli isə modern.az-a açıqlamasında bu xəbəri təkzib edib: "Elə bir dəyişiklik olmayıb".**

Onun sözlərinə görə, Bakı ofisinin rəhbərinin dəyişilməsi ilə bağlı dəqiq xəbəri yalnız radionun Çexiyanın paytaxtı Praqada yerləşən mərkəzi ofisindən öyrənmək olar: "Mən indi heç nə deyə bilmərəm, elə bir şey olsa məlumat verəcəyəm".

Qeyd edək ki, teleqraf.com saytı Babək Bəkiri bu vəzifədə artıq tanınmış jurnalist Zeynal Məmmədlinin əvəz etdiyi barədə məlumat yayıb.

Məsələ ilə bağlı sayt Z.Məmmədli ilə əlaqə saxlayıb. O bildirib ki, hazırda AzadlıqRadiosunda baş redaktor vəzifəsində işləyir.

Xatırladaq ki, radionun saytında Bakı ofisinin koordinatoru kimi Babək Bəkirin adı göstərilir. Zeynal Məmmədlinin də məhz bu vəzifəyə təyin olduğu bildirilir.

O da bildirilir ki, Babək Bəkir faktiki olaraq səlahiyyətlərinin icrasından bir neçə ay əvvəl kənarlaşdırılıb. AzadlıqRadiosunun saytında struktur haqqında məlumat verilmədiyindən həm baş redaktor, həm də koordinator vəzifəsinin mövcud olması aylardır ofisdə çoxtirəlik olduğuna güman yaradır.

Z.Məmmədli AzadlıqRadiosunun Bakı ofisinin koordinatoru təyin olunub-olunmaması ilə bağlı bir fikir bildirmək istəmədiyini deyib: "Bu məsələyə ayın axırında aydınlıq gətiriləcək. İndidən nə isə demək doğru deyil".

Qeyd edək ki, Zeynal Məmmədli 1953-cü il may ayının 5-də Qərbi Azərbaycanın Güllübulaq kəndində dünyaya göz açıb. Uşaq yaşlarından Bakıda yaşayır. 1970-ci ildə orta məktəbi bitirib. 1970-1976-cı illərdə BDU-da və MDU-da jurnalistika təhsili alıb.

1976-1981-ci illərdə Azərbaycan (SSR) Dövlət Teleradio Komitəsində kiçik redaktor, redaktor, böyük redaktor vəzifələrində çalışıb.1981-ci ildən (31 ildir) Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin müəllimi, tanınmış media eksperti Zeynal Məmmədli BDU-dan öz ərizəsi ilə işdən azad olunub. 1992-2008-ci illərdə "Azadlıq", "PressFakt" və digər qəzetlərdə məsləhətçi-redaktor, "İnternyus" təşkilatında prodüser, Niderland Jurnalistika Kurslarında təlimçi-müəllim vəzifələrində çalışıb.



Zeynal Məmmədli

1981-ci ildən TV və radio jurnalistikası kafedrasında çalışır.1986-cı ildən TV və radio jurnalistikası kafedrasının baş müəllimidir. "MassMediada yaradıcı menecment" sahəsində tədqiqat aparır.

"Qızıl qələm", "Həsən bəy Zərdabi" və eləcə də ayrı-ayrı xarici təşkilatların jurnalist mükafatlarına layiq görülüb.

YENİ MÜSAVAT
N 183 (5892) 19 iyul 2014



# Gündən-günə gözəlləşən ölkədə yaşamaq...

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Diqqət yetiribsinizmi, indi də əsas nəqliyyat yolları boyunca sıralanan köhnə binalara üzlük çəkilir. Onların arxasındakı binalar isə olduğu kimi qalır. Hakimiyyət Bakının gözəl şəhər olduğunu təsdiq edən dekorasiyalar üçün heç nə əsirgəmir. Hər il dövlət büdcəsindən belə "yeniləşməyə" yüz milyonlarla manat pul xərclənir... Bir binanın üzünə vurulan ənlik-kirşanın neçəyə başa gəldiyindən də xəbərsizik...**

Belə gözəllik yaratmaq mümkün olmayanda isə Azərbaycansayağı üsul yada düşür. Yol boyu hündür hasar çəkilir, hasarın arxasında isə "gözəl Bakının" görkəminə xələl gətirən miskin bir mənzərə gizlənir... Özü də belə dekorasiyalar Bakıya gəlib-gedən qonaqların gözündən yayınmır...

Rusiyanın məşhur teleaparıcısı Andrey Malaxov yanıb-yaxılır ki, niyə Moskva da Bakı kimi gözəl deyil... Onu qınamaq da olmur: hava limanından Bakının mərkəzinə qədər hər şey yerindədir. Suraxanı, Sabunçu rayonlarında uçuq-sökük mənzərəni hasarlar öz arxasında gizlədir. Şütüyüb gedən yolçu üçün hasarın o biri üzündəki mənzərə bir sirr kimi qalır... Onun qaldığı hotel də, insanlarla görüşdüyü məkan da eyni xətt üzərində yerləşir. Məmurların Bakıya olan hüdudsuz sevgisi də elə bu məkanda cəmləşib. Hamısı "gözəllik standartlarına" uyğundur... Başqa bir Bakı - adi adamların yaşadığı şəhər isə yada düşmür...

İngiltərədə nəşr olunan "Platforma" jurnalının ikinci dəfə Bakıya gələn əməkdaşı isə "çəkiliş meydanından səhnə arxasına" keçib tamam başqa mənzərənin şahidi olur - tozlu küçələr, dağıntılar, ürək bulandıran çirkab...

Niyə Malaxovu heyrətdə qoyan gözəllik ingilis jurnalistin gözündən yayınıb, rusiyalı yazar bizə "dost", ingilis isə "düşmən" gözü ilə baxır? Nədən Bakının gecəqondu məhəllələrini görməyən rusiyalı bu gözəlliyə həsəd aparır, ingilis isə neftdən gələn gəlirlərin dekorasiyalara xərcləndiyini deyir...

İki yad baxış əslində iki fərqli mühitin, sistemin, dəyərlərin mövcud olduğunu ortaya qoyur... Birisini gözlə görünən gözəllik heyrətdə qoyur, o biri isə bircə addım qabağa gedib, bu gözəlliyin arxasındakı gerçək həyatı görür.

Yeni tikilən stadion üçün yer də çox uğurlu seçilib. Bir ildən sonra Bakıya gələn idmançılar xətdən kənara çıxmayacaqlar. Ən yaxşı halda onların gəzdiyi yerlər dənizkənarı park, Buzovna-Bakı yolu, Neftçilər, Heydər Əliyev prospektləri olacaq. Elə dəbdəbəli restoranlar, hotellər də bu xəttin üzərindədir...

İstəsək də, istəməsək də, biz müqayisələrə sığınırıq. Yəqin ki, futbol üzrə dünya çempionluğu yarışlarını izləyənlərin gözündən qaçmadı - Braziliyanın şəhərləri olduqca gözəl idi. Sözün düzü, bu ölkənin bu qədər inkişaf etdiyini təsəvvür etmək çətin idi. Bu ölkədə futbolu da fanatikcəsinə sevirlər. Amma yaşamaq uğrunda gedən savaşda insanlar futbolu yox, ortaq mənafeni üstün tutdular. Bizdən qat-qat çox nefti, təbii sərvətləri, resursları olan ölkədə yaşayanlar idmana xərclənən fantastik məbləğə etiraz etdilər.

Bir ildən sonra bizim ölkədə keçiriləcək I Avropa idman oyunlarına nə qədər xərc qoyulacaq? Axı bu yarışların keçirilməsi üçün gərəkli olan idman obyektlərinin hamısı ilk dəfə tikilir. Braziliyadan fərqli olaraq bizim ölkədə xərclərin üzünə qalın pərdə çəkilib. Biz bu yarışların neçəyə başa gələcəyindən xəbərsizik. Hələ uzun illər də bu pərdəni qaldırıb gerçək durumdan xəbər tuta bilməyəcəyik. Biləndə isə gec olacaq, necə məqamları əldən verməyimizə görə köks ötürməkdən savayı əlimizdən heç nə gəlməyəcək...

İyirmi beş ildən bəri müharibə ovqatına köklənən, torpaqları işğal olunan, yüz minlərlə vətəndaşının öz yurd-yuvasından qovulduğu bir ölkənin belə yarışma keçirməyə ehtiyacı vardımı? Bu faciə ilə təmtəraq necə uzlaşacaq?

Nəhayət, ərazisinin beşdən biri işğal edilən, bir milyondan çox insanın qaçqın düşdüyü ölkə dünyanın gözündə abad, firavan ölkə kimi görünəcəkmi? Bu "gözəlliyin" arxasındakı gerçəyin üzünə özümüz pərdə çəkmirikmi? Bizim öz torpaqlarımızı işğaldan azad etmək istəyimizlə olimpiya oyunları keçirmək həvəsimiz çulğaşırmı? Bundan sonra necə inandırasan ki, bu ölkə məkrli qonşuların qurduğu burulğana düşüb və bütün dünya da buna göz yumur...

# Zərdüşt Əlizadəyə ata qaxıncı

**AXC-nin 25 illik yubileyi günlərində bu qurumun ilk İdarə Heyətinin üzvləri bir-birilərini ittiham etdilər. Zərdüşt Əlizadə isə daha irəli gedərək deyib ki, AXC-nin yaranması Azərbaycan üçün qara ləkədir, Əbülfəz Elçibəy isə casus olub.**

## Sərdar Cəlaloğlu: "Hamıdan eyni iradəni gözləmək düzgün olmaz, bəzi insanlar iradəsizlik edib üzə dururlar"

KXCP sədri Mirmahmud Mirəlioğlu teleqraf.com-a müsahibəsində deyib ki, Z.Əlizadənin qurulmasında iştirak etdiyi bir təşkilat haqqında belə danışması yolverilməzdir. Amma o belə istəyirsə, bu səviyyədə danışırsa, şükür məsləhətinə: "Mən AXC-nin birinci və ikinci İdarə Heyətinin üzvlərini hər zaman hörmətlə anıram və bunu da xüsusilə vurğulayıram ki, bu şəxslər millətimiz, xalqımız, dövlətimiz və bizim üçün belə bir təşkilat qurublar. Amma indi özlərinin qurduğu təşkilat barəsində özləri belə danışırlarsa, bu da onların öz problemləridir. Zərdüşt Əlizadə hamının tanıdığı və həm də kifayət qədər təhlili olan elm adamıdır. Amma dediklərində məntiq yoxdur".

**M.Mirəlioğlu başqa bir maraqlı məqama toxunub ki, bu məqamı vaxtaşırı olaraq çoxları Zərdüşt Əlizadəyə sanki bir başqaxıncı olaraq söyləyirlər:** "Burada başqa bir incə məsələ də var və mən bunu ilk dəfə olaraq deyim. Bu da ondan ibarətdir ki, həm Zərdüşt Əlizadənin atası, rəhmətlik Məmməd Mübariz Əlizadə rəhmətlik Əbülfəz Elçibəyə qarşı olduğuna görə, indi də onun oğlu Zərdüşt Əlizadə bu işi davam etdirir. Çox təəssüflər olsun. Məsələnin mahiyyəti bundan ibarətdir".

Z.Əlizadə Elçibəyi və AXC-ni həmişə kəskin tənqid edəndə ona verilən cavabların əksəriyyətində mərhum atasının hansısa davranışları açıq və ya sətiraltı xatırladılır. Ona görə də sual yaranır: Bakı Dövlət Universitetinin professoru olmuş M.M.Əlizadə nə edib ki, onun hərəkəti övladına daim başqaxıncı şəklində xatırladılır?



Zərdüşt Əlizadə



Sərdar Cəlaloğlu

**Xalq Cəbhəsini yaradanlardan biri, ADP sədri Sərdar Cəlaloğlu bu barədə sualımıza cavabında bildirdi ki, Zərdüşt Əlizadənin özü ilə vaxtilə yaxın olsa da, onun atasını tanımayıb. Lakin Xalq Cəbhəsi yenicə yaranarda söz-söhbət var imiş ki, filankəslərin özü, filankəslərin, həmçinin Zərdüşt Əlizadənin atası DTK agenti olub:** "Biz bilirik ki, Zərdüşt Əlizadənin mərhum atası Cənubi Azərbaycandandır. Sovet hökumətində belə bir qayda var idi ki, Cənubi Azərbaycandan burada olan bütün insanlar Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən ciddi nəzarət altındaydılar. Onların Azərbaycanda vəzifə tutması, harada işləməsi DTK tərəfindən ciddi nəzarət altında həyata keçirilirdi. İstisna deyildi ki, kimlərsə iradəsi zəif olduğundan və ya işlədiyi yerlərdə vəzifələrinin yüksəlməsi marağından DTK ilə əməkdaşlıq etsin. Agentliyə cəlb olunma sovet rejiminin bir tələbi idi. İnsanlar o qədər total nəzarət altındaydı ki, bir çox hallarda DTK ilə əməkdaşlığa getməli olurdular".

**"Zaman-zaman belə informasiyalar və açıqlamalar olub ki, Əbülfəz Elçibəy 1975-ci ildə həbs olunanda Zərdüşt Əlizadənin atası DTK-ya işlədiyi üçün onun üzünə durub. Sizdə bunu təsdiqləyəcək informasiyalar olubmu" sualına S.Cəlaloğlu belə cavab verdi:** "Konkret olaraq şəxsən Zərdüşt Əlizadənin atasının kimə, necə işləməsi, fəaliyyəti, Əbülfəz Elçibəyin üzünə durub-durmadığı barədə dəqiq informasiya əldə etmək istəyirsinizsə, rəsmi müraciət edib DTK-nın arxivindən məlumatlar, məhkəmə sənədləri, faktlar alıb qəzetinizdə verin. 2003-cü ildə biz həbs olunanda bizim öz müxalifətçilərimizin də sırasından üzümüzə duranlar olub. Hamıdan eyni iradəni gözləmək düzgün olmaz. Bəzi insanlar iradəsizlik edib üzədurанlıq edirlər. Şəxsən mən mənim üzümə duranlara kin bəsləmirəm. Onların da dözümü bura qədər olub".

**ADP sədri onu da dedi ki, Zərdüşt Əlizadə AXC-nin yarandığı günü Azərbaycan üçün qara ləkə adlandırmaqla böyük yanlışlığa yol verib:** "Bunu deyənin özü belə çıxır ki, Azərbaycan xalqı üçün qara ləkədir. Çünki Azərbaycan Xalq Cəbhəsi tarixdə Müsavat Partiyasından sonra xalqın məhz özünün təşkil etdiyi ilk təşkilat idi. AXC-ni Azərbaycan xalqı heç bir xarici sifariş olmadan özü təşkil edib, özü arxasında durub, özü arxasınca gedib. AXC-nin yaradılmasında Zərdüştün özünün ciddi rolu olub. Sadəcə, sonradan Leyla Yunusla onu AXC-nin rəhbərliyindən qovdular. O zamandan Zərdüşt Əlizadə intiqamçı hisslə yaşayır. Verdiyi açıqlamalar da bu hissin təsiri altında verilir. Mənim özümü də 1990-cı ildə Zərdüşt Əlizadənin tərəfdarı kimi Naxçıvan Xalq Cəbhəsindən qovublar. Lakin mən məni qovan insanlara Zərdüşt kimi nifrət eləmirəm. Zərdüştlə mən eyni taleni yaşamışıq. O vaxt mən Xalq Cəbhəsində bir neçə ağıllı adam tanıyırdım. Biri Zərdüşt Əlizadə, biri Leyla Yunus, biri İsa Qəmbər idi. Onlarla mən fərdi qaydada görüşürdüm. Zərdüştlə əlaqəmizə görə məni və Sülhəddin Əkbəri Xalq Cəbhəsindən çıxardılar".

❑ Etibar SEYİDAĞA

# QHT rəhbərləri prezidentə müraciət etdi

## "İnanmaq istəyirik ki, icra orqanlarının müstəqil QHT-lərə qarşı basqıları onların özbaşına təşəbbüsləridir və sizin səsləndirdiyiniz bəyanatlara ziddir"

**Ölkədə fəaliyyət göstərən bir sıra qeyri-hökumət təşkilatları iyulun 18-də dövlət başçısı İlham Əliyevə müraciət ünvanlayıblar.**



Bəyanatda bildirilir ki, Baş Prokurorluq, Ədliyyə Nazirliyi, Vergilər Nazirliyi kimi icra orqanlarının səyi ilə rəhbərlik etdiyimiz qeyri-hökümət təşkilatlarının fəaliyyəti iflic edilib: "İlk növbədə qeyd edirik ki, ölkəmizdə dövlət qeydiyyatına alınmış 3000-ə yaxın QHT-dən cəmi 20-25-i demokratiya və insan hüquqları sahəsində çalışır. Qrant almış milli QHT-lərn Ədliyyə Nazirliyinin saytında yerləşdirilmiş siyahısından da göründüyü kimi, qrantların illik məbləğinin cəmi 5-6 faizi demokratiya və insan hüquqları sahəsində çalışan təşkilatlara ayrılır. Bununla belə, məhz bu təşkilatların fəaliyyəti son 3-4 ay ərzində ciddi məhdudiyyətlərə məruz qalmışdır. Baş Prokurorluq və Ədliyyə Nazirliyi qanunlardan kənar tədbirlər tətbiq etməklə bu 20-25 QHT-nin fəaliyyətini dayandırmağa nail oldular. Məsələn, "Qrant alınmasına və verilməsinə dair müqavilələrin Qaydaları"nda qrant müqavilələrinin qeydiyyata alınmasından imtina nəzərdə tutulmadığı halda, Ədliyyə Nazirliyi bir sıra müstəqil QHT-lərin qrant müqavilələrini qeydiyyata almaqdan imtina edib. Bu zaman Ədliyyə Nazirliyi iki tərəf arasında bağlanmış müqavilənin məzmununa qanunsuz olaraq müdaxilə edir. Bundan başqa, bir sıra tanınmış QHT-lərin həm özlərinin, həm də rəhbərlərinin bank hesablarına məhkəmə qərarı ilə həbs və ya kimlərinsə şifahi göstərişi ilə məhdudiyyət qoyması ilə həmin təşkilatların fəaliyyəti iflic edilib. Son günlərdə Vergilər Nazirliyi bu QHT-lərin bəzilərində yoxlamalara başlayıb. QHT-nin fəaliyyətinə müdaxilə edilməsi hüquqi normalara əsaslanmayıb. Həm də bu müdaxilələrin yalnız müstəqil QHT-nin fəaliyyətinə tətbiqi də bu problemlərin hüquqi məsələlərlə əlaqəsinin olmadığını göstərir".

Daha sonra dövlət başçısının diqqətinə çatdırılır ki, demokratiya və insan hüquqları sahəsində çalışan bu 20-25 QHT-nin hamısının fəaliyyəti hazırkı məqamda müxtəlif qanunsuz əsaslarla dayandırılıb. **"Müraciəti imzalayanlar inanmaq istəyirlər ki, bəzi icra orqanlarının müstəqil QHT-lərə qarşı basqıları onların özbaşına təşəbbüsləridir və sizin Avropa Şurasında çıxışınız zamanı demokratiya və insan hüquqları barədə səsləndirdiyiniz bəyanatlara ziddir. Bununla ümid edirik ki, Siz öz bəyanatlarınıza sadiq qalaraq müstəqil QHT-lərə qarşı yol verilən bu qanunsuzluqların qarşısının alınmasına göstəriş verəcəksiniz"**, - deyə müraciətdə vurğulanır və dövlət başçısından kömək istənilir.

QHT rəhbərləri həmçinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyevə də müraciət ünvanlayıblar. QHT rəhbərləri xahiş edirlər ki, A.Quliyev ona verilən səlahiyyət və hüquqi imkanlardan istifadə edərək, QHT-lərin qrant müqavilələrinin qeydiyyatı, bank hesablarına həbs qoyulması və ya bank əməliyyatlarının məhdudlaşdırılması sahəsində mövcud olan maneələrin aradan qaldırılması və vətəndaş cəmiyyəti institutlarının normal fəaliyyət göstərmələri üçün müvafiq tədbirlər görsün.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 183 (5892) 19 iyul 2014

## "Des Consulting" barədə cinayət işinin şok səbəbləri

**Baş Prokurorluq "Des Consulting" Məhdud Məsuliyyətli Cəmiyyətinin vəzifəli şəxslərinə qarşı Cinayət Məcəlləsinin 178.3.2 maddəsi ilə cinayət işi başlandığı barədə məlumat yayıb. Bu şirkət iyulun 15-də "Sovetski" sakinlərinin mənzil problemini həll etmək üçün 16 mərtəbəli, 810 mənzilli bina tikintisi layihəsi hazırladığı barədə cəmiyyətə məlumat vermişdi.**



# "Sovetski" sakinlərinə bina tikmək istəyənlərin torbasını necə tikdilər

### Şirkət rəhbərləri "Sovetski" sakinlərinin problemini həll etmək üçün təkliflərini açıqladıqdan cəmi 24 saat sonra barələrində cinayət işi açılıb; tikinti sektorundakı mənbələr cinayət işinin sifarişli olduğunu deyir və bunu şirkətin təkliflərinin tikinti mafiyasının maraqlarına zidd olması ilə izah edirlər

Cinayət işi bir gün sonra, iyulun 16-da Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsində başlanılıb. Prokurorluq və polis idarəsinin birgə məlumatında deyilir ki, vəzifəli şəxslər vətəndaşların etibarından sui-istifadə edərək dələduzluq yolu ilə onlara məxsus külli miqdarda əmlakı ələ keçirmək istəyib. Şirkətin bu fəaliyyət növü ilə müvafiq lisenziya olmadan fəaliyyət göstərdiyi də müəyyən edilib. Maraqlıdır ki, şirkət tikinti işlərini öz vəsaiti ilə həyata keçirəcəyini iddia etməyib: bunun üçün tender yolu ilə çoxmərtəbəli binalar tikməyə lisenziyası olan "Həyat İnşaat" şirkətini cəlb edib. "Des Consulting"in vəzifəli şəxsləri ilk izahatlarını veriblər. İzahatlara əsasən, binanın tikilməsinin layihə qiyməti 17 milyon manat olub.

Yada salaq ki, "Des Consulting" şirkətinin rəhbərliyi iyulun 15-də mətbuat konfransı keçirərək "Sovetski" sakinlərinin problemini sadə yolla - mənzil-tikinti kooperativi yaratmaqla həll etmək niyyətini bildirmişdi. "Sosial layihə" kimi təqdim edilən ideyadan şirkət yaxşı gəlir gözləyirdi.

**"Des Consulting" şirkətinin prezidenti Asif Hacıismayılov bildirmişdi ki, Bakının Gəncə prospektində 16 mərtəbəli bina tikintisi layihəsi hazırlanıb. On bloklu binada 810 ailə yerləşdirmək planlaşdırılır:** "Hesablamalara görə, təmirsiz mənzilin 1 kv metri 380 manata təklif ediləcək. Sakinlər yaşadıqlarından iki dəfə çox mənzil sahəsi ala bilər.

İdeyaya əsasən, kooperativ üzvləri 100 faiz pay iştirakı ödəyəcək. Pay fondunun 80 faizi formalaşandan sonra seçilən tikinti şirkəti *("Həyat İnşaat")* tikintiyə başlayacaq. Bina 18 aya istismara veriləcək.

Mətbuat konfransında aydın olub ki, şirkət bina tikintisi üçün torpaq almaq niyyətində deyil. Şirkət rəhbərliyi hesab edirdi ki, Bakı Şəhər İcra Hakimiyyəti Azərbaycan prezidenti İlham Əliyevin dəstəyi ilə uzunmüddətli istifadə üçün torpaq sahəsi ayıracaq. Bunun üçün dövlət başçısına müraciət edilməlidir. Tədbirdə oxunan müraciət mətnində prezidentdən xahiş edilirdi ki, layihəyə dəstək versin.

Layihənin şərtlərinə görə, binanın birinci mərtəbəsi "Des Consulting" şirkətinə çatmalı idi. Ancaq mətbuat konfransından cəmi 24 saat sonra gözlənilmədən şirkət rəhbərliyinə qarşı cinayət işi açılıb. Bu da istər-istəməz şübhəli məqamlara yol açır. Əgər şirkət həqiqətən də dələduzluqla məşğul idisə, onda niyə mətbuat konfransı keçirir və ideyalarını ictimailəşdirir, üstəlik, prezidentdən dəstək gözləyirdi? Axı adətən dələduzlar üzdə olmağı sevmir, maksimum dərəcədə kölgədə qalmağa üstünlük verirlər. Həm də əgər dələduzluq faktları olsaydı belə, niyə cinayət işi mətbuat konfransından dərhal sonra açılıb və dərhal da məsələ ictimailəşdirilib? Təbii ki, bu tip suallar açıq qalıb və yayılan məlumatlar bu məqamlara aydınlıq gətirməyib.

**Tikinti sektorundakı mənbələrdən "Yeni Müsavat"a verilən məlumata görə, "Des Consulting" şirkəti təmiz reputasiyalı şirkət kimi tanınıb:** "Bu şirkətin dələduzluqla məşğul olması inandırıcı görünmür. Adətən bu tip cinayət işləri vətəndaşların şikayətləri əsasında açılır. Ancaq bizim bildiyimiz qədər belə şikayətçilər yoxdur. Ümumiyyətlə, hüquq-mühafizə orqanlarının şirkət rəhbərliyi ilə bağlı bəyanatı çox gözlənilməz oldu. Böyük ehtimalla şirkət barəsində cinayət işinin açılması sifarişdir".

**Sifarişçinin konkret kimliyini müəyyənləşdirməkdə çətinlik çəkən mənbə bunu paytaxtda söküntü və tikinti işlərindən böyük qazanc götürən tikinti mafiyasının əməli kimi xarakterizə etdi:** "Sifarişçinin konkret adını demək çətindir. Ancaq görünür, şirkətin sosial layihəsi tikinti mafiyasının maraqları ilə zidd olub və tez-tələsik cinayət işinin açılmasını sifariş ediblər. Çünki indiki bazar qiymətləri ilə müqayisədə şirkət çox sərfəli qiymətlər təklif edirdi. Görünür, bu ideyanın populyarlaşmasından və dəstək qazanmasından ehtiyatlanan tikinti bosları şirkət haqda cinayət işinin açılmasını sifariş ediblər. Təbii ki, sifarişçini tikinti boslarının arasında axtarmaq lazımdır".

**Mənbə onu da bildirir ki, şirkət rəhbərliyi haqda cinayət işinin açılması tikinti bazarında monopoliyalaşma meyllərinin pik həddə çatdığını göstərir:** "Əvvəlcə, belə tendensiya yox idi. Şirkətləri bazardan inzibati rıçaqların *(gömrük, vergi və s.)* köməyi ilə çıxardırdılar. Sıxışdırılan şirkətin rəhbərliyi haqda cinayət işinin açılması yeni tendensiyadır. Onsuz da bazarda oyunçuların sayı barmaqla sayılacaq qədər azalıb. Tikinti bosları radikal addımlarla sonuncu rəqiblərini də sıradan çıxartmaq istəyirlər".

❑ **İqtisadiyyat şöbəsi**

# "Həyatımı ailəmə həsr etmək istəyirəm"

### Gülər Əhmədova iş barədə düşünmür, "Mərkəz" qəzetini bərpa etməyəcək

**Sabiq deputat, "mandat alverində" günahkar bilinərək həbs olunan, sonra şərti azadlığa buraxılan Gülər Əhmədova aznews.az-a müsahibə verib. Müsahibədə G.Əhmədova heç bir siyasi məsələ barədə danışmayıb, qarşıdan gələn Milli Mətbuat Günü, jurnalistlərin problemləri barədə danışıb.**

O bildirib ki, Azərbaycan mətbuatının irəliləməsi üçün də ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz tərəfindən çox böyük addımlar atılıb. O, ən böyük problemi evsizlik olan jurnalistlərə ötən il dövlət vəsaiti hesabına ən müasir səviyyədə tikilmiş evlərin paylanılmasını da böyük hadisə adlandırıb.

**1993-cü ildən Azərbaycan mətbuatında çalışdığını deyən G.Əhmədova ilk iş yerinin də "Səhər" qəzeti olduğunu deyib:** "Mən həmin illərdən mətbuatla sıx əməkdaşlıq edirəm. Ona görə də heç vaxt jurnalistlərimizlə pis münasibətdə olmaq arzum olmayıb. İnanmıram ki, kimsə barəsində qərəzli yazıların yazılmasının tərəfdarı olsun. Əks halda, belə bir "məlumatlara" dözümlülük nümayiş etdirmək lazımdır. Mən bunu həbsdə olarkən də gördüm. Nəticədə də bir neçə jurnalist həbsdən buraxılan gün məndən halallıq istədilər. Mən də sözügedən jurnalistlərə halallığımı verdim. Onlar başqa düşdülər ki, mənə qarşı çox böyük səhv ediblər".

**G.Əhmədova deyib ki, ölkədə xeyli jurnalistin problemlərinin həll olunması və irəliləməsi istiqamətində köməklik edib:** "Bu gün sözügedən insanlar sayəmdə kifayət qədər yaxşı məqam sahibi olublar. Onların çalışdıqları kollektivlərdə də bunu bilən var. İnanıram ki, zamanında onlar mənim bu yaxşılığımı dilə gətirəcəklər. Media təmsilçilərimizə göstərdiyim dəstəyə görə də heç vaxt peşman olmamışam və hesab edirəm ki, düz etmişəm".

**Sabiq deputat "Mərkəz" qəzetinin fəaliyyətini bərpa etmək istəmədiyini bildirib:** "Hər hansı bir işi görməyə hazırlaşmıram. İşləmək haqqında heç planım da yoxdur".

**O, heç istirahət etmək istəmədiyini də deyib:** "Nə istirahət?.. Problemim var. Məlum hadisələrdən sonra ailəmə çox mənəvi-psixoloji zərbələr dəyib. Bu zərbələr kiçiyindən tutmuş böyüyünə kimi hamıya ziyan edib. Mən ailəmlə birlikdə bütün gücümzlə çalışırıq ki, bu cür mənfi emosiyadan çıxaq. Ailəmlə birlikdə olacağam və həyatımı onlara həsr etmək istəyirəm. Ona görə də hələ ki heç bir iş barədə düşünmürəm, hər hansı planım yoxdur".



Gülər Əhmədova

❑ **Hazırladı SEVİNC**

# Rauf Mirqədirov casusdurmu?



**Azər RƏŞİDOĞLU**

**MTN və Baş Prokurorluğun jurnalist Rauf Mirqədirovla bağlı yaydığı açıqlaması Ştirlis barədə yayılan məlumata bənzəyirdi. Sanki söhbət bir jurnalistdən deyil, dünyanı barmağına dolayan kəşfiyyatçıdan gedir. R.Mirqədirovun Rixard Zorgiyə bənzədilməsi bütün fantaziyaların fövqündədir.**

30 ildən artıq qələmi ilə bu xalqa xidmət edən, son 20 ildə Ermənistanın Dağlıq Qarabağı işğal etməsini və bunun bölgə üçün təhlükəli olduğunu sübuta yetirən bir siyasət yazarı barədə belə gülünc ittihamlar irəli sürmək əlbəttə ki, ağlasığmazdır.

1992-96-cı illərdə RF prezidentinin Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi, Minsk Qrupunun həmsədri olmuş, ermənipərəst Vladimir Kazimirov isə Rauf Mirqədirovun əlindən qan ağladığını özü də etiraf etmişdi.

Jurnalistə qarşı irəli sürülmüş ittihamların hər bir bəndini konkret faktlarla təkzib etmək mümkündür.

Lakin əminik ki, bu işi vəkillər Fuad Ağayev və Elmar Süleymanov layiqincə bacaracaqlar.

İttihamlara münasibət bildirməzdən öncə R.Mirqədirovun işi ilə bağlı süni şəkildə yaradılan "ermənilərlə qohumluq" məsələsinə qısa da olsa toxunmaq yerinə düşərdi.

Bu gün bu məsələ ilə bağlı ermənilərin müxalifətdəki və ya ictimai fəallar arasındakı qohumlarını axtarmaq hakimiyyətə baş ucalığı gətirmir. Yalnız ona görə yox ki, insanları milli mənsubiyyətinə görə təqib etmək cinayətdir, həm də ona görə ki, bu məsələ iqtidar üçün arzu olunan deyil.

Vaxtilə hələ bu münaqişə alovlanandan əvvəl ermənilərlə qohum olan yüzlərlə insanımız var idi.

İqtidar təmsilçiləri içərisində belələrinin sayı heç də az deyil. Bunu kiməsə irad tutmaq anormallıqdır, geri zəkalılıqdır.

Daha absurd olanı isə odur ki, Rauf Mirqədirov kimi vətənpərvər ziyalını "vətən xaini" elan edən hakimiyyət Azərbaycanı Rusiyaya "təhvil" verməyə hazır olan Abbas Abbasovu hər cür imtiyazlarla təmin edir.

Rauf Mirqədirov Azərbaycanın ən tanınmış nəsillərindən birinin nümayəndəsidir. Nənəsi Nabat xanım Aşurbəyova inanclı kəsim arasında olduqca böyük nüfuza malik olub. "Təzəpir"i tikdirən bu zadəgan qadın elə orada da dəfn olunub.

Onun qardaşı Əjdər bəy Aşurbəyov Azərbaycanın Rusiya tərəfindən işğalına etiraz edən yeganə general idi ki, etiraz əlaməti olaraq özünü güllələyib. General Aşurbəyov tikdirdiyi Göy məsciddə dəfn olunub.

Bir sözlə, bu gün vətənə xəyanətdə ittiham edilən jurnalist Azərbaycanın zadəgan nəslinin nümayəndəsidir. Onun nə ermənilərlə, nə də ki başqa millətlərlə qohumluğu yoxdur. Olsaydı belə, bu, cinayət hesab oluna bilməzdi. Necə ki, ermənilərlə qohumluqları bəzi iqtidar mənsublarına heç bir maneçilik törətmir.

Elə yuxarıda adını çəkdiyimiz A.Abbasovun ermənilərlə qohumluğu barədə mətbuatda kifayət qədər yazılıb. Buna əhəmiyyət verən belə olmayıb. Ermənilərlə qohumluğu, doğru və ya yalan olmasından asılı olmayaraq, nə Abbasova, nə başqasına qarşı istifadə etmək olmaz.

Maraqlıdır ki, MTN və Baş Prokurorluğun sözügedən açıqlamasında R.Mirqədirovu "ifşa" edən kompromatları və diskləri "Samvel" adlı şəxsin verdiyi vurğulanır. Əlbəttə, əgər "Samvel" adlı şəxs doğrudan da varsa. Bunun özü də şübhə və suallar dolu bir məqamdır.

Başlıca suallardan biri də ondan ibarətdir ki, əgər R.Mirqədirov doğrudan da Ermənistan xüsusi-xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb olunmuşdusa, belə bir nüfuzlu jurnalistin də-şifrə olunmasına nə ehtiyac var idi? Absurd deyilmi?

R.Mirqədirovun Tiflisdə Laura Baqdasaryan və Araik Şirvanyanla görüşü barədə deyilənlər Ruslan Başirlinin 2005-ci ildəki həbsi və onun Tiflisdə iki nəfərlə görüşünün videogörüntülərinin tirajlanmasını xatırladır. Eyni ssenari, eyni cəfəng ittihamlar bu dəfə də səsləndirilir.

İttihamda səsləndirilən daha bir məqama münasibət bildirək. Rauf Mirqədirovun Dağlıq Qarabağ problemi ilə bağlı David Şahnazaryanla müzakirə aparmasını hay-küylə ictimai rəyə təlqin edənlər unudurlar ki, erməni ekspert Ağdamın, Qubadlının, Zəngilanın, Kəlbəcərin, yəni Dağlıq Qarabağ ərazisinə daxil olmayan rayonların azad edilməsinin tərəfdarı kimi tanınır. Erməni ekspert bu mövqeyinə görə ermənilər tərəfindən sərt tənqidlərə məruz qalır.

İstisna deyil ki, Şahnazaryanın güzəştlərə meylli olmasında R.Mirqədirovun təhlillərinin də payı var.

Belə çıxır ki, D.Şahnazaryan R.Mirqədirovu əməkdaşlığa cəlb etməyib, əksinə, azərbaycanlı jurnalist Ermənistan kəşfiyyatçısını kompromislərə vadar edib. Buna görə R.Mirqədirov ordenlə təltif edilməli idi, həbs olunmalı deyildi.

Kənar baxışla görünən budur ki, Rusiya və Ermənistan kəşfiyyatı R. Mirqədirovun sıradan çıxardılması üçün xüsusi plan işləyiblər. Bu oyuna Türkiyə də cəlb olunub. Lakin bu miqyaslı oyun yalnız bir jurnalistə görə planlaşdırıla bilməzdi. Deməli, bu oyunda daha böyük başların getməsi nəzərdə tutulub. Növbə kimindir?



# III dünya savaşının döyüşləri

Xalid KAZIMLI

**Yox, Ukrayna səmasında Malayziya təyyarəsinin vurulması ilə dünyanın gündəmi dəyişmədi. Bu gün də bəşər oğlunun başlıca qayğısı terrordur. Sadəcə, dünya əhlinin gözləri İŞİD-dən, Qəzzada baş verənlərdən Ukraynada gedən proseslərə çevrildi.**

Bu aramsız terror aktları ilə müşayiət olunan 3-cü dünya müharibəsində yaxınlarını, əzizlərini itirənlər üçünsə fərqi yoxdur: istər günahsız insanları İŞİD terrorçuları öldürsün, istər əfqan talibanları, istər Pakistan fanatikləri, istər “Boko Haram” militanları, istər İsrail hərbçiləri, istər “Həmas”, “Hizbullah” döyüşçüləri. Eyni şeydir.

Artıq hamı bilir, hazırda dünyada bir-birilə əlaqəsi olan çoxlu savaş ocaqları var. Cəbhə xətti regionumuza lap yaxınlaşıb və əslində bizim ona qoşulmağımız an məsələsidir. Əgər Qarabağda illərdən bəri korun-korun közərən və bir gün belə atəşsiz qalmayan ixtilaf ocağı qəfildən alovlansa, ölkəmiz 3-cü dünya savaşının içinə qatılanlardan və Ermənistanla birlikdə ayaq altında qalanlardan olacaq.

Son yüz ildə dünyanın 3-cü dəfə bölüşdürülməsi, siyasi xəritəsinin yenidən dizayn edilməsi, ölkələrin sərhədlərinin dəyişdirilməsi prosesi çox ağrılı keçir.

Malayziya təyyarəsinin vurulması məhz bu xoşagəlməz mənzərənin fonunda baş verib.

İndi durub müdrik-müdrik “bu kimə sərf edirdi” sualı qoyub fantaziyaya güc vermək, bir-birindən dərin, ağıllı versiyalar irəli sürmək, mürəkkəb kombinasiyalar *(“bu belə edib ki, o elə olsun”)* düşünmək olar. Ancaq belə məsələlərdə həqiqət həmişə üzdə olur. Bir tərəf çox qaba bir hərəkətə qol qoyur, hadisədən sonra isə beyin işlədilir, izin itirilməsi, kələfin dolaşdırılması üzrə saysız-hesabsız cəhdlər edilir, nəhayət, ortada bir-birinə zidd iki versiya qalır.

Məsələn, dünyada milyonlarla adam hələ də inanır ki, 11 sentyabr teraktını ABŞ özü törədib. Əfqanıstana girmək üçün. Dünyanın ən kasıb ölkəsi olan Əfqanıstanda nə varmış axı? Bunu israrla deyənlər nəzərə almırlar ki, Amerika o dövlətə qoşun yeritməklə 1 trilyon dollardan artıq vəsait itirib, bəs nə qazanıb? Deyəcəklər, narkotik. Sanki ABŞ başqa dövlətlərdə, yaxud özünün intəhasız çöllərində çətənə plantasiyaları becərtdirə bilməz. Mütləq bunu müharibə ilə etməlidir.

Yəni qüdrətli siyasi dairələr özlərinə lazım olanda dövriyyəyə elə bir şayiə, versiya buraxırlar ki, insanlar ya bilə-bilə, ya da bilməzlikdən həqiqəti danır, görmürlər.

İndi eyni mənzərə vurulan Malayziya təyyarəsi ətrafında yaranmaqdadır. Rusiya və onun bütün postsovet məkanında boy göstərən tərəfdarları iddia edirlər ki, təyyarəni Ukrayna özü vurub. Rusiyanın və separatçıların üstünə atmaq üçün.

Amma buna ehtiyac vardımı? Onsuz da bütün Avropa, eləcə də dünyanın demokratik dövlətləri Ukraynaya qarşı aqressiyasına görə Rusiyanı qınayır, ona qarşı sanksiya tətbiq edirlər. Ukraynanın yenicə seçilmiş demokratik hökuməti belə bir antibəşəri aksiyaya qol qoymaqla nə qazana bilərdi? Bu, təxminən bir qumarbazın 1 dollar udmaq üçün 1 milyonluq stavka qoyması kimi bir şey olardı.

Aydın məsələdir ki, bu akt terrorçu təfəkkürlü dairələrin işidir. Terrorçu qruplarla dövlət qüvvələrinin müharibə aparmaq tərzləri çox fərqlidir. Dövlət adamları, generallar Haaqa məhkəməsindən xəbərdardırlar, bilirlər ki, bu cür cinayətlərin üstü əvvəl-axır açılır və tribunalda cavab vermək zorunda qalırlar. Terrorçu qruplaşmalarda isə o qorxu yoxdur. Onlar üşün məqsədə çatmağa imkan verən hər cür hərəkət, cinayət məqbuldur.

Bir də bir neçə gün öncə Ukraynanın həmin regionunda o dövlətə məxsus AN-26 təyyarəsi vurulub və terrorçu-separatçıların başçısı İqor Girkin vurduğu təyyarəni “quşcuğaz” adlandıraraq öyünə-öyünə deyib: “Xəbərdarlıq etmişdik ki, bizim səmamız uçuş üçün təhlükəlidir”.

Budur, sonuncu teraktla onlar bütün dünyaya sübut etdilər ki, doğrudan da Ukrayna səması uçuş üçün təhlükəlidir.

Bu, kimə lazım idi: Ukrayna dövlətinə, yoxsa təyyarə vurmaq üzrə ixtisaslaşan, ölkəni parçalamağa çalışan terrorçulara?

Rusiyada onlara “terrorçu” demirlər, “könüllü döyüşçülər” deyirlər. Onların sərəncamında isə böyük bir dövlətlə müharibə aparmaq üçün hər cür cəbbəxana var.

Aqressor göz önündə olduğu halda onu danmaq absurd işdir. Hazırda minlərlə azərbaycanlı var ki, belə edirlər və ermənilərə qahmar çıxan Rusiya dövlətini müdafiə edərək, dolayısı ilə ermənilərə haqq qazandırırlar.



# Ermənilər girov vətəndaşlarımıza qarşı ittiham irəli sürdü

## Dövlət başçısının məsələni şəxsən nəzarətə götürdüyü bildirilir, Beynəlxalq Qızıl Xaç Komitəsinə isə ciddi xəbərdarlıq edilib

**İşğalçı Dağlıq Qarabağ rejiminin prokurorluğu Kəlbəcərdə ermənilərin əlinə keçən azərbaycanlılar Şahbaz Quliyev və Dilqəm Əsgərova qətl ittihamı irəli sürüb. Ermənistanın “aysor.am” saytı belə xəbər verir.**

İyulun 17-si axşam rəsmiləşdirilən ittihama görə, iyulun 4-də Kəlbəcərdə itkin düşmüş 17 yaşlı Smbat Tsakanyanı azərbaycanlılardan ibarət qrup oğurlayaraq qətlə yetirib. Smbat Sakanyanın 10 gün sonra yaşadığı kənddən xeyli aralıda tapılmış meyitində çoxlu güllə yarasının olduğu bildirilir.

Şahbaz Quliyev və Dilqəm Əsgərovdan başqa daha bir azərbaycanlının Kəlbəcərə keçdiyi xəbər verilir. Onun adı açıqlanmayıb. İddiaya görə, həm şəxs iyulun 11-də Kəlbəcər ərazisində öldürülüb. Qeyd olunur ki, azərbaycanlı ilə atışma zamanı ordunun 42 yaşlı mayoru Sərkis Abramyan həlak olub, 37 yaşlı qadın Karine Davtyan yaralanıb.

Ermənistanın müdafiə naziri Seyran Ohanyan da Kəlbəcərdə girov götürülən Azərbaycan vətəndaşı, əslən bu rayondan olan məcburi köçkün Dilqəm Əsgərovu 17 yaşlı ermənini “xüsusi qəddarlıqla qətlə yetirməkdə” ittiham edib. Ohanyan AzadlıqRadiosunun erməni xidmətinə müsahibəsində “ilkin versiyaya görə” 17 yaşlı Smbat Tsakanyanın “tutulan ikinci diversant” tərəfindən öldürüldüyünü deyib.

Kəlbəcərdə qanunsuz yaşayan erməni iyulun 4-də itkin düşüb, onun cəsədini iyulun 16-da Kəlbəcər kəndlərinin birində, azərbaycanlıların qəbiristanlığında tapıblar. Erməni tərəfi iddia edir ki, S.Tsakanyanın bədənində çoxsaylı güllə yerləri və digər xəsarət izləri olub. Onun cəsədi 5-6 gün günün altında qaldığı üçün iylənib və ermənini bağlı tabutda basdırıblar.

**Ohanyan Tsakanyanın “xüsusi qəddarlıqla öldürüldüyünə” dair sualdan yayınıb. Bildirib ki, bu barədə “hüquq-mühafizə orqanlarından” soruşmaq lazımdır. Ermənistanın müdafiə naziri “azərbaycanlı diversantların” Kəlbəcərdən keçərək uzun müddət Ermənistan ərazisində qaldıqları, Vardenisdə evləri gəzdikləri barədə şayiələrə də münasibət bildirib.**

“Bizdə belə informasiya yoxdur. Şübhəsiz ki, Kəlbəcərə keçən qrup müxtəlif istiqamətlərdə hərəkət edib... Onlar ərazilərdə irəliləyiblər. Ancaq Vardenisdə evlərə giriblərmi - bunu istintaq aydınlaşdıracaq. İllərlə belə məlumatlar yayılırdı ki, təmas xəttinin bu hissəsini qruplar keçir. Və Allaha şükür ki, bu dəfə dəqiq fəaliyyət nəticəsində onların hamısı yaxalandı” - deyə Ohanyan danışıb. Ohanyanın sözlərinə görə, 3-4 gün ərzində Kəlbəcəri tam axtarmaq və qrupun üzvlərinin hamısını tutmaq ciddi nailiyyətdir.



Əli Həsənov

**Ermənistan müdafiə naziri erməni cəmiyyətində Kəlbəcərdə tutulan azərbaycanlıların diversant olmadığına dair fikirlərdən narazılıq edib. Onun sözlərinə görə, əgər başqa cəmiyyətdə belələrini diversant kimi təqdim etsəydilər, cəmiyyət onları elə belə də qəbul edərdi:** “Ancaq bizdə ictimaiyyət, həmçinin bizim keçmiş döyüş yoldaşlarımız deyirlər ki, onlar diversant deyil. Bu, bizim ictimaiyyətə nə verəcək? Bu diversantları aşkar edən, zərərsizləşdirən əsgərlərə nə verəcək? Biz bu əsgərlərə dəstək vermək istəyirik, yoxsa onları məyus etmək?”

**“Qraparak” qəzeti isə “qapalı mənbələrə” istinadən yazır ki, Kəlbəcərdə tutulan azərbaycanlı “diversantların” üzərində qızıl və avro olub.** “Çox güman ki, onlar qızılı və pulu rüşvət vermək üçün saxlayırmış. Belə məlumat da var ki, diversantların birində 2007-ci ildə Stepanakertdə *(Xankəndi-red.)* alınmış erməni pasportu da olub” - deyə qəzet yazır. Qondarma “Dağlıq Qarabağ müdafiə naziri” Movses Akopyan isə bu şayiələri təkzib edib.

**Azərbaycanın Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, baş nazirin müavini Əli Həsənov da məsələ ilə bağlı Ağdamda jurnalistlərə açıqlama verib. O deyib ki, Ermənistan tərəfi əsir və girov götürülmüş şəxslərlə davranış qaydalarını tənzimləyən beynəlxalq aktları pozur:** “Kəlbəcərdə ermənilərin əlinə keçən azərbaycanlılar Şahbaz Quliyev və Dilqəm Əsgərov haqda xəbər yayıldıqdan dərhal sonra cənab prezident bu məsələni şəxsən nəzarətə götürdü, müvafiq qurumlara tapşırıqlar verdi. Onun göstərişinə əsasən, mən Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakı ofisinin rəhbərliyi ilə görüşdüm. Onlar da İrəvan və Xankəndi ofisləri ilə əlaqə saxlayıblar. Ancaq bu günə qədər girov götürülən Dilqəm və Şahbazla görüşmək mümkün olmayıb. Biz bilirik onlara qarşı hansı vəhşiliklər edirlər”.

**Əli Həsənovun fikrincə, hazırda düşmən əlində olan bu iki şəxs əsl vətənpərvər insanlardır:** “Təəssüf edirəm ki, Azərbaycan parlamentinin üzvləri, yüksək vəzifəli şəxslər, QHT nümayəndələri arasında Dilqəmi, Şahbazı qınayanlar var, amma unutmaq lazım deyil ki, o torpaqlar Azərbaycan torpaqlarıdır. Bir kəs ki ölümü gözə alıb doğulduğu yerlərə gedir, deməli, o, çox vətənpərvər adamdır. Üzümü həmin qınaq dolu müsahibələr verən adamlara tutub deyirəm ki, bəsdir, belə şeylərə yol verməyək olmaz!”

**APA-nın məlumatına görə, komitə sədri qeyd edib ki, əgər Ermənistan rəhbərliyi, bu ölkənin xüsusi xidmət orqanları o iki şəxsə qarşı amansız davransalar, xalqlar arasındakı nifrət daha da artacaq:** “Ermənistan rəhbərliyi və xüsusi xidmət orqanları başa düşməlidir ki, hansısa erməni Azərbaycana əsir düşə bilər, onda Azərbaycan tərəfi Şahbaz və Dilqəmə qarşı yol verilən amansızlıqları həmin erməniyə tətbiq edə bilər. Ermənistan anlamalıdır ki, bizim aidiyyəti orqanlarımız soydaşlarımıza qarşı amansızlıqlara göz yummayacaq”.

**Yeri gəlmişkən, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinə ciddi xəbərdarlıq edilib. Bu barədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, baş nazirin müavini Əli Həsənov jurnalistlərə açıqlamasında bildirib:** “Kəlbəcərdə girov götürülənlərlə qısa müddətdə görüş alınmasa, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyi haqqında çox ciddi tədbirlər görüləcək, hətta ölkədən çıxarılana qədər”.

**Əli Həsənov deyib ki, Kəlbəcər rayonu ərazisində girov götürülmüş azərbaycanlılarla bir həftə ərzində görüşün alınmaması Beynəlxalq Qızıl Xaç Komitəsinin fəaliyyətini şübhə altına alır:** “Azərbaycan tərəfinə əsir düşənlərin, girov olanların hansına işgəncə verilib? Nə üçün Azərbaycan tərəfinə bir erməni girov düşən kimi Beynəlxalq Qızıl Xaç Komitəsi Azərbaycan hökumətinə müraciət edir və dərhal görüş təmin edilir. Ermənistan tərəfi nə üçün etmir? Ona görə də mən Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin rəhbərliyi ilə görüşdə ciddi xəbərdarlıq etdim ki, əgər buna nail olmasalar, komitənin Azərbaycandakı nümayəndəliyi haqqında çox ciddi tədbirlər görüləcək, hətta ölkədən çıxarılma həddinə qədər... Zəhmət çəkib tədbir görsünlər”.

❑ Röya RƏFİYEVA

# "Mülki şəxsi "cinayətkar" elan etmək beynəlxalq normaların pozulmasıdır"

## Ümid girov götürülən azərbaycanlılarla bağlı beynəlxalq təşkilatlara müraciət etdi

**Ümid Partiyası ermənilər tərəfindən girov götürülən kəlbəcərlilərlə bağlı Beynəlxalq Qızıl Xaç Komitəsinə, ATƏT-in Minsk Qrupunun həmsədrlərinə, BMT-yə və digər beynəlxalq təşkilatlara müraciət edib.**

**Müraciətdə deyilir:**

- Məlumdur ki, 1991-93-cü illər ərzində Ermənistan silahlı qüvvələri Azərbaycanın 20% torpağını işğal etmiş, orada yaşayan 1 milyona yaxın insan öz ata-baba yurdunu tərk etmişdir. Ermənistan silahlı qüvvələri atəşkəs rejimini tez-tez pozur, təmas xəttində insanlar həlak olur, yaralanır, cəbhəboyu kəndlərdə evlər dağıdılır. Təəssüf edirik ki, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT-nin qəbul etdiyi 4 qətnaməyə Ermənistan əməl etmir, buna baxmayaraq aidiyyəti orqanlar bu özbaşınalıqlara münasibət bildirmir. Bütün bunlar isə Ermənistana işğal etdiyi Azərbaycan torpaqlarında vandalizm hərəkətləri törətmək üçün cəsarət verir. 2014-cü il iyul ayında Ermənistan Respublikasının xüsusi xidmət orqanları Kəlbəcər rayonunda mülkü şəxslər Dilqəm Əsgərov, Şahbaz Quliyev və Həsən Həsənov adlı 3 Azərbaycan vətəndaşını öz dədə-baba yurdu olan Kəlbəcərdə doğmalarının qəbirlərini ziyarət edərkən "diversant" damğasıyla girov götürüb. Bu olaylar Ermənistanın işğala məruz qoyduğu Azərbaycan torpaqlarında etdikləri özbaşınalıqları bir daha sübut edir. Qeyd edək ki, Dilqəm Əsgərov, Şahbaz Quliyev və Həsən Həsənov uzun illərdir ki, Kəlbəcərə gedir, Ermənistanın işğal etdiyi doğma yurd yerlərindən videoçəkilişlərə bağlı edirdi. İndi isə işğalçı tərəf bu şəxsləri əsir götürərək "diversant" olduğu barədə məlumatlar yayır, onları ermənilərin ölümündə suçlayır. Ermənistan Müdafiə Nazirliyi bildirir ki, indiki halda "Hərbi əsirlərlə rəftar" barədə Cenevrə konvensiyasının 4-cü maddəsi bu şəxslərə şamil edilə bilməz. Halbuki azərbaycanlıları bu torpaqlara təhlükəli olsa belə getməyə vadar edən səbəb öz doğma torpaqlarına qovuşmaq həsrəti idi. Biz Ermənistanın bu qərəzli hərəkətlərini azərbaycanlılara qarşı düşmənçilik siyasətini pisləyir, beynəlxalq qurumları baş verənlərə laqeyd qalmamağa çağırırıq. "Diversant" damğası ilə əsir götürdükləri bu 3 azərbaycanlıya qarşı edilən kobud rəftara, verilən işgəncələrə əsasən bəyan edirik ki, Azərbaycanın işğal altındakı ərazilərinə keçmiş iki mülki şəxsi "cinayətkar" elan etmək, onlarla qeyri-insani rəftar etmək, işgəncə vermək beynəlxalq normaların kobud şəkildə pozulmasıdır. Çünki bu şəxslər Azərbaycan ərazisində işğalçı qüvvələr tərəfindən girov götürülüblər. Beynəlxalq təşkilatlardan, xüsusilə də Beynəlxalq Qızıl Xaç Komitəsindən, BMT-dən, ATƏT-dən, və ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən xahiş edirik ki, Kəlbəcər rayonu ərazisində Ermənistan Respublikasının xüsusi xidmət orqanları tərəfindən girov saxlanılan Dilqəm Əsgərovun, Şahbaz Quliyevin və Həsən Həsənovun saxlanma şəraiti ilə yaxından tanış olsunlar. Bir həftədən artıq vaxt keçməsinə baxmayaraq, ermənilər girovlarla görüşə şərait yaratmayıblar, ermənilər tərəfindən öldürüldüyü bilinən Həsən Həsənovun həqiqətən ölüb-ölməməsi dəqiqləşməyib. Xahiş edirik ki, Beynəlxalq Qızıl Xaç Komitəsi və aidiyyəti orqanlar onlara qarşı işgəncə faktlarını qeydə alsınlar və həmin şəxslərin tez bir zamanda azad edilərək öz ailələrinə qovuşmasını təmin etsinlər.

Biz Azərbaycan Ümid Partiyası olaraq bir daha beynəlxalq qurumları və dünya ictimaiyyətini Kəlbəcər rayonu ərazisində əsir götürülmüş 3 azərbaycanlının vəziyyətindən xəbərdar olmağa, tezliklə azad olunması üçün aidiyyəti üzrə fəaliyyət göstərməyə çağırırıq.

Qondarma "Dağlıq Qarabağ Müdafiə Nazirliyi" Azərbaycan ərazisinin işğal etdikləri Kəlbəcər rayonunda azərbaycanlıların öz torpaqlarında atasının qəbrini ziyarətə getdiyinə görə "diversant" damğasıyla əsir götürüb. Erməni saytları iki azərbaycanlının - Dilqəm Əhmədovun və Şahbaz Quliyevin əsir götürüldüyü barədə məlumat yayıb. Qeyd edək ki, Dilqəm Əhmədov və Şahbaz Quliyev uzun illərdir ki, Kəlbəcərə gedir, Ermənistanın işğal etdiyi doğma yurd yerlərindən videoçəkilişlər edirdi. İşğalçı tərəf bu şəxslərin "diversant" olduğu barədə məlumatlar yayır, onları ermənilərin ölümündə suçlayır. Ermənistan Müdafiə Nazirliyi bildirir ki, indiki halda "Hərbi əsirlərlə rəftar" barədə Cenevrə konvensiyasının 4-cü maddəsi bu şəxslərə şamil edilə bilməz. Halbuki azərbaycanlıları bu torpaqlara təhlükəli olsa belə getməyə vadar edən səbəb öz doğma torpaqlarına qovuşmaq həsrəti idi. Onlara qarşı edilən kobud rəftara əsasən bəyan edirik ki, Azərbaycanın işğal altındakı ərazilərinə keçmiş iki mülki şəxsi "cinayətkar" elan etmək beynəlxalq normaların kobud şəkildə pozulmasıdır. Çünki bu şəxslər Azərbaycan ərazisində işğalçı qüvvələr tərəfindən tutulublar, deməli, hərbi əsir sayılırlar.

Azərbaycan Ümid Partiyası olaraq bu iki şəxsin tezliklə azad olunması üçün sizin aidiyyəti üzrə fəaliyyət göstərmənizi xahiş edirik.

**Hörmətlə, Azərbaycan Ümid Partiyasının sədri,**

**Millət vəkili İqbal Ağazadə**

## "Yol bəlli olanda mənzilə yetişmək rahat olur"

### Günel İbadova: "Ümid Partiyasının siyasi mövqeyi və İqbal bəyə olan inamım məni də bu partiyaya üzv olmağa sövq etdi"


Günel İbadova

**Ümid Partiyasında sosial və humanitar şöbəyə yeni müdiri vəzifəsinə təyin olunmuş İbadova Günel Mahmud qızı (Günel Xəzəl) partiyanın mətbuat xidmətinin suallarını cavablandırıb. Günel xanımla müsahibəni oxucular təqdim edirik.**

***- Öncə sizi şöbə müdiri vəzifəsinə təyin edilməniz münasibətilə təbrik edirik. Necə oldu ki, partiyada fəaliyyətə başladığınız az bir müddət ərzində şöbə müdiri təyin olundunuz? Bundan sonrakı fəaliyyətinizi hansı istiqamətdə qurmağı planlaşdırırsınız?***

- Təbrik üçün minnətdaram. Partiya ilə əvvəllər də əlaqələrim var idi, seçki kampaniyaları dövründə, xüsusilə 2013-cü ilin prezident seçkilərində partiyanın apardığı təbliğat-təşviqat işini, müxtəlif sahələr üzrə İqbal bəyin proqram xarakterli çıxışlarını və yanaşmalarını çox bəyəndim. Buna görə də, partiyaya üzv olmaq qərarı verdim və bu ilin may ayının 28-də partiyaya üzv oldum. Amma mənə bu qədər tez bir zamanda etimad göstərəcəklərini gözləmirdim. Güman edirəm ki, bu mənim işimə məsuliyyətli yanaşmağımın nəticəsidir.

Şöbənin işinə gəldikdə, bildirmək istəyirəm ki, qurumun əsasnaməsi ilə tanış oldum. Hazırda vəzifələrin genişləndirilməsi, yeni planların qurulması üzərində işləyirik. Çox geniş və müxtəlif istiqamətli bir sahədir. Əsas işimiz siyasi partiyalar, dini qurumlar, qeyri-hökumət təşkilatları, təhsil, səhiyyə və mədəniyyət, turizm müəssisələri, kütləvi informasiya vasitələriylə əlaqələrin qurulması, sosial və humanitar tədbirlərin təşkili, bu sahədə plan və təkliflərin hazırlanması, problemlərin üzə çıxarılması, əhalinin sağlamlığının qorunması, ideoloji siyasi işin səmərəliyinin və demokratik dəyərlərin daha da inkişaf etməsinin təşkili işinin həyata keçirilməsindən ibarət olacaqdır.

***- Azərbaycanda olan partiyalar içində Ümid Partiyasını seçməyinizin əsas səbəbi nədir? İqbal Ağazadə və ya Ümid Partiyası ilə öncədən əlaqələriniz olubmu?***

- Bir vətəndaş kimi ölkədə gedən siyasi prosesləri mütəmadi izləyirəm, buna görə də siyasətçilər, siyasi partiya funksionerləri, o cümlədən də İqbal bəylə tanışlığım var idi. Bu tanışlığım, Ümid Partiyasının siyasi mövqeyi və İqbal bəyə olan inamım məni də bu partiyaya üzv olmağa, bundan sonra ölkədə gedən siyasi proseslərin izləyicisi yox, iştirakçı olmağa sövq etdi. Bilirsiniz, dünyada üç cür insan var: Həyatın axarını müəyyən edənlər, axara düşüb üzənlər və həyatın axar olduğundan bixəbərlər. Mən də 125-lər siyasi klubu ilə Ümid Partiyasının siyasi kursuna, onun məqsədlərinə və rəhbərliyinə güvənərək özümün və cəmiyyətimizin uğurlu və ümidli gələcəyini müəyyən edənlərdən olmaq istəyirəm. Yol bəlli olanda mənzilə yetişmək rahat olur.

## Ümid Partiyasına yeni şöbə müdiri təyin olundu

**İyulun 16-da Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə yeni sərəncam imzalayıb. Partiya sədrinin imzaladığı sərəncama əsasən İbadova Günel Mahmud qızı (Günel Xəzəl) sosial və humanitar şöbənin müdiri vəzifəsinə təyin edilib.**

İbadova Günel Mahmud qızı 9 iyun 1981-ci ildə Bakıda anadan olub. 1998-ci ildə Nizami rayon 201 saylı orta məktəbi, 2002-ci ildə Odlar Yurdu Universitetinin hüquq fakültəsini bitirib. 2010-cu ildən etibarən dövri mətbuatda ədəbi və sosial mövzularda çoxlu sayda məqaləleri dərc olunub.

"Şakti - qadın dili" hekayələr toplusundan ibarət kitabın müəllifləridəndir.

# Partiya sədri bələdiyyə seçkilərinə hazırlıqla bağlı şöbə sədrlərini dinlədi









**İyulun 18-də Ümid Partiyasının Mərkəzi Qərargahında partiyanın sədri, millət vəkili İqbal Ağazadə partiyanın Gəncəbasar zonasından olan yerli təşkilat sədrlərinin iştirakı ilə müşavirə keçirdi. Müşavirədə partiya sədri ayrı-ayrılıqda bələdiyyə seçkilərinə hazırlığın səviyyəsi ilə bağlı yerli təşkilat sədrlərini dinlədi. Hər bir şöbə sədri təmsil etdiyi rayonun bələdiyyə subyektləri və üzvlərinin sayı, habelə ilkin namizədlərin siyahısı barədə partiya sədrini məlumatlandır və bələdiyyə seçkilərinə hazırlıqlar zamanı rastlaşdıqları bəzi problemlərdən danışdılar.**

Partiya sədri İqbal Ağazadə yerli təşkilat sədrlərinə bələdiyyə seçkiləri ilə bağlı hazırlığı sürətləndirməyin vacib olduğunu bildirdi, onlara tapşırıq və tövsiyələrini verdi.

Qeyd edək ki, bu cür görüşlər davam etdirilir. İyulun 19-da isə Ümid Partiyasının sədri İqbal Ağazadə Cənub zonasında olan partiyanın yerli şöbə sədrləri ilə görüşəcək və seçkilərə hazırlıqla bağlı onları dinləyəcək.

Ötən şənbə günü isə partiyanın Kürdəmir Zərdab, Yevlax, Sabirabad, Ucar, Göyçay rayon şöbə sədrlərinin iştirakı ilə müşavirə keçirərək, partiya sədri yerli şöbələrin bələdiyyə seçkilərinə hazırlıq vəziyyətini öyrənmişdi.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# 16+

Zamin HACI
zaminhaci@gmail.com

**Bugünlərdə informasiya lentlərində məktəblərimiz haqda növbəti maraqlı xəbər yayılmışdır. Xəbərdə deyilirdi ki, Bakıdakı məktəblərdən birinin direktoru müəllimlərdən pul yığıb bankdan aldığı krediti ödəyir. Sitat: "Direktor İradə xanım mənim sinif rəhbəri olduğum sinifi pərən-pərən salıb. İlin əvvəlindən mənə 5 dəfə töhmət verib. Uşaqlar dərs oxumayanda, nadinclik edəndə onları danlaya da bilmirəm, mənə verilən töhmətlərin divardan şəklini çəkib telefonlarının yaddaşında saxlayırlar. Direktordan şikayət edəndə deyir gedin əlinizdən gələni beş qaba çəkin, Təhsil Nazirliyində mənim dalımda da duran var, qabağımda da" *(Oxuculardan üzr istəmirəm, müəllimə elə bu cür deyib)*.**

Bundan sonra jurnalist "KİV haqqında" Qanuna görə direktorun fikrini öyrənib. Direktorun müəllimə haqda fikirləri də bütün pedaqogika, təlim-təhsil, etika-estetika, elm-helm, canım sənə desin, Misir-Mikayıl, kurrikulum-quqquluqium metodikalarına tam uyğundur. Buyurun: "Ay əclaf, ay əclaf qadın... Mədinə məktəbimdə ən savadsız müəllimdi. Onu məktəbdə 7 ildir necə yola verirəm, bunu bir Allah bilir. Onun kimi vicdansız bazar arvadı yoxdur. Məmnuniyyətlə, buradan rədd olub gedərəm, amma Mədinəyə görə getməyəcəm. Özümü min kişidən üstün sayıram, qaçan kişilərdən deyiləm. Bir Mədinənin xarici görkəminə baxın, görün elə müəllim olar? Uşaqları zəifdir, özü tərbiyəsizdir". Sitatın sonu.

Doğrusu, bizdə Mədinə müəllimənin xarici görkəmi haqda məlumat yoxdur, xəbəri yazan jurnalist də ortada bir qadın şəkli qoymuşdu, bilinmirdi bu Mədinə müəllimədir, yoxsa İradə müəllimədir. O səbəbdən, hansının xarici görkəm etibarı ilə müəllim olmağa layiqliyini deyə bilmərik. Oxucularda seçim imkanları olmalıdır. Bir foto ilə necə müəyyən eləyək? Ancaq ümumi olaraq həmin 1 fotoya qiymət vermək mümkündür, hazırda təhsil sistemimiz o simada qadın müəllimələrlə zəngindir, onlar seçkilərdə də həmişə aktiv olur, cənab prezident üçün hər yerdən bülleten çıxardırlar. Tomris, Natəvan, Həcər, Kleopatra, Medeya, Ofeliya, Cülyetta, Leyli qeyrətli bu müəllimlərlə fəxr edirik! Tomris sağ olsa, bizim məktəblərə baş çəksə Kirin yox, özünün başını kəsərdi. Nəsə, çox tarixə baş vurmayaq, yazımızın predmeti ayrıdır.

Tarix və predmet demişkən... Əslində müəllimələrin yuxarıda verdiyimiz dialoqu təhsil sistemimiz üçün görünməmiş hal deyildir. Dərsliklər də bu cür yazılır. Məsələn, bu yaxında hansısa sinfin ədəbiyyat dərsliyindən sitat verilmişdi, orda qəhrəman qarşılaşdığı qadına belə deyirdi: "Kəs səsini, qancığın balası!" Əlbəttə, ədəbiyyatda vulqarizmi şagirdə başa salmaq üçün ayrı çarə yoxdur, söyüş də kitaba yazılmalıdır. Ancaq tək vulqarizm deyil. O cümlədən tək ədəbiyyat da deyil. Bizim tarix dərsliklərində də uşaqlara gözəl sözlər öyrədilir, misal üçün, qədim Roma tarixinə aid dərsdə Mədinə müəllimə uşaqlara kitabdan oxuyur: "Bu vaxt Yuli Sezar qanını silib dedi ki, Brut, köpəyoğlu, sən niyə mənə qılınc soxursan!?"

10-cu sinfin fizika kitabında *("Pedofiliya" nəşriyyatı, Bakı, 2013)* isə Nyutonun arvadı haqda maraqlı məlumatlar, Nils Borun 1942-ci ildə Danimarkada necə əxlaqsızlıqla məşğul olması, Eynşteynin şok, yarıçılpaq fotoları dərc edilmişdir. 9-cu sinfin "Cəbr" kitabında triqonometrik tənlikləri həll edərkən hansı əclaflıqlarla üzləşilməsi, 7-ci sinfin kimya dərsliyində sulfat turşusunun dalında və qabağında Təhsil Nazirliyindən kimin durması, hansı elementlərin açıq havada oksigenlə alaqəyə girib oksidləşməsi və sairə məzmunlu dillə təsvir edilibdir.

Yəni əziz və hörmətli oxucular, bizim təhsil sistemi bütövlükdə "16 plyus"dur. Elə qarşıda duran əsas çətinlik də budur ki, uşaqlar 16 yaşa çatıb məktəbi bitirirlər, dərslikləri və müəllimələrin metodiki çalışmalarını əxz etməyə vaxtları qalmır. Fikrimcə, yaxın illərdə bu problem həll edilməlidir.

# Fransa prezidentinin Qarabağ təşəbbüsü fiasko olur

## Ermənistanın "diversant oyunu" onsuz da dalanda olan sülh prosesini daha da qəlizə salacaq; prezidentlərin Paris görüşü baş tutmaya bilər...

**Qarabağ danışıqlarında üzücü durğunluq dövrü davam edir. Bunun bir göstəricisi də Azərbaycan və Ermənistan prezidentləri arasında bu il bircə görüşün də baş tutmamasıdır. Halbuki indiyədək hər il ən azı bir-iki, hətta 3-4 bu cür təmas olub. Amma 2014-ün ikinci yarısı gedir, prezidentlər səviyyəsində təmas ehtimalı azalır ki, artmır.**



Xatırladaq ki, İlham Əliyev və Serj Sərkisyan arasında sonuncu dəfə görüş təşəbbüsü ilə Fransa prezidenti Fransua Olland regionda səfərdə olarkən çıxış edib. Lakin tərəflər bu təşəbbüsə müsbət yanaşsa da, hələ ki nə görüş vaxtı təxmini məlumdur, nə də bu yöndə hansısa ciddi hərəkətlilik var. Vəziyyətdən isə deyəsən, ən çox ABŞ və Fransa narahatdır - Minsk Qrupunun Qərbi təmsil edən iki həmsədr dövləti olaraq. Çünki status-kvonun qalması indi heç vaxt olmadığı qədər Rusiyanın maraqlarına uyğundur və eyni zamanda yeni müharibə risklərini artırır.

Bu arada situasiyanı şərh edən Azərbaycanın Prezident Administrasiyasının şöbə müdiri Novruz Məmmədov deyib ki, Bakı görüş xətrinə görüş tərəfdarı deyil. Bu da o anlama gəlir ki, Azərbaycan bundan sonra belə təmaslara daha tələbkar yanaşmaq niyyətindədir, nəinki sıradan bir hadisə və şəkil çəkdirmək fürsəti kimi.

Doğrudan da indiyədək Avropa, Amerika və Rusiya şəhərlərində onlarla belə görüş olub. Lakin onların heç biri rəsmi İrəvanın maksimalist və barışmaz mövqeyi ucbatından produktiv olmayıb. Yenə belə olacağı ehtimalı yetərincə güclüdür. Erməni tərəfinin girov götürdüyü kəlbəcərli qaçqınlar - Dilqəm Əhmədov və Şahbaz Quliyev üzərində qurmağa hazırlaşdığı diversant tamaşası isə növbəti görüşün önəmini bəri başdan heçə endirir. Nədən ki, münaqişə tərəfləri arasında onsuz da defisit olan etimad mühitini bir az da sarsıdır. Deməli, paralel surətdə Rusiyanın destruktiv planlarına işləyir, müharibə risklərini gücləndirir.

Beləliklə, Ermənistanın "diversant oyunu" onsuz da dalanda olan sülh prosesini bir az da qəlizə sala, Rusiyanın əlinə, Qərbin, konkret olaraq Fransanın təşəbbüskarlığı əleyhinə işləyə bilər. Bu xüsusda Fransanın Ermənistandakı səfiri Anri Renonun Kəlbəcər insidentindən narahatlıq ifadə eləməsi anlaşılandır.

**Ermənilərin girov götürdüyü kəlbəcərlilərdən danışan diplomat deyib:** "Təmas xəttində insidentlər Qarabağ probleminin həlli ilə bağlı danışıqlar prosesinin irəliləməsinə kömək edə bilməz. Təbii ki, biz hər dəfə təəssüf hissi keçiririk ki, təmas xəttində belə xoşagəlməz hadisələr baş verir. Bu cür olaylar nizamlama prosesini qabağa aparmaq üçün zəruri olan əlverişli etimad atmosferinin yaradılmasına xidmət edə bilməz. Hər dəfə də biz tərəfləri təmkinli olmağa, ən əsası, 1994-cü ildə imzalanmış atəşkəs rejimi haqda anlaşmaya sadiq qalmağa çağırırıq".

Səfirin açıqlamasında əslində ən əvvəl erməni tərəfinə ünvanlı bir narazılıq var. Hər halda, prezidentlərin birbaşa təmas şansına zərbə vuran həmin insidentin baiskarı azərbaycanlılar deyil, ermənilərdir. Onlar saxlanılan şəxsləri dərhal Qırmızı Xaça təhvil vermək əvəzinə, girovlar üzərində böyük siyasi-təbliğati şou düzəltmək yolu tutdular ki, bu da Fransua Ollandın münaqişə tərəfləri arasında etimad atmosferini gücləndirməyə hesablanmış məlum təşəbbüsünü urvatsız edir.

Baş verənlər növbəti dəfə işğalçı ölkənin Qarabağ münaqişəsinin dinc həllində maraqlı olmadığını, öz addımları ilə Rusiyanın forpostu və maşası qismində çıxış elədiyinə şəkk-şübhə saxlamır. İndi belə bir marionet ölkənin başçısı ilə bir araya gəlməyin anlamı qalırmı? Sual ritorikdir.

**❑ Siyasət şöbəsi**

# Neft-qaz amili demokratiyanı yenə üstələyir

## Toni Bleyer Azərbaycan qazı ilə bağlı məsləhətçi işinə götürüldü

**Böyük Britaniyanın keçmiş baş naziri Toni Bleyer Azərbaycan qazının Avropaya nəqli üzrə BP-nin başçılıq etdiyi konsorsiumun məsləhətçisi təyin edilib. Bu barədə "The Financial Times" "Şahdəniz-2" layihəsinə yaxın mənbəyə istinadən yazıb. Mənbə bildirib ki, Toni Bleyer BP və partnyorları tərəfindən yaradılan, Almaniyanın keçmiş xarici işlər naziri Hans-Ditrix Genşer və "Goldman Sachs İnternational"ın sədri, BP-nin keçmiş icraçı direktoru Piter Sazerlendin daxil olduğu məsləhət qrupuna işə cəlb edilib.**



Toni Bleyer

45 milyard avroluq layihə Azərbaycanın "Şahdəniz-2" yatağından hasil olunacaq qazı TANAP və TAP kəmərləri ilə Avropaya nəql etmək, bununla da Avropanın Rusiya qazından asılılığını azaltmaq üçün nəzərdə tutulub.

BP bildirib ki, "Cənub dəhlizi"nə dair məsləhət qrupu "Şahdəniz-2", TANAP və TAP layihələrinin reallaşması dövründə meydana çıxa biləcək siyasi, ekoloji, imic və sosial problemlərin həlli üzrə məsləhətlər verəcək. Toni Bleyer bu qrupa siyasi və işgüzar təcrübəsi nəzərə alınaraq seçilib. Mənbə deyib ki, "Cənub dəhlizi"nə 7 ölkə cəlb olunduğundan ortaya çıxacaq normativ və ekoloji problemlər çıxa bilər.

Virtualaz.org saytı isə xatırladır ki, Toni Bleyer 2009-cu ilin dekabrında Azərbaycanda oliqarx Nəsib Piriyevin və oğlu Nizami Piriyevin "AzMeCo" şirkəti tərəfindən Avropa Yenidənqurma və İnkişaf Bankının krediti hesabına inşa edilən metanol zavodunun təməlqoyma mərasimində iştirak edib, bu mərasimdə 20 dəqiqəlik çıxışı üçün 200 min dollar qonorar alıb. Həmin açılışda iştirakına görə Toni Bleyer Britaniya mediası, deputatları və insan haqları fəalları tərəfindən amansız tənqidə məruz qaldı. Ondan tələb edirdilər ki, aldığı pulu ya geri qaytarsın, ya da insan haqlarının müdafiəsi ilə məşğul olan təşkilatlardan birinə versin.

Toni Bleyer həmçinin 2011-ci ildə Qazaxıstan hökumətinin islahatlar proqramında məsləhət xidməti verib və Nazarbayevlə oturub-durmasına görə xeyli tənqid olunub.

Toni Bleyer Yaxın Şərq kvartetinin-ABŞ, Avropa İttifaqı, BMT və Rusiyanın xüsusi təmsilçisidir. Lakin o, Yaxın Şərqə səfərlərindən öz biznesi üçün istifadə edir. Keçmiş baş nazirin "Toni Bleyer Associates" adlı konsaltinq şirkəti var, həmçinin iqlim dəyişikləri üzrə "Climate Group" fondu ona bağlıdır.

Britaniyanın keçmiş baş nazirinin Azərbaycan qazı ilə bağlı məsləhət işinə təyin edilməsi ərəfəsində Yorq hersoqu şahzadə Endryü Bukinhem sarayında BP-nin icraçı direktoru Robert Dadli ilə məxfi görüş keçirib. Bu görüşün ardınca Britaniyanın enerji naziri Maykl Fellon Bakıya səfər edib və Cənub qaz dəhlizinin reallaşmasına dair danışıqlar aparıb.

Onu da qeyd edək ki, Toni Bleyer baş nazir işlədiyi zamanlarda Azərbaycanın demokratik qüvvələrinin ölkəmizdə demokratiyaya dəstək umduğu dövlətlərdən biri Böyük Britaniya idi. İndinin özündə demokratik qüvvələr Qərbin dəstəyini gözləyirlər. Lakin məlum olur ki, neft-qaz amili yenə də demokratiyadan öndədir. Müxalifətin vaxtilə demokratiyaya dəstək verəcəyini gözlədiyi Toni Bleyer kimi siyasi liderlər Azərbaycan hakimiyyəti ilə müştərək işləyən nəhəng şirkətdə işə götürülür.

**Bu hadisəyə aparıcı müxalifət təşkilatı olan Müsavat Partiyasının başqan müavini Gülağa Aslanlı münasibət bildirib. G.Aslanlı dedi ki, bir sıra böyük dövlətlər, onların siyasi liderləri zaman-zaman demokratiyanı yox, məhz enerji təhlükəsizliyini öz maraqları üçün önə çıxarırlar:** "Biz bu halın artıq neçə dəfə şahidi olmuşuq. Amma hansı keçmiş dövlət və ya hökumət başçısının sonradan Azərbaycanla əlaqəsi olan hansısa şirkətə müşavir, məsləhətçi kimi təyin olunması Azərbaycan müxalifətinin həmin ölkəyə münasibətini müəyyənləşdirə bilməz. Siyasət zamanında baş verən hadisələrə verilən qiymətdir. Toni Bleyer hazırda Böyük Britaniyada rəsmi vəzifə daşımayan şəxsdir. Toni Bleyer BP-də məsləhətçi vəzifəsinə qoyulduğu üçün Böyük Britaniyaya etiraz edilsə, bu məntiqlə götürsək onda ümumiyyətlə ABŞ-la heç bir münasibət saxlamayaq. Çünki ABŞ-ın keçmiş səfirlərindən biri Azərbaycanda gəlib iş qurub. Müxalifət, siyasi qüvvələr bu cür məsələlərdə ehtiyatlı davranmalı və ölkələr, xalqlar arasında münasibəti korlayan fikirlərə yer verməməlidirlər. Bleyerin də BP-də vəzifəyə təyin olunması həmin şirkətin öz işidir. O şirkətin Azərbaycan müxalifətinə heç də yaxın olmaması 2003-cü il hadisələrinə münasibətdə özünü göstərib".

**❑ Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 183 (5892) 19 iyul 2014

**"Akkord" şirkətində şok korrupsiya faktları barədə 15 gün öncə yazmışdıq. Redaksiyamıza daxil olan məlumat əsasında hazırlanan yazıda bildirilirdi ki, 2013-cü ilin oktyabrından şirkətdə işlər qismən dayanıb. Bunun da nəticəsində maaşların verilməsində fasilələr yarandığı deyilirdi.**

# Zakir Qaralov şirkətindəki korrupsiyanı ört-basdır edir

## "Akkord"da aşkarlanan 20 milyon yeyinti faktına görə heç kim həbs edilməyib; korrupsiyaya qarşı mübarizə aparan quruma rəhbərlik edən baş prokuror dövlətin pulunu mənimsəyən cinayətkar şəbəkəni himayə edir

Məqalədə bildirilirdi ki, şirkətin baş direktoru Xəqani Quluzadənin işdən çıxarılmasını onun xaricə təhsil almağa getməsi kimi izah ediblər. Yazıda bildirildiyinə görə, X.Quluzadənin işdən çıxarılması adi məsələ deyildi, ortada ciddi məsələlər dayanırdı. Belə ki, onun adı "Akkord"da baş vermiş çoxsaylı maliyyə yeyintilərində əsas fiqur olaraq çəkilirdi.

Onun işdən kənarlaşdırılması haqda göstərişin "Akkord"un əsas səhmdarı sayılan İlqar Hacıyev tərəfindən verildiyinə dair yazıda iddia yer alırdı. Məqalədə daha sonra qeyd olunurdu ki, İlqar Hacıyev 2010-cu ildən "Akkord"dan ayrılsa da, əsas səhmdar kimi qalırdı və Almaniyada "Akkord"un nümayəndəliyində oturudu. Onun qayıtması və şirkətdə təmizləmə aparması səbəbsiz deyildi.

"Xəqani Quluzadənin "Akkord"a rəhbərlik etdiyi son üç ildə şirkət Azərbaycan Beynəlxalq Bankından yarım milyard manatdan çox kredit götürərək bölgələrdə müxtəlif layihələr başlayıb" - deyə yazıda bəhs olunurdu. O da bildirilirdi ki, kreditlər Xəqani Quluzadə, onun tikinti üzrə müavini Elçin Bədəlov, su-kanalizasiya departamentinin rəhbəri Fariz Cəmilli və istehsalat departamentinin direktoru Kamil Hüseynov tərəfindən mənimsənilib. Kreditlərin qaytarılması məsələsi gündəmə gələndə şirkət çətin vəziyyətə düşüb.

**Daha sonra yazıda bildirilirdi:** "Krediti qaytarmaq lazımdır, pul isə yoxdur. Kreditin qaytarılmamasını görən Beynəlxalq Bank rəhbərliyi üz tutur bankın əsl sahiblərinə. Bunlar isə çox qüdrətli insanlardır və kim olduqlarını xatırlatmağa ehtiyac yoxdur. Məhz bu qüdrətli əlin köməyi ilə "Akkord"un əsas səhmdarı İlqar Hacıyev Almaniyadan gətirilib və ona şirkəti bu günə salmış adamları təmizləmək tapşırığı verilib".



Zakir Qaralov

**15 gün öncə "Yeni Müsavat"da dərc edilmiş məqalədə bildirilirdi ki, yoxlamalar ilk olaraq kreditin ən çox mənimsənildiyi su-kanalizasiya və istehsalat departamentlərində başlayıb və külli miqdarda yeyinti faktları aşkarlanıb. Məqalədən sitat:** "Təsəvvür edin ki, su-kanalizasiya departamentinin təkcə Şəmkir layihəsinin anbarında 300 min manatlıq material əskikliyi aşkar edilib. Ümumilikdə isə departamentdə 20 milyon manata yaxın yeyinti aşkar edilib. Yoxlamalar təkcə "Akkord"un Audit Departamenti tərəfindən deyil, həm də kənardan dəvət olunmuş audit şirkəti tərəfindən aparılırdı".

**Yazıda daha sonra Fariz Cəmillinin fəaliyyətindən bəhs edilirdi:** "Onun "Akkord"un bu günə düşməsində "xidmətləri" çoxdur. Belə ki, onun özünün AGE adlı ayrıca şirkəti var və tunel tikintisi ilə məşğuldur. O, şirkətin sifarişlərini ayrı-ayrı subpodrat şirkətlərə satıb".

Yazıda yeyintilərə görə cinayət işi açıldığı və cinayət işinin Korrupsiyaya Qarşı Mübarizə İdarəsində olduğu vurğulanırdı.

Audit yoxlamalarından sonra tikinti üzrə baş direktorun müavini Elçin Bədəlovun, təhqiqat departamentinin direktoru Şahin Məmmədovun, su-kanalizasiya departamentinin direktoru Fariz Cəmillinin, infrastruktur departamentinin direktoru İlqar Budaqovun, kadrlar departamentinin direktoru Səbinə Feyzovanın işdən çıxarıldıqları haqda da yazıda bəhs edilirdi. Məqalədə Xəqani Quluzadədən sonra "Akkord"a rəhbər təyin olunmuş Göksəl Aybək haqda ittihamlar yer alırdı. Bildirilirdi ki, Göksəl Aybək ancaq öz həmvətənlərini müxtəlif vəzifələrə irəli çəkməklə məşğuldur.

"Akkord" şirkətinin baş prokuror Zakir Qaralova məxsus olduğu haqda xəbərlər yeni deyil. Düzdür, mediada gedən xəbərlərə görə, bu şirkət bir neçə il öncə əl dəyişdirdi. Amma "Akkord"dun nəzarət paketinin əhəmiyyətli hissəsinin hələ də Z.Qaralovda qaldığı haqda təkzib edilməyən məlumatlar var.

Görünür, buna görədir ki, üstündən 15 gün keçməsinə baxmayaraq, hələ də Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi "Akkord"dakı yeyintilərlə bağlı ictimaiyyəti bilgiləndirməkdən yayınır. Baş prokuror ölkədə korrupsiyaya qarşı mübarizə aparan idarənin başında dayanır, bu qurumun işinə birbaşa rəhbərlik edir, amma ona məxsus olduğu deyilən şirkətdə 20 milyonluq yeyinti faktına görə bir nəfər olsun belə həbs edilməyib. Vaxtaşırı Baş Prokurorluğun mətbuat xidməti rayonlarda, kənd və qəsəbələrdə antikorrupsiya tədbirləri haqda press-relizlər yayır. Həmin press-relizlərdə kiçik məmurların rüşvət aldıqlarına görə həbsindən bəhs edilir. Fəqət ölkənin ən iri şirkətində 20 milyon manat oğurlanır, dövlət əmlakı talan edilir, buna görə bir nəfər də olsun həbs edilmir.

**Bu anlaşılmaz vəziyyətlə bağlı hörmətli Zakir Qaralovun izahatını dinləməyə və çap etməyə hazırıq.**

**❑ R.QURBANOVA**

# Günəşdən pay almayanlar...



**Hüseynbala SƏLİMOV**

**Təbii ki, hər yuvarlaq tarixə də yubiley demirlər. Amma illər illərdir və onlar bir çox hallarda insanlara öz sevdikləri şəxsləri, yaradıcı şəxsiyyətləri bir daha anmaq imkanı verir.**

Bəli, bu həftə rus yazıçısı A.Çexovun ölümündən düz 110 il keçdi. Burada bu yazıçı haqda ətraflı, geniş yazmaq fikrindən çox uzağam.

Bəzi yazıçıların bədbəxtliyi ondadır ki, insanlar onlar haqqında hər şeyi bildiklərini zənn edirlər. Çoxdan klassikaya çevrilmiş A.Çexov da belələrindəndir. Ona görə də bircə şeyi qeyd edəcəm ki, görünür, artıq zaman da dəyişib, A.Çexov erası da geridə qalıb, daha 19 əsr 21-ci əsrin internet adamını bir o qədər də sehrləndirmir.

Bir də onu qeyd edim ki, Çexova münasibət həmişə öz estetikliyi ilə seçilib. Xüsusən də bu münasibət Qərbdə daha qabarıq olub. Məni isə bu yazıçı fərqli bir aspektdən öz sehrli ədəbi aləminə cəlb etdi.

Təqvim yadıma onun "6 nömrəli palata" əsərini saldı. Bu əsəri hələ çox gənc ikən, çoxdan, sovet dövründə oxumuşdum. Əsərlə bahəm bizi həm də belə bir detal sehrləmişdi ki, onu ilk dəfə oxuyan V.Lenin o qədər təsirlənibmiş ki, otaqda otura bilməyib, şəhərə çıxaraq özü də hara və necə getdiyini bilmədən bir xeyli dolaşıbmış.

Bunu ona görə xatırladım ki, o vaxtlar bizə V.Leninin həm də qüsursuz ədəbi zövqə malik olduğunu aşılayırdılar. Təbii ki, biz o vaxt bilmirdik ki, bu "qüsursuz ədəbi zövq"ü olan insan böyük bir ölkəni 6 nömrəli palataya - ruhi xəstəxanaya çeviribmiş. O vaxt biz hələ qayğısız uşaqlar idik, böyüklərin, yaşlıların nələr çəkdiyini bilmirdik...

İndi hər şey yerini dəyişib, o vaxtın ahılları dünyadan köçüb, o vaxtın uşaqları isə ahıllaşıblar. Elə ölkə də dəyişib. O, irili-xırdalı bir neçə ölkəyə bölünüb. Biz də onlardan birində - Azərbaycanda yaşamalı olduq. Elə mənə də 6 nömrəli palatanı yada salan Azərbaycan oldu. Demirik ki, digərlərində vəziyyət fərqli, başqadır, yox, elə burada olduğu kimidir, bəlkə də bir az da pisdir...

A.Çexov mənə bir daha yaşadığımız mühitin ağırlığını, onun dözülməz psixoloji təzyiqini yada saldı. Bu ölkənin təkcə istisi və tozlu küləyi insanı bezikdirmir, bu ölkədə insana olan münasibət, insanların biri-birinə münasibəti də adamı bezikdirir.

Çox yorucu ölkədir. Adam bu ölkədə zəif bir işığın həsrətindədir, halbuki bu ölkə Günəşli ölkə adlanır. Amma bu ölkənin neftindən, qazından və başqa sərvətlərindən olduğu kimi Günəşindən də hamıya pay düşmür. Günəşdən pay almaq da bu ölkədə bir imtiyazdır.

Mən siyasətdən çox yazıram. Bəlkə də bu da bir səhv oldu. Bir vaxt mənə elə gəldi ki, siyasətlə, siyasəti dəyişməklə bu ölkəni də dəyişmək mümkün olacaq. İndi demirəm ki, yanılmışıq. Amma nə siyasəti dəyişdirə, nə də ölkəni dəyişə bildik.

Bəlkə də başqa istiqamətdən, elmdən və mədəniyyətdən cəhd etsəydik, nələrəsə nail olardıq? Bilmirəm, ola bilsin, bu, da mübahisəlidir. Ona görə ki, elmdə də, mədəniyyətdə də çox dəyərli, istedadlı insanlar var. Onlar da bir şey edə bilmədi.

Əvvəldə bu ölkəni A.Çexovun 6 nömrəli palatasına bənzətdim. İndi bir daha bir az əvvəldə yazdığım sətirlər haqqında düşünərkən bu bənzətmənin yerində olduğu qənaətindəyəm - "ruhi xəstəliklər"in çoxunun müalicəsi yoxdur. Bəlkə elə buna görə bu ölkədə heç nəyi dəyişə bilmədik?

Bilmirəm. Hər halda çox qəliz məsələdir. Bəli, bir vaxt çox şeyi dəyişmək, çox şeyi yenidən başlamaq istəyirdik. İndi isə sadəcə, ətalət üzrə yaşamaqda davam edirik, necə deyərlər, nə qədər çəkər, çəkər...

Amma A.Çexov başqa nümunəni təqdim edir. Hələ sovet vaxtlarında onun bir fikri olduqca populyar idi: "İnsanda hər şey gözəl olmalıdır...".

Bəli, buna görə, bu gözəlliyə görə yaşamağa dəyərdi. Mən bu gözəlliyin izini hətta A.Çexovun zahiri görkəmində də axtarmışam. Bəli, onun çox müdrik bir görkəmi vardı...

Əslində bizi də yalnız bu, hifz edir, bu, yaşamağa kömək edir. Hətta gözəllik olmayan yerdə də gözəllik axtarırıq. Bu ölkəni olduğu kimi, necə var, sevməyə çalışırıq. Həm də çalışırıq ki, utopiyadan qaçaq. F.Dostoyevskinin təsvirində hətta Peterburqun dalanları da gözəldir. A.Çexovun əsərlərində də mübahisəli rus gerçəkliyi, rus reallığı gözəl görünür...

Gəlin biz də buna çalışaq. Çalışaq ki, Azərbaycan da gözəl görünsün, bəli, heç nəyə baxmadan, elə olduğu kimi...

# Hüquq müdafiəçisinin DSX-yə qarşı məhkəməsi başlayır

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlının Dövlət Sərhəd Xidmətinə (DSX) qarşı məhkəməsi başlayır. Bu barədə musavat.com-a hüquq müdafiəçisi özü məlumat verib.**



Mirvari Qəhrəmanlı

O bildirib ki, iyulun 26-da 1 saylı İnzibati İqtisad Məhkəməsində DSX-yə qarşı iddiasına baxılacaq: "Məhkəmə 10.30-da keçiriləcək. Hakim Sevinc Əliyevadır. Mənim hüquqlarını isə İntiqam Əliyev müdafiə edəcək".

M.Qəhrəmanlının sözlərinə görə, bu il mayın 22-də DSX-nın əməkdaşları onun qızı, Qadın Krizis Mərkəzinin rəhbəri Mətanət Əzizovanın həyat yoldaşı Eldar Əzizov və övladı Camal Əzizovun Gürcüstana getməsinin qarşısını alıblar: "Dövlət Sərhəd Xidməti onları qanunsuz olaraq saxlayıb. Bizim sorğumuza cavab olaraq bildiriblər ki, məsələ ilə bağlı Respublika Prokurorluğuna müraciət etməliyik. Deməli, Sərhəd Xidməti heç bir məhkəmə qərarı olmadan onları saxlayıb. Məhkəmənin qərarı olmadan DSX ailə üzvlərimin ölkə konstitusiyasının 28-ci maddəsini və "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasını pozub. Həmin göndərdikləri məktub da işə əlavə olunub".

Xatırladaq ki, Mətanət Əzizova mayın 1-də Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İstintaq İdarəsində 4 saata yaxın dindirilib. Mayın 6-da isə onun evində axtarış aparılıb. Mətanət Əzizova həbs təhlükəsi səbəbindən ölkəni tərk edərək, Avropa ölkələrindən birində yerləşib.

**❑ RÖYA**

YENİ MÜSAVAT
N 183 (5892) 19 iyul 2014

**Müsavat Partiyası Divanının üzvü, eyni zamanda beynəlxalq səviyyəli iqtisadçı-ekspert Qubad İbadoğlu "Yeni Müsavat" qəzetinin qonağı olub. Vətəndaş cəmiyyətinin fəal iştirakçılarından olan Q.İbadoğlu Azərbaycanda və regionda gedən bir sıra siyasi, iqtisadi məsələlər haqqında sualları cavablandırıb. Söhbətin birinci hissəsini təqdim edirik.**



# "Müsavatın başqanı olsam QHT sektorundakı işlərimdən imtina edəcəm..."

## Qubad İbadoğlu: "Xarici səfərlər mənim əsas gəlir mənbəyimdir"

***- Qubad bəy, bugünlərdə Almatıdan qayıtmısınız. Səfərin məqsədi nə idi?***

- Almatı səfəri Meksika səfərinin davamı idi. Biz beynəlxalq səviyyədə Şəffaflıq Təşəbbüsünü idarə edirik. Bu qurumun İdarə Heyətində təmsilçiliyim bütövlükdə Avrasiya regionu ilə bağlıdır. Söhbət Albaniyadan Əfqanıstana qədər böyük bir coğrafiyadan gedir. Şəffaflıq Təşəbbüsü İH-nin Qazaxıstan vətəndaş cəmiyyətinin bu prosesdə iştirakını dəyərləndirmək üçün Almatıda toplaşdıq. Müzakirələr zamanı gördük ki, Qazaxıstandakı problemlər Azərbaycandakından heç də az deyil. Orada da Azərbaycandakı kimi qanunvericilik sərtləşdirilib. Düşünürəm ki, yaxın zamanlarda Qazaxıstanın vətəndaş cəmiyyəti institutlarının işində də Azərbaycandakı kimi ciddi problemlər yaranacaq. Bu texnologiya Rusiyadan gəlir. Proses öncə Rusiyadan başladı. Məqsəd xarici donorların vətəndaş cəmiyyətinə yardımlarını azaltmaqdır. Müəyyən mənada buna nail olunub. 2013-cü ilin yekunları üzrə götürsək, Azərbaycanda qeydiyyatdan keçmiş qrant layihələrində ümumi dövriyyənin 65 faizi yerli donorların, 35 faizi xarici donorların payına düşür. Öncəki illərdə isə xarici donorların iştirak faizi daha yüksək olurdu. Çox təəssüf, bu proses qanundan kənarlaşmalarla idarə olunur. Biz Qazaxıstandakı vətəndaş cəmiyyəti ilə ortaq problemləri geniş müzakirə etdik. Məqsədimiz odur ki, Şəffaflıq Təşəbbüsündə vətəndaş cəmiyyətinin iştirak imkanları artırılsın.

***- Qazaxıstanla Azərbaycanı müqayisə edənlər adətən Qazaxıstanda vətəndaş azadlıqlarının daha üstün olduğunu deyirlər. Bu, illüziya deyil ki?***

- Əslində Qazaxıstan və Azərbaycan hakimiyyətləri arasında mahiyyət baxımından fərq yoxdur - idarəetmə üsulu eynidir. Orada da vətəndaş cəmiyyəti məqsədli şəkildə zəiflədilir. Ancaq Qazaxıstanın Azərbaycandan bir fərqi var ki, böyük ölkədir, sərvətləri genişdir, iqtisadiyyatı daha çox şaxələnib. Ölkə gəlirlərinin heç də hamısı neft və qaz hasilatından asılı deyil. Mədən sənayesi də ölkədə yetərincə inkişaf edib. Üstəlik, Qazaxıstanda biznes üçün daha liberal şərait var. Müəyyən səviyyəyə qədər biznes azaddır. Təbii, tam azadlıqdan söhbət gedə bilməz, amma kiçik və orta biznes yetərincə sərbəst fəaliyyət göstərə bilir, nəticədə orta təbəqə formalaşır.

***- Demək, bir addım bizdən öndədilər.***

- Hətta daha çox. Biznesə şərait yaratmaq o deməkdir ki, iş yeri problemlərini həll edə bilirlər, toplumda sabit gəlirlərə malik qrupun payı artır. Qazaxıstanda uzun illər dövlətin maliyyələşdirdiyi xaricdə təhsil proqramı var. O proqram çərçivəsində Qazaxıstan xaricdə on minlərlə gənc mütəxəssis yetişdirib. Orada təhsilin inkişaf səviyyəsi də Azərbaycandan yüksəkdir. Həm orta, həm də ali təhsili nəzərdə tuturam. Qazaxıstan mediasında bu gün Fətullah Gülən camaatına yaxın məktəblərin bağlanması ilə bağlı məsələ geniş müzakirə edilir. Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan Qazaxıstan prezidenti Nursultan Nazarbayevdən liseylərin bağlanmasını istəsə də Nazarbayev razılaşmayıb. Bu gün Qazaxıstanda bu camaətin 42 məktəbi, 2 universiteti fəaliyyət göstərir. Hətta Qazaxıstanda o məktəblər bağlansaydı, ölkənin təhsil sistemi Azərbaycandakı kimi çox itirməzdi. Çünki Qazaxıstanın öz təhsil sistemi Azərbaycandakından yüksəkdir. Azərbaycanda isə alternativlər çox azdır. Yeri gəlmişkən, onu deyim ki, Türkiyədə Gülən camaatının məktəbləri hələ də bağlanmayıb. Məktəblərə də, tədris kurslarına da 2015-ci ilə qədər möhlət verilib ki, onlar ya dövlət, ya da özəl təhsil sisteminə transformasiya olunsunlar. Türkiyənin özündə belə bu məsələ Azərbaycandakı kimi sərt şəkildə qoyulmadı.

***- Siz Mədən Sənayesində Şəffaflıq Koalisiyasında təmsil olunursunuz. Mədən sənayesi Azərbaycanda ən qaranlıq işlər görülən sahələrdən biridir. Sizin partiyadaxili rəqiblərimiz bu məsələdə bəzən sizin əleyhinizə fikirlər səsləndirirlər. Hətta sizi Azərbaycan hakimiyyətinin mədən sənayesindəki qaranlıq işlərini leqallaşdıran şəxs kimi təqdim etməyə də çalışırlar. Belə qaranlıq bir mühitdə şəffaflığı təmin etmək mümkündürmü?***

- Təbii, şəxsən məni təmin edən səviyyədə şəffaflığa nail olmaq mümkün deyil. Biz hesab edirik ki, bu sahədə şəffaflığın təmin edilməsi üçün iki istiqamətdə dəyişikliklər edilməlidir. Birincisi, mülkiyyət sahibləri açılmalıdır. Bununla bağlı Azərbaycan hökumətinin Şəffaflıq Təşəbbüsündə pilot layihəsi var idi. Ancaq sonradan 12 ölkə bu prosesə qoşulsa da, Azərbaycan qoşulmadı. Qazaxıstanla Qırğızıstan bu məsələ ilə bağlı beynəlxalq öhdəlik götürüb. İkinci məsələ isə xərclərin şəffaflığı ilə bağlıdır. Xərclərin şəffaflığı məsələsi isə bizim bugünkü mandatımıza girmir. Azərbaycanda xərclərin şişirdilməsi prosesi gedir, layihələrin qiyməti qabaqlar on milyonlarla idi, sonra yüz milyonlara, indi artıq milyardlara yüksəlib. Ancaq bu xərclərlə bağlı informasiyalar heç bir şəkildə açıqlanmır. Cəmiyyətdə də belə bir təsəvvür yaranır ki, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü öz missiyasını yerinə yetirə bilmir. Bizim indiyə qədərki mandatımız çox dar çərçivədə müəyyən edilmişdi. Mandat ondan ibarət idi ki, şirkət hökumətə nə ödəyirsə, o haqda açıqlama verməlidir, hökumət də şirkətdən nə alırsa, o haqda açıqlama verməlidir. Vətəndaş cəmiyyətinin də rolu fərq varsa, o fərqi ortaya çıxarmaqdır. İndiki halda biz yalnız o fərqə nəzarət edə bilirik. Ancaq bizim o informasiyaları bölüşmək imkanlarımız demək olar, məhduddur. Bir neçə qəzet bu məsələ ilə maraqlanır. Nə televiziyaya çıxmaq, nə Bakıda, regionlarda tədbirlər keçirərək bu məsələləri müzakirəyə çıxarmaq imkanlarımız yoxdur. Yəni biz öz mandatımız çərçivəsində mümkün olan bütün işləri görməyə çalışmışıq. Siz deyirsiniz, müxalifətdəki opponentlərimiz bizi tənqid edir, ancaq hökumət də bizdən razı deyil. Hökumətin fikrincə, biz şəffaflıq məsələsinə görə Azərbaycanı beynəlxalq səviyyədə çox tənqid edirik. Yeri gəlmişkən, Meksikada keçirilən toplantıda Azərbaycanın xüsusi missiya göndərilməsi qərara alınıb. Həmin komissiya şəffaflıq məsələlərində vətəndaş cəmiyyətinin imkanlarını qiymətləndirəcək. Bu prosesdə şirkət, hökumət, vətəndaş cəmiyyəti bərabər şərtlərlə iştirak etməlidir. Ancaq bu prinsip qorunmur. Biz bəyanat vermişik ki, əgər bu şərtlər bərabər olmasa, biz prosesdə iştirakımızı dayandıra bilərik.



**"Ərdoğan Qazaxıstan prezidentindən Gülən məktəblərini bağlamasını xahiş etsə də Nursultan Nazarbayev buna razılıq verməyib"**

***- Siz tez-tez xarici səfərlərə gedirsiniz. Ayın təxminən neçə günü ölkədə olursunuz?***

- Bu say dəyişə bilər. Beynəlxalq səviyyədə müzakirələrə çox tez-tez dəvət alıram. Xaricdə verdiyim təlimlər, məsləhətlər həm də mənim gəlirlərimin formalaşmağına yardım edir. Məsələn, bu ilin 2 ayını Qırğızıstanda büdcə məsələləri ilə bağlı çalışmalarımız olub. Onlar mənim təkliflərimi dəyərləndiriblər. Bu yaxınlarda yenidən Qırğızıstana dəvət almışam. Bu həm də mənim üçün beynəlxalq səviyyədə işləmək təcrübəsidir.

***- Bilirsinizmi niyə soruşuruq? Siz Müsavat Partiyası başqanlığına iddialılardansınız. Sizə qarşı səsləndirilən arqumentlərdən biri də ölkədə az olmağınızdır. Müsavat Partiyasının sədri seçilsəniz, bu işi necə nizamlamağı düşünürsünüz?***

- O sualın çox sadə bir cavabı var. Mən beynəlxalq tədbirlərə vətəndaş cəmiyyətinin təmsilçisi kimi dəvət alıram. Sabah mən partiya təmsilçisi olaraq bu səfərlərə dəvət ala bilməyəcəm. Çünki bu dəvətlərin müəyyən şərtləri, qaydaları var. Mən vətəndaş cəmiyyətinin tədbirlərinə siyasi partiya təmsilçisi kimi qatıla bilmərəm. Yəni partiya başqanı seçilsəm, vətəndaş cəmiyyətindəki çalışmalarımdan imtina eləməliyəm.

***- Bu həm də sizin ciddi bir qazancdan imtina etməniz anlamına gəlir, elə deyilmi?***

- Bəli.

***- Yəni Müsavat Partiyasının başqanlığı bu qədərmi cazibdir sizin üçün? Üstəlik, Müsavat Partiyasının başqanı olmaq hakimiyyətin bir nömrəli hədəfi olmaq deməkdir...***

- Bunları müzakirə etmişik. Çətinliklər göz qabağındadır. Azərbaycanda müxalifətdə olan siyasi partiyanı idarə etmək, onu gücləndirmək üçün lazım olan resurslardan biri, təbii, maliyyədir. Bu istiqamətdə gözlənilən çətinlikləri də bilirəm. Ancaq mən istənilən halda cəmiyyətə, dövlətə xeyir verə biləcəyim sferada fəaliyyət göstərməyə üstünlük verirəm. İki ildir biz vətəndaş cəmiyyətində çox ciddi çətinliklərlə qarşılaşırıq. İki il öncədən yaratdığım qurumun idarə heyətinin sədrliyindən də getmişəm. Son illər daha çox ekspert kimi çalışmışam. Artıq vətəndaş cəmiyyətində bizim ictimai fəal kimi töhfə vermək imkanlarımız son dərəcə məhduddur. Ona görə ki, ölkədə bizim istədiyimiz demokratik institutlar yoxdur. Bu gün Azərbaycanda güclü müxalifət, güclü media olsaydı, vətəndaş cəmiyyəti bu qədər basqı görməzdi. Mən özümü hələ reallaşdırmamışam. Partiyadakı əqidə yoldaşlarıma bir güvəncim var. İnanıram ki, onlarla bir yerdə Azərbaycanda demokratiyanın inkişafı üçün çox işlər görəcəyik. Əminəm ki, dəyişikliklərə nail ola bilərik. Sırf siyasi fəaliyyət mənim üçün o qədər də asan məsələ deyil. Çünki mən partiya funksioneri olaraq fəaliyyət göstərməmişəm. Mənim Müsavatdakı işim daha çox partiyanın intellektual qanadının gücləndirməsi ilə bağlı olub. Müxtəlif proqramlar, konsepsiyalar işləmişik. Bu prosesi yenidən canlandıra bilərik. Partiya fəaliyyəti ilə yanaşı Azərbaycanda sahibkarlıq mühitinin inkişafı, korrupsiya ilə mübarizə ilə bağlı hökumətə tövsiyələr göndərmişik. Ancaq son illər bu məsələləri yalnız siyasi prizmadan dəyərləndirirlər. 2003-2009-cu illərdə güzgü statistikası metodologiyası ilə biz Azərbaycanın xarici ticarətdəki qeydiyyatdankənar idxal dövriyyəsini aşkar edəndə reaksiya tamamilə fərqli olmuşdu. Media, ardınca hökumət məsələni müzakirəyə çıxarmışdı. Eyni işi 2010-2012-ci illərdə edəndə münasibətin tam fərqli olduğunu gördüm. Bir neçə jurnalist həmin müsahibəni dərc etdiyi üçün işindən qovuldu, hökumətdən heç bir reaksiya gəlmədi. 2013-cü il üzrə hesabatımız da hazırdır. Bu yaxınlarda həmin nəticələri də açıqlamağı düşünürük.

***- Hansı faktları üzə çıxarmısız?***

- Təkcə 1 il üzrə 15 ölkənin xarici ticarət dövriyyəsində 4,9 milyard dollarlıq kənarlaşma meydana çıxıb. Yəni biz elə bir mühitdəyik ki, nə ekspert kimi, nə də vətəndaş cəmiyyətinin təmsilçisi kimi proseslərə təsir etmək imkanları qalmayıb. Bu imkanların hamısını bizim əlimizdən alıblar.

***- Hakimiyyətin nəzarətindən kənar bütün vətəndaş cəmiyyəti institutlarının bank hesablarına həbs qoyulması xəbərləri doğrudurmu?***

(ardı gələn sayımızda)

❑ **Aygün MURADXANLI,**
**Azər AYXAN**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 183 (5892) 19 iyul 2014

# Ohanyanın mina hədəsinə kəşfiyyatçılarımızdan tutarlı cavablar gəldi



**Qarabağ əsilli azərbaycanlıların rahat şəkildə Kəlbəcərə keçməsi, orda hətta ocaq qalayıb kabab çəkməsi, bu kadrları videoya çəkmələri Azərbaycanın işğal altındakı ərazilərində yaşayan erməniləri, həmçinin Ermənistan hökumətini ciddi şəkildə narahat edib. Müxtəlif ianələr hesabına və şirnikləndirici vədlərlə Qarabağ torpaqlarında ermənilərin sayını artırmağa çalışan, bunun üçün hətta Suriya ermənilərini torpaqlarımıza köçürən İrəvan 3 azərbaycanlının öz dədə-baba yurdlarına getməsindən sonra müşkül durumla üzləşib.**

Gələn məlumatlara görə, son günlər bəzi ermənilər Qarabağda yaşamağın perspektivini görmədiklərini qətiləşdirib buradan köçməyə qərarlı görünürlər və hətta artıq şələ-şüləsini yığışdırıb gedənlər də var. Odur ki, Ermənistanın baş naziri Ovik Abramyan təcili kabineti toplayaraq görüş keçirib. O. Abramyan müdafiə naziri Seyran Ohanyandan məsələ ilə bağlı açıqlama verməsini tələb edib. Ohanyan bildirib ki, hazırda Kəlbəcərdə yaşayan ermənilərlə iş aparılır. Əraziyə əlavə nəzarət-buraxılış postları qoyulub və həmin istiqamətlərə əlavə hərbi bölmələr göndərilib. Ön cəbhədə minalanma işləri aparılır. "Kəlbəcərə gedən bütün mümkün yollar minalanacaq. Dağlıq Qarabağ ordusu hazırda Kəlbəcərə aparan bütün mümkün yolların müəyyənləşdirilməsi və həmin yolların minalanması üçün tədbirlər görür. Təmas xəttində xidmət rejimi gücləndirilib" - deyə Ohanyan hökumət üzvləri qarşısında məruzə edərkən bildirib.

Xatırladaq ki, iyulun 11-də 3 azərbaycanlı, Cəbrayıl sakini Həsən Həsənov, Kəlbəcər sakinləri Dilqəm Əsgərov və Şahbaz Quliyev öz doğma torpaqlarında ermənilər tərəfindən əsir götürülüb. Həsən Həsənov ermənilərlə qarşıdurma zamanı qətlə yetirilib. Şahbaz Quliyev və Dilqəm Əsgərov barəsində isə tanınmamış Qarabağ respublikasının baş prokurorluğu cinayət işi qaldırıb. Ermənilər tərəfindən diversant kimi qələmə verilən Şahbaz Quliyev sərhədi qanunsuz keçməkdə, Dilqəm Əsgərov isə bir erməni hərbçisinin və iyulun 15-də dağlarda meyiti tapılan kənd sakininin ölümündə ittiham olunur. Bununla yanaşı, Ermənistan tərəfi atışma zamanı erməni mayoru Sarkis Abraamyanın öldürüldüyünü və Karine Davtyan adlı qadının yaralandığını iddia edir.

Bəs işğalçı ölkə, yaxud Qarabağdakı terrorçu-cinayətkar rejim təmas xəttinə minalar düzməklə Azərbaycanın və ya azərbaycanlıların yolunu birdəfəlik kəsə bilərmi?

**Qarabağ müharibəsində Füzulidəki N saylı briqadanın kəşfiyyat bölüyünün komandiri olmuş İlham Ağalarov deyir ki, onsuz da təmas xətti minalı idi. Hardan tank keçə bilərsə, ora tank əleyhinə, yaxud hardan piyada keçə bilərsə, ora piyada əleyhinə minaların qoyulduğu məlumdur:** "Amma elə yerlər var ki, ermənilər oranı heç cür minalaya bilməz. Deyək ki, relyefinə görə çətin yerlər var. Yaxud vəhşi heyvanlar həmişə insandan qabaq gedib minanı partladırlar. Bu mənada həmin yerlərin minalanması elə də sərfəli deyil. Həmçinin piyadaların gəldiyi vaxt partladılmalı olan minalar üçün də radioidarəedici sistem yaradılmalı, üstəlik, o sistem qorunmalı, bunun üçün daimi nəzarətçi qoyulmalıdır. Bu da əlavə, böyük resurslar tələb edir. Ona görə də hər yerin minalanması faktiki olaraq mümkün deyil. Ermənilərin iddiaları yalandır. Onlar nə qədər minalasa da, yenə "yaşıl cığırlar" var. İstənilən briqada və ya tabor səviyyəsində kəşfiyyatların hərəsinin özləri üçün gedib-gəlmək üçün cığırları, yolları var, daha doğrusu, olmalıdır".

**Kəşfiyyatçı deyir ki, o, vaxtilə çoxsaylı əməliyyatlarda iştirak edib:** "Hətta atəşkəs dövründə də biz öz məxfi yollarımızla gedib-gəlirdik, düşmən arxasından məlumatlar gətirirdik. Atəşkəsdən sonra müxtəlif qərarlar oldu, bir dəfə dedilər Qarabağa getmək olar, sonra dedilər olmaz. Daha sonra yenə fərqli qərar verildi, dedilər ki, Qarabağ bizim torpağımızdır, getmək olar. Beləcə, biz həmin o köhnə yerlərdən istifadə edib getdik də, gəldik də. Ohanyanın dedikləri gözdən pərdə asmaq, camaatı sakitləşdirmək üçündür. Yolları nə qədər minalasalar da, effekt verməyəcək, o cığırlar yenə qalacaq. Düşmən nə qədər minalasa da, yenə kəşfiyyatçılar üçün cığırlar var, olub və olacaq".

**İlham Ağalarov Kəlbəcərdə girov götürülən azərbaycanlılarla bağlı da danışdı:** "Mən Rusiyada çalışanda onların çəkdiyi bir videokasetə baxmışdım. Sonra mən o kadrların bir hissəsini ANS-də də gördüm. Onların bu gediş-gəlişini təbii qarşılayıram. Kəlbəcər elə yerdir ki, hər ağacın dibində bir erməni oturub gözləyə bilməz ki. Daim gedib-gələnlər var. Naxçıvandan da keçib qəbirləri ziyarətə getmişdilər. Düzdür, o, artıq dövlət sərhədidir, bir az başqa məsələdir. Amma Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Kəlbəcərə gedənlərin kəşfiyyat məqsədi olmayıb. Kəşfiyyatın qarşısında birinci əsas tələb olur - ona məqsədyönlü kəşfiyyat deyirlər. Yəni gedib-gəlməkdə məqsəd ümumi ordunun və dövlətin məqsədinə uyğun olmalıdır. Yəni biz əgər hücum etmək istəyiriksə, gedib düşmənin qüvvələrini, hücum üçün yerləri, yaxud üstümüzə hücum edəcək qüvvələrin tərkibini, durumunu öyrənirik. Amma mülki şəxslər, sadəcə, ata-babalarının məzarını ziyarətə gediblər. Düzü, mən fəxr edirəm, halal olsun onlara. Gedirlər də, gəlirlər də".

**Kəşfiyyatçı hesab edir ki, azərbaycanlıların girov düşməsində onlarla bağlı əvvəllər yayılan məlumatlar da rol oynamamış deyil:** "Kiminsə onları satması da istisna deyil. Amma neçə vaxt idi bu videokadrlar yayılırdı. O videolara biz baxdığımız kimi ermənilər də baxırdı. Deyək ki, ermənilərin başında dayananlar tələb edirlər aşağıdakılardan ki, siz burda necə dayanıbsınız, azərbaycanlılar arxanıza keçib istədiklərini edirlər. Üstəlik, indiki şəraitdə ora Suriyadan, digər ölkələrdən çoxlu erməni köçürüblər, Amerikanın da müəyyən dəstəyi var, infrastrukturu bərpa edirlər, belə vaxtda onlar təhlükəsizliyi tam təmin etmək üçün çalışırlar. Ona görə "polis", "təhlükəsizlik orqanları", "ordu" hərəkətə keçib və təxmin edirlər ki, bu adamlar hardan bura gələ bilər. Ola bilər pusqu qurublar, kimsə məlumatlı olub".

**İ.Ağalarov bir məqamı da vurğuladı:** "Kəşfiyyatın da qanunu var, əgər getmisənsə, səni lap bir günahsız çoban görübsə belə, sən mütləq onu öldürməlisən". **Kəşfiyyatçı şübhə etmir ki, düşmən bundan sonra çalışacaq ki, biz tərəfdən gediş-gəlişi məhdudlaşdırsın:** "Amma bundan əvvəl də gedib-gəlirdilər. Hər bir tabor və ya briqada kəşfiyyatının düşmən tərəfdə müəyyən dərinliyi və eni olan, xəritədə göstərilən "ərazisi", sahəsi var. Mən qonşu briqadanın kəşfiyyat ərazisində əməliyyat işi aparacağamsa, heç olmasa həmin briqadanın kəşfiyyat rəisini məlumatlandırmalıyam, o, bu barədə bilməlidir. Çünki bəlkə elə onun da həmin ərazidə əməliyyatçıları var və əməliyyat şəraitində qarşılaşa bilərik, bir-birimizi qırarıq. Qarabağ bizim ərazimizdir. Odur ki, bizim qruplarımız orda işləməlidir". **İ.Ağalarov deyir ki, düşmən tərəfdən müəyyən adamları tutub girovlarla dəyişmək olar:** «Hətta Ohanyanın harda qohumu varsa, onu müəyyənləşdirib tutub gətirmək olar. Qabaqlar bizdə elə siyahılar var idi, operativ məlumatları yığıb sistemləşdirirdilər".

**Maraqlıdır, təcrübəli kəşfiyyatçılar bu mərhələdə dövlətə öz xidmətini təklif edə bilərmi? İ.Ağalarov:** "Mən bir dəfə dövlətə təkliflərimi vermişəm. Hardansa biz də erməniləri tutub gətirə bilərik. Bu yollarla istənilən vaxt getmək olar. Diletant gedirsə, peşəkar niyə getməsin? Kəlbəcər olmasın, başqa yerlər olsun. Amma Kəlbəcər gediş-gəliş üçün daha əlverişlidir. Çünki ora elə bir sahədir, dəqiq qorunmur. Mən özüm son dəfə kəşfiyyatda 1996-cı ildə olmuşam. Mənim özümün yerim var idi. O vaxt erməni zabitini tutub gətirmişdim, Qobustan təcridxanasında saxlayırdılar, sonra dəyişdilər. Onda bizim əsir və girovlarımız çox idi".

**İ.Ağalarovun sözlərinə görə, hazırda Azərbaycan kəşfiyyatı əvvəlki dövrlə müqayisədə çox irəli gedib:** "Bizdən də təcrübəli kəşfiyyatçılar var. O vaxt bütün Qarabağ cəbhəsi üzrə zəruri rabitə avadanlığı təkcə məndə idi. İndi bizim müasir avadanlıqlarımız, xüsusi təyinatlılarımız var. Kəşfiyyatın sülhə, müharibəyə dəxli yoxdur, o, hər zaman öz işini görməlidir. Ancaq girov düşən kəlbəcərlilər həmişə gedib-gələn adamlardır, onlar kəşfiyyatçı deyildilər. Onlar gedirsə, deməli, bizim peşəkarlar daha asan gedib-gələ bilər". **Kəşfiyyatçı deyir ki, diversiya tədbirlərinə Azərbaycan daim hazır vəziyyətdə olmalıdır:** "Sabah qəfil müharibə əmri verilə bilər və o gün üçün bizim diversiya-kəşfiyyat qüvvələrimizi hərəkətə keçməlidir. Necə ki, 1941-ci ilin 22 iyununda Hitler müharibəyə başlayan kimi onun xeyli diversiya qrupları Rusiyada hərəkətə keçdi. Yəni həmin gün nəqliyyatın işini iflic edir, rabitəni kəsirsən, idarə orqanlarını sıradan çıxarırsan. Bu mənada bizim gizli planımız həmişə olmalıdır".

**Qarabağ qazisi, keçmiş kəşfiyyatçı Rey Kərimoğlu da hesab edir ki, Ohanyanın açıqlaması xofda, qorxu içində olan erməni əhalini sakitləşdirməyə hesablanıb:** "Erməni təbliğatı dəfələrlə yazıb ki, bunlar panika içindədir. Digər tərəfdən də o əraziləri minalamağa böyük vəsait lazımdır. Ermənistanın isə ona gücü və qüdrəti çatmaz. Minalasalar belə, ordan keçməyin də öz metodu, qaydası var. Düzdür, bu, risklidir, amma lazım gələndə ikiqat minalanmış sahəni də keçmək mümkün olur. Bu, o demək deyil ki, daha ordan keçmək mümkün olmayacaq".

Qeyd edək ki, R.Kərimoğlu 1992-ci ilin 9 avqustunda Əsgəran-Xankəndi istiqamətində - erməni kəndi olan Noraguhdan keçib Xocalıya getmək istəyəndə piyada əleyhinə minaya düşüb və ağır xəsarət alıb. Ancaq keçmiş döyüşçü deyir ki, ona qədər ermənilərin ikiqat mina xəttindən keçib gedə bilibmişlər: "Bilirsinizmi Qarabağa uzanan nə qədər dağ, dərə, cığır, yol var? O qədər olub ki, müharibədə əməliyyatlar zamanı düşmənin ikiqat minaladığı ərazilərdən keçib getmişik. Bu mənada Ohanyanın Azərbaycanı mina ilə qorxutmaq cəhdi absurddur".

**"Girov götürülən əli silahsız, hərbi təcrübəsi olmayan 3 Azərbaycan vətəndaşı prezidentdən tutmuş, müdafiə nazirinə qədər bütün erməni cəmiyyətinin canına böyük vəlvələ salıb, yuxularına haram qatıb". Bunu isə modern.az-a açıqlamasında hərbi ekspert Üzeyir Cəfərov deyib. Onun fikrincə, ötən 20 il ərzində 30 nəfər əli silahlımız torpaqlarımıza getsəydi, yəqin ki, ermənilər hər şeyi qoyub qaçardılar:** "Biz hüquqi müstəvidə həmin məsələni ermənilərin qarşısına qoyub deməliyik ki, siz ermənilər, BMT-nin məlum qətnaməsinə görə məsuliyyətə cəlb olunmalısınız. Seyran Ohanyan haranı istəyir minalatdırsın. Bir şeyi xatırladım, əsgərlərimiz həmin ərazilərə qayıdan zaman mütləq Azərbaycan istehkamçıları tərəfindən ərazilər təmizlənəcək. Amma Ohanyan unutmasın ki, minalatdıracağı ərazilərdə daha çox öz əsgərləri və vətəndaşları var, onlar bundan daha çox əziyyət çəkəcəklər. Təklif edirəm ki, o, özününkülərin qeydinə qalsın, bizim çəkinəcəyimiz heç nə yoxdur. Mən şəxsən Ohanyanın bu açıqlamasını ermənilərin panik vəziyyətdə olması ilə bağlayıram".



**"İlham Ağalarov:** "Düşmən nə qədər minalasa da, yenə kəşfiyyatçılar üçün cığırlar var, olub və olacaq..."



**Rey Kərimoğlu:** "Düzdür, bu, risklidir, amma lazım gələndə ikiqat minalanmış sahəni də keçmək mümkün olur..."

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 183 (5892) 19 iyul 2014




# Hikmət Hacızadənin Səməd Vurğun haqqında dedikləri etiraz doğurdu

## Seyran Səxavət: "Bu qədərmi özümüzdə deyilik?"

**Son zamanlar görkəmli xalq şairi Səməd Vurğun barəsində səsləndirilən ittihamlar səngimək olur. Hər deyilən fikir cəmiyyət tərəfindən birmənalı qarşılanmır. Artıq Səməd Vurğuna münasibətdə Azərbaycan ictimaiyyəti iki qütbə bölünüb. Şairə nifrət və rəğbət edənlər qütbü. Buradan bir nəticəyə gəlmək olar ki, Səməd Vurğun Azərbaycan ədəbiyyatının ən təzadlı şairidir.**

Zaman-zaman onun barəsində çox sözlər deyilib. Bu sözlər mətbuat və sosial şəbəkələrin ciddi müzakirə mövzusuna çevrilib. Xüsusilə ADP sədri Sərdar Cəlaloğlunun qalmaqal yaradan fikirlərini qeyd etmək olar. Maraqlı tərəf odur ki, xalq şairi haqqında tənqidi ruhda daha çox cəmiyyət tərəfindən tanınan insanlar çıxış edir. Belə insanlardan biri politoloq Hikmət Hacızadədir. Onun iyulun 17-də 1937.az saytına verdiyi müsahibədə Səməd Vurğun barədəki fikirləri ciddi qalmaqala səbəb olub. Jurnalistin Səməd Vurğun haqqında sualına verdiyi "səviyyəsiz bir şairdir" cavabı ictimaiyyət tərəfindən narazılıq doğurub. Artıq bununla bağlı politoloqun ünvanına sərt ittihamlar səsləndirilir.

**Səməd Vurğun irsinin araşdırıcısı İsmayıl Umud Hikmət Hacızadənin fikirlərini səviyyəsizlikdən doğan fikir adlandırdı:** "Səməd Vurğuna sağlığında həsəd aparanlar onun populyarlığını açıq şəkildə deyirdilər. O, 70 ilə yaxındır, rəhmətə gedib. Son zamanlarda bu cür uğursuz fikir söyləyənlər ara-sıra meydana çıxır. Bu barədə ədəbiyyatdan başı çıxan, ədəbiyyatın nə olduğunu anlayan insanlar tərəfindən fikir bildirilməlidir. Hikmət Hacızadə hörmət etdiyim adamlardandır. Mən bilən o, siyasət adamıdır. Ona ədəbiyyat haqqında fikir söyləməsi yersiz görünür. Yaxşı olar ki, hərə öz işi ilə məşğul olsun. Ədəbiyyatdan başı çıxmayan insanların bu sahədə danışması çox qəribə görünür. Diqqəti öz üzərinə çəkmək üçün söylənən fikirlərdir. Səməd Vurğun öz zəmanəsinin övladı idi. Onun yaradıcılığına zamana görə baxmaq lazımdır. O, öz dövründə qəbul olunan böyük şəxsiyyətlərdəndir. Onun bir neçə şeiri kifayət edir ki, ədəbiyyatda qalsın. Bilmirəm, Hikmət bəy hansı mənada deyib. Mənim də sevmədiyim şairlər var. Amma mən onun heç birinə səviyyəsiz deyə bilmərəm. Kiməsə səviyyəsiz demək, səviyyəsizlikdən doğan fikirlərdir. Ən azından hər birimiz hörmətlə danışmalıyıq. Səməd Vurğunun bir neçə şeiri kifayət edir ki, ədəbiyyatda qalsın. Artıq o, ədəbiyyatda qalıb, qalacaq. Səməd Vurğun milli şairdir".

**Yazıçı Seyran Səxavət belə fikirləri Hikmət Hacızadəyə yaraşdırmadığını söylədi:** "Mən də o müsahibəni oxudum. Açığı mən belə fikirlər ondan gözləməzdim. Yaxın münasibətlərimiz var. Bir ziyalı adam kimi fikir bildirirəm. Söz salamələykümdən yuxarı bir şeydir. Bundan əvvəl də bir başqa siyasətçi buna bənzər fikirlər səsləndirmişdi. Son zamanlarda mətbuatdan elə şeylər oxuyuruq ki, təəccüblənməyə belə yer qalmır. Bilmirəm, nə olub, bunlar nə etmək istəyir? Bu qədərmi özümüzdə deyilik? Bu qədərmi özümüzə nifrət edirik? Səməd Vurğun Azərbaycanın ən istedadlı şairlərindən biridir. Söhbət kimin güclü olmasından getmir. Siyasət adamı siyasətlə məşğul olsa, daha yaxşıdır. Bəlkə də siyasətlə məşğul ola bilmir, belə işlərlə məşğul olmaq istəyir. Oxucular tərəfindən də ölkəmizdə baş verənlər başa düşülmür. Siyasətçi sənət adamına, dövlət xadiminə qiymət verməyi bacarmalıdır. Zaman və məkanı nəzərə almaq lazımdır. Bu o demək deyil ki, zaman və məkan böyük bəlalar gətirən adamlara bəraət deməkdir. Hər şeyin bir dərəcəsi var. Deyirlər ki, bizdə söz azadlığı yoxdur. Mən bu fikirlərlə razı deyiləm. Kimin ağzına nə gəlirsə, danışır. Birinci adamdan tutmuş, axırıncı sıravi insana qədər. Ola bilsin ki, Hikmət Hacızadə bu cür fikirlərlə istəyib ki, "Yeni Müsavat" şair, yazıçılara müraciət etsin. O da gündəmə gəlsin. Belə fikirləri nə millətə, nə də Hikmətə yaraşdırmıram. Sənin problemin Səməd Vurğundur? O yaşda adam gərək özünü idarə etməyi bacarsın".

❑ Cavanşir ABBASLI

---

# Hər çıxışına görə 28 min dollar qazanan Klinton və bizimkilər...

**Bu yaxınlarda dünya mediası Klintonlar barədə maraqlı xəbər yaydı. Xəbərə görə, Bill Klinton 2001-ci ildə ABŞ prezidenti postunu tərk edəndən bəri nitqlərindən 100 milyon dollar qazanıb. Hər nitq ortalama 200 min dollara düşür.**



**Niyazi Mehdi: "Azərbaycanda bir saatlıq çıxışın yaxşı qiyməti 100-150 manatdır və mən də buna razı olardım"**



**Ərəstun Oruclu: "Amerikada bir çıxışıma görə 600 dollar ödədilər"**



**İkram İsrafil: "Biz hələlik səsimizi və nitqimizi təmənnasız olaraq dövlətimizin inkişafı üçün sərf edirik"**

AzadlıqRadiosu xəbər verib ki, Bill Klintonun həyat yoldaşı Hillary Klinton da dövlət katibi vəzifəsindən gedəndən sonra fəal şəkildə natiqlik peşəsi ilə məşğuldur. Xanım Klintonun sözçüləri onun bir nitqinin qiymətini açıqlamaqdan imtina ediblər, amma mətbuat yazır ki, bu rəqəm rahat şəkildə altırəqəmli ola bilər. Amma Hillary natiqlik sənətində ən azı kəmiyyət baxımından hələ ki ərinə çata bilməz. Bill Klinton son 12 il ərzində 544 ödənişli nitq söyləyib. Çıxış etdiyi tədbirlər fərqli olub. Kiçik tədbirdəki çıxışına aşağısı 28 min dollar qonorar alıb, ən böyük tədbirdəki nitqindən isə 750 min dollar qazanıb. Bill Klinton ölkəsindən kənarda yetərincə populyardır.

Elə bu diqqətçəkən məlumat da bizə Azərbaycanda natiqlik işinə görə qazanılan paralarla bağlı sorğu keçirməyi mütləq etdi. Palitranı bir qədər zəngin seçdik. Ölkəmizdə bir çox sahələr üzrə tanınmış şəxslərdən, ekspertlərdən soruşduq: nitqinizi. səsinizi neçəyə satarsınız? Nə zamansa bu cür təklif almısızmı?

**Tanınmış filosof Niyazi Mehdi qoyduğumuz suala, qurduğumuz modelə dəyişiklik etmək lazım gəldiyini deyib, fikrini belə izah etdi:** "Çünki sual «neçəyə satardınız?» biçimində abstrakt qoyulanda deyərdim bir çıxışıma görə 2-3 min istəsəydim, vicdan əzabı çəkməzdim. Ancaq konkret konteksti götürsək, bir saatlıq çıxışın Azərbaycanda yaxşı qiyməti 100-150 manatdır və mən də buna razı olardım. O ki qaldı Klinton kimi adamlara, 200 000 min dollar təkcə onların çıxışı üçün deyil. Heç inanmıram ki, bu çıxışlarında onlar güclü yeni düşüncələr desinlər. 200 000 dollar o çıxışın arxasında duran siyasi bioqrafiyaya verilir. Eyni zamanda bu bioqrafiyanın ötüb keçdiyi ABŞ siyasi yaşamına, rejiminə verilir. Ona görə də həmin bioqrafiyadan daha güclü olan bir hind və ya rus prezidentinə o qədər pul verməzlər. Başqa bir çalar: Putinin Ukraynada törətdiyi olay nə qədər nifrət törətsə də Rusiyanın dünyada yerinə görə bu olay onun çıxışlarını xeyli bahalandıracaq. İndi bu baxımdan baxın Azərbaycana - qiymətimizin artması üçün Azərbaycanın da qiyməti artmalıdır".

**Konkret özünə gəlincə, N.Mehdinin cavabı ironik oldu:** "Uzaq keçmişdə 20 səhifəlik məqaləyə görə 2000 dollar almışam, indiyənəcən xərcləyib qurtara bilmirəm".

**Seçki və media mövzusunda ekspert olan MSK-nın keçmiş mətbuat xidmətinin rəhbəri Azər Sarıyev özünü nitqləri baha paraya satıla biləcək insanlardan saymır:** "Başqası bu sualı mənə versəydi, düşünərdim ki, yəqin məni dolayır. Amma bir məsələdə var ki, bizim cəmiyyətdə kifayət qədər özündənrazı və sanbalsız adamlar var ki, həsab edirlər ki, onların nitqi və yazısı Klintonunkundan da dəyərli və bahadır. Sizin sorğunun nəticələri mən dediyimi təsdiq edəcək. Bu sahədə çalışmışam. 10 il yarım MSK-da. 17 il media sahəsində çalışsam da, özümü özünü ekspert sayan "dahilər" kimi xüsusi çəkili adam saymıram".

**Şairə-jurnalist Günel Mövlud da bu günə qədər bir çox tədbirlərdə mühazirələrlə çıxış edib. Amma müsahibimiz təəssüf edir ki, Azərbaycanda nitqlərə, mühazirələrə qonarar ödəmək mədəniyyəti hələ formalaşmayıb:** "Təsəvvür edin, ömrü boyu oxu, öyrən, əsəb, vaxt xərclə. Sonra səni mühazirəçi kimi dəvət edəndə də elə bilsinlər ki, sənin borcundur gəlib orda iki saat danışasan. Müğənni çağıranda yarım saatlıq fonoqrama rahat 500-1000, nə bilim, bəzən 5000 manat verən adamlar qələm adamının, fikir adamının nitqinə hörmət qoymurlar".

**G.Mövlud dedi ki, bir neçə dəfə müəyyən tədbirlərə mühazirəçi qismində dəvət olunub. Həmişə də şərt qoyub ki, simvolik də olsa, qonorar olmalıdır:** "Ola bilər ki, o pul mənim heç bir problemimi həll etməsin. Amma istəyirəm ki, qələm adamının vaxtına, biliklərinə hörmət eləməyi aşılayım. Həmişə də razılaşıblar və müəyyən məbləğdə qonorar almışam. Amma təbii ki, vacib şərt pul deyil. Publikanın necəliyi, tədbirin mahiyyəti, təşkilatçıların kimliyi də vacibdir. Sadəcə, qonorar verilir deyə harda gəldi çıxış etmək olmaz".

**Müsahibimiz dedi ki, Azərbaycanda mühazirələrdən böyük məbləğdə pul qazanılmasından danışmaq gülməli olar:** "Hələ ki bu mədəniyyəti formalaşdırmaqla məşğuluq".

**"Şərq-Qərb"Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu bildirdi ki, bu sahədə standart qiymət yoxdur:** "Bu, daha çox mövzuya, ekspertin mövzu ilə bağlı nə dərəcədə səlahiyyətli, ranqlı olması, auditoriyası ilə bağlıdır. Konkret belə təkliflər almışam, çıxışlarım olub. Məsələn, bir neçə il öncə ABŞ-da bir universitetdə çıxış etmişəm. İran-ABŞ hərbi qarşıdurmasının Cənubi Qafqaza təsiri mövzusunda olan çıxışım 600 dollar civarında qiymətləndirildi. Müqavilə ilə olub, vergisi tutulub".

**Müsahibimiz başqa ölkələrdə də bu sayaq çıxışlarının olduğunu xatırlatdı. Ə.Oruclu Azərbaycanda belə bir ənənənin olmamasından təəssüfünü bildirdi:** "Azərbaycanda da bunu QHT-lər edirlər. Amma onların da pulu yoxdur. Ona görə də bu cür çıxışlar əsasən təmənnasız edilir".

**Millət vəkili İkram İsrafil isə hesab edir ki, Bill Klintonun səsini və nitqini bu gün satmaq imkanı əldə etməsinin səbəbi ondan öncəki liderlərin və bütövlükdə Amerika xalqının uzun illər uğrunda mübarizə apararaq qurduqları və bu günə daşıdıqları Amerika dövlətidir:** "Düşünürəm ki, belə bir dövlət quran öncəki liderlərin bəlkə də hər nitqi və səsi pulla ölçülməyəcək qədər dəyərli olub, nəinki Klintonun. Odur ki, biz hələlik səsimizi və nitqimizi təmənnasız olaraq dövlətimizin inkişafı üçün sərf edirik. Doğrudur, konkret olaraq, təklif almamışam və belə bir təklif olsa belə yenə təmənnasız olar".

**Media Hüququ İnstitutunun koordinatoru Xalid Ağalıyev dedi ki, istək və bacarıq ölçüləri içində daha çox qazanmaq istəyi təbiidir:** "Burda özümüzdən və mühitdən asılı olan səbəbləri nəzərə almalıyıq. O qədər geniş olmasa da həm media eksperti, həm də yazar olaraq təcrübəm var. 2010-cu ildə təqdim olunan ssenari əsasında povest və ya hekayə yazıb, indiki 8-9 aylıq qazancımdan daha çox qonorar almışam. Media hüquqçusu olaraq özəl ali məktəblərə mühazirə üçün dəvət olunmuşam, sosial, maddi-texniki mühit, təbii ki qonorar heç cəlbedici olmadığından yarım il dözmüşəm. Əsasən seminar-treninqlərdə təcrübəm var. Bu sahədə isə ekspertlər üçün ortalama qonorar həddi bellidir - bu yarım və ya bir gün üçün təxminən 150-300 AZN təşkil edir. Media ekspertinin bu çərçivədən kənara çıxa bilməsi indiki durumda çox çətindir".

**X.Ağalıyev xatırlatdı ki, ABŞ-ın İrana hücum edəcəyi barədə ilk yazını amerikalı jurnalist Seymur Xerş yazmışdı. Yazıdan 1 il sonra jurnalist bildirib ki, həmin məqaləsi ilə bağlı müxtəlif konfranslardakı çıxışlarına görə 10 milyon dollardan artıq qonorar alıb:** "Azərbaycan mühiti üçün belə nümunələr ağlagələn olmadığı kimi, hansısa ekspertin öz düşüncəsini, baxış, biliklərini daha baha satması da mümkün görünmür. Amma təbii ki, biz özümüzü gəlişdirməli olduğumuzu yaddan çıxarmamaqla daha əlverişli, biliklərimizi daha layiqli qiymətə sata biləcəyimiz mühiti arzulayırıq".

❑ Sevinc TELMANQIZI

# Azərbaycan səhiyyəsində daha bir ilk

## Bakıda ilk dəfə olaraq sümük iliyi əməliyyatı keçirilib





**İyulun 18-də Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Respublika Talassemiya Mərkəzinin akt zalında mətbuat konfransı keçirildi. Azərbaycanın təbabət tarixində ilk dəfə olaraq sümük iliyi əməliyyatının uğurla həyata keçirilməsi ilə əlaqədar keçirilən tədbiri açan Respublika Talassemiya Mərkəzinin direktoru Rauf Rzayev bu əməliyyatın uğurlu bir ilk olduğunu dedi:**

"Bu ilin may ayında Azərbaycanın təbabət tarixində ilk dəfə olaraq Respublika Talassemiya Mərkəzində qohum donorlardan götürülən sümük iliyinin üç nəfər xəstəyə köçürülməsi əməliyyatı həyata keçirilib. Bu mürəkkəb əməliyyatı Talassemiya Mərkəzinin mütəxəssisləri belaruslu həmkarlarının dəstəyi ilə həyata keçirib. Əməliyyat keçirmiş xəstələrin hazırda vəziyyəti qənaətbəxşdir və evə yazılmaq ərəfəsindədirlər. Sümük iliyinin köçürülməsi nisbətən yeni bir tibbi prosedurdur və bundan əvvəllər ağır xəstələrin müalicəsində istifadə olunurdu. 1968-ci ildə ilk dəfə olaraq uğurla sümük iliyinin transplantasiyadan sonra bu proses leykoz (qan xərçəngi), aplastik anemiya və digər ağır xəstəliklərdən əziyyət çəkənlərin müalicəsi zamanı da həyata keçirilir. MDB məkanında sümük iliyinin köçürülməsi yalnız Rusiyada, Ukraynada, Belarusda, digər dünya dövlətləri arasında isə 16 ölkədə mövcuddur. Bu növ transplantasiyanı həyata keçirən ölkələrin sayca azlığı sümük iliyi nəqlinin kifayət qədər mürəkkəb, yüksək texnoloji proses tələb etməsi ilə bağlıdır. Həmçinin özəl tələblərə cavab verən tibbi avadanlıq təminatının və xüsusi hazırlıq keçmiş tibbi heyətin olması da zəruridir. Sevindirici haldır ki, artıq Azərbaycan bu çətin işi bacaran ölkələr sırasındadır. Burada sümük iliyinin transplantasiyası əməliyyatı dövlət hesabına, pulsuz həyata keçirilir".

**Daha sonra jurnalistlərin suallarını cavablandıran R.Rzayev bu əməliyyatı Belarusdan olan həkimlərlə birgə keçirmələrinin təsadüfi olmadığını bildirdi:** "Belarus keçmiş sovetlər ittifaqı məkanında sümük transplantasiyası ilə ən böyük müvəffəqiyyətlər əldə edən bir ölkədir. Bu da təsadüfi deyil. 1986-cı ildə Ukraynada baş verən Çernobıl qəzası Ukraynadan çox Belarusun ərazisini tutdu. Beləcə Belarusda leykoz baş alıb getdi. Ona görə də 7 il ərzində 1993-cü ildə almanların dəstəyi ilə Belarusda sümük iliyinin transplantasiya mərkəzi yaradıldı. Artıq 20 ildən çoxdur ki, bu əməliyyatlar orada müvəffəqiyyətlə aparılır".

**Jurnalistlərin suallarını cavablandıran Sümük İliyi Transplantasiya şöbəsinin müdiri Nərgiz Əliyeva dedi ki, 24 xəstə sümük iliyinin köçürülməsi üçün növbədədir:** "Onlardan 10 nəfəri mərkəzə müraciət edib və həmin xəstələrə sümük iliyinin köçürülməsinin lazım olub-olmaması araşdırılır. Elə xəstələr var ki, onların xəstəliyi ağır olduğundan sümük iliyinin köçürülməsi mümkün olmur".

**Mərkəzin direktoru R.Rzayevin sözlərinə görə, elə vəziyyət ola bilər ki, sümük iliyinin köçürülməsinə ehtiyacı olan şəxsin bacı və ya qardaşı sağlam olmasın. Belə olan halda dünya transplantasiya təcrübəsində Dünya Donorlar Bankının qeydiyyatında olan donor hüceyrələrindən istifadə olunduğunu deyən R.Rzayev hazırda həmin bankda 25 milyona yaxın potensial donor olduğunu bildirdi:** "Həmin donor bankında olan donorların sümük iliyindən istifadə olunur. Lakin bunun üçün sümük iliyi transplantasiyası ilə məşğul olan dövlətin Dünya Donor Bankının qeydiyyat sisteminə daxil olması lazımdır. Azərbaycan hələlik Dünya Donor Bankının qeydiyyat sisteminə daxil deyil. Bu da yaxın gələcəyin işidir. Çünki qeydiyyata daxil olmaq üçün ölkədə bu sahə üzrə 100-ə yaxın əməliyyat aparmaq lazımdır".

Sonda mərkəzin sümük iliyi transplantasiyası şöbəsinin həkimi Sahilə Sultanova əlavə etdi ki, növbəti sümük iliyinin köçürülməsi əməliyyatı bu ilin oktyabr ayının əvvəllərində dörd xəstənin üzərində aparılacaq.

**❑ Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Binəqədidə yaşıllığı məhv edənlər nəzarətə alındı

## "Arxin-M LTD" MMC tikinti şirkətinə sərt xəbərdarlıq edilib





**Binəqədi rayonu, 7-ci mikrorayon, Abay Kunanbayev küçəsindəki 10 nömrəli binanın həyətində aparılan tikinti işləri dayandırılıb. Sakinlərin "Yeni Müsavat"a verdikləri məlumata görə, ağacların kəsilərək yerində yaşayış binasının tikilməsi ilə bağlı "Yeni Müsavat" qəzetində gedən reportajdan sonra Binəqədi Rayon İcra Hakimiyyəti və bir neçə nazirliyin əməkdaşları əraziyə gələrək yoxlamalar aparıblar. 100 ailənin yaşadığı binanın önünü zəbt edərək, ağacları kəsib bina tikən "Arxin-M LTD" MMC tikinti şirkətinə sərt xəbərdarlıq edilib. Tikinti şirkəti elə həmin gün işləri dayandırmaq məcburiyyətində qalıb.**

Sakinlər bildirdilər ki, tikinti işlərinin birdəfəlik dayandırılmasını və kəsilən ağacların yerində yenilərinin əkilməsini tələb edirlər. Tikinti şirkəti rəhbərliyi ilə görüş tələb edən sakinlər bildirdilər ki, yaxın günlərdə Prezident Administrasiyasına yürüş etmək fikrindədirlər.

Məlumat üçün bildirək ki, ərazidə bina tikdirən şəxs biznesmen xanım Qasımova Aidə Akif qızıdır. Xanım biznesmen ərazidə bina tikmək üçün əvvəlcə Binəqədi Rayon İcra Hakimiyyətinə müraciət edib. Lakin icra hakimiyyəti tikinti ilə bağlı icazə verməyib. Daha sonra Bakı meriyasına müraciət edən tikinti şirkəti "hə" cavabı alıb. Bakı meriyası Qasımova Aidə Akif qızının adına olan "Arxin-M LTD" MMC-yə tapşırıb ki, tikinti işləri ilə bərabər ərazidə abadlaşdırma işləri aparılsın. Eyni zamanda tikiləcək binanın ətrafında sakinlərin istirahəti üçün bağ salınsın. Meriyanın həmin sənədində yazılıb ki, əgər tikinti işləri aparılsa, ərazidəki ağaclar köçürülməlidir. Sakinlərdə olan video və fotoçəkilişlərdə isə açıq-aşkar görünür ki, onlar ağacları kəsib, maşınlara yükləyib aparıblar.

**Qeyd edək ki, məsələ ilə bağlı "Yeni Müsavat"a danışan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova bildirib ki, Binəqədidə ağacların kəsilməsi ilə bağlı məsələ dərhal nəzarətə götürülüb:** "Həmin ərazi ilə bağlı görüntülər bizə təqdim olunub. Əməkdaşlarımız həmin ərazidə olub, yoxlamalar aparacaq. Əgər hansısa bir ağacın qanunsuz olaraq kəsilməsi faktı aşkarlansa, həmin tikinti şirkəti barədə tədbir görüləcək".

**Nazirliyin sözçüsü bildirib ki, prezident İlham Əliyev sonuncu müşavirələrdən birində ağac kəsənlərlə bağlı sərt tədbirlərin görülməsi barədə tapşırıq verib:** "Nazirlik Bakıda və rayonlarda tez-tez monitorinqlər aparır. Hansısa yerdə qanunsuz olaraq ağac kəsilirsə, həmin şəxslərə qarşı çox ciddi tədbirlər görülür. Eyni zamanda nazirliyin "168" qaynar xətti fəaliyyət göstərir. Vətəndaşlardan xahiş edirik, əgər belə bir halla rastlaşsalar, dərhal qaynar xəttə zəng vuraraq məlumat versinlər".

**Mövzu ilə bağlı "Arxin-M LTD" MMC rəhbərliyinin mövqeyini öyrənib dərc etməyə hazırıq.**

**❑ Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**



# Ərzaq bazarı idxalın girovuna çevrilib

## Ölkə daxilində istehlak edilən buğdanın 44, südün 23,8, mal ətinin 13,5 faizi idxalın payına düşür; əhalinin 38 faizinin aqrar sektorda çalışmasına baxmayaraq, ərzaq bazarının idxaldan asılı olması təəccüb və təəssüf doğurur

**Dövlət Statistika Komitəsi 2013-cü il üçün ərzaq balansı barədə rəsmi hesabatı açıqlayıb. Hesabata əsasən, bir sıra yerli kənd təsərrüfatı və sənaye qida məhsulları üzrə təminat səviyyəsi aşağıdır. Məcmuə beş bölmədən ibarətdir: bitkiçilik məhsulları; heyvandarlıq məhsulları; sənaye mənşəli ərzaq məhsullarının ehtiyatları; özünü təmin etmək, idxaldan asılılıq səviyyəsi. Hesabat 2007-2013-cü illərin statistik göstəricilərini əhatə edir.**

Hesabata görə 2013-cü ildə buğda balansı 4 milyon 364,8 min ton olub. Bu, 2012-ci ildəkindən 9,5 faiz çoxdur. Buğda istehsalı *(1 milyon 846 min ton)* idxalından 395 min ton çoxdur. Ərzaq istehsalı üçün 2 milyon ton buğdadan istifadə edilib. Bu 2012-ci ilin göstəricisindən 21 faiz çoxdur. Ölkə üzrə buğda itkisi yüksək olaraq qalır - 271 min ton. Buğda idxalından asılılıq 2013-cü ildə 0,8 faiz artaraq 44 faizə çatıb.

Mal əti ilə daxili ehtiyacların ödənilməsi 2013-cü ildə azalaraq 86,5 faizə çatıb. Mal əti istehsalı 140 min ton təşkil edib. Quş əti istehsalı artıb: 2007-ci ildə tələbatın 30 faizi idxal hesabına təmin edilib, 2013-cü ildə isə bu göstərici 3,8 faizə enib. 2013-cü ildə ölkədə 100 min ton quş əti istehsal edilib.

Rəsmi statistikaya görə, 2007-ci illə müqayisədə süd və süd məhsulları istehlakı 792 min ton artaraq 2013-cü ildə 2 milyon 548 min tona çatıb. Bunun 76,2 faizi yerli istehsal hesabına təmin edilib. Bu, 2012-ci ildəkindən 3,4 faiz çoxdur.

Göründüyü kimi, ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər yenə də açıq qalır. Hökumətin bu istiqamətdəki səylərinə baxmayaraq, qida təhlükəsizliyi daha çox xarici faktorlardan asılıdır.

«2008-2015-ci illərdə Azərbaycanda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nda xüsusi olaraq qeyd edilir ki, dövlət əhalinin ərzaqla tam təminatını ödəmək üçün 2015-ci il üçün dənli bitkilərin əkin sahələrini 900 min hektara çatdırmalı və proqramda göstərilən 2015-ci ildə 2,8 milyon ton dənli bitkilər istehsal edilməlidir. Ət istehsalı 340 min ton, süd və süd məhsulları istehsalı 2,4 milyon ton olmalıdır. Sənaye üsulu ilə illik quş əti istehsalı 80 min tona, yumurta istehsalı isə 1,3 milyard ədədə çatdırılmalıdır.

Bu proqramlar çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalında müəyyən irəliləyişlər qeydə alınmışdır. Lakin Azərbaycanda hələ də əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına kifayət qədər həcmdə təminatı hələ ki mümkün olmamışdır.

Ərzaq məhsullarının idxal statistikası da ərzaq təhlükəsizliyi ilə bağlı həll olunmamış ciddi problemlərin qaldığını göstərir. 2013-cü ildə Azərbaycan dünyanın 147 ölkəsi ilə idxal-ixrac əməliyyatları aparıb. İdxal-ixracda özünə daimi yer tutan məhsullardan biri də ərzaqdır. Ötən il Azərbaycana idxal olunan malların 18,9 faizini ərzaq məhsulları təşkil edib.

Hələ də əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına kifayət qədər həcmdə təminatı mümkün olmayıb. Daxili ərzaq bazarının idxaldan asılılığının səviyyəsi yüksək olaraq qalmaqdadır. Hökumətin bir sıra tədbirlərində əlavə səylər göstərməsinə ciddi ehtiyac yaranıb. Aqro-xidmətlərin səviyyəsinin yüksəldilməsi, dövlətin subsidiya, kredit, maliyyə və digər dəstəklərindən səmərəli istifadə, istehsal, bazar və sosial infrastruktur sahələrinin inkişafı, müasir yemçilik müəssisələrinin yaradılması, maarifləndirmə, elmi və kadr təminatının yaxşılaşdırılması üzrə görülən tədbirlər, əldə olunan nəticələr ciddi təhlil olunmalı və innovativ təşəbbüslər irəli sürülməlidir. Dövlət tərəfindən kifayət qədər maliyyələşmə və güzəştlərin tətbiqinə baxmayaraq, əldə olunan nəticələr tələbat və gözləntilərə adekvat deyil.

Qidalanmada idxaldan asılılıq ölkənin ərzaq təhlükəsizliyinə ciddi təhdidlər yaradır. Ərzaq təhlükəsizliyi ölkənin bütövlükdə iqtisadi təhlükəsizliyinin əsas komponentidir. Ən başlıcası isə əhalisinin 38 faizinin aqrar sektorda çalışmasına baxmayaraq, ölkənin ərzaq bazarının idxaldan asılı olması təəccüb və təəssüf doğurur. İnkişaf etmiş ölkələrdə məşğul əhalinin cəmi 2-3 faizi aqrar sektorda çalışır və bunun qarşılığında nəinki daxili tələbat tam ödənilir, hətta ixrac da edilir. "Analoqsuz inkişaf edən" ölkənin hökuməti bu barədə ciddi düşünsə yaxşı olar.

**❑ İqtisadiyyat şöbəsi**

YENİ MÜSAVAT
N 183 (5892) 19 iyul 2014

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## Elan

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# "Sovetski" sakinləri "Ağ şəhər"lə qonşu ola bilər

## Burada bina tikmək istəyən şirkətlər növbəyə durub

**"Sovetski" sakinləri üçün inşa ediləcək bina "Ağ şəhər"in yaxınlığında olacaq. Bu barədə "Yeni Müsavat"a evləri plana düşən sakinlər məlumat veriblər. Onların sözlərinə görə, "Sovetski" ilə bağlı bir neçə tikinti şirkəti layihə hazırlayaraq hökumətə təqdim edib. Sakinlərə bildirilib ki, yaxın günlərdə Yasamal Rayon İcra Hakimiyyətində onlarla görüş keçiriləcək. Təklif kimi irəli sürülən layihələr müzakirə olunacaq.**

"Sovetski" sakinlər qeyd etdilər ki, az kvadratlı mənzil sahiblərinə bina tikilməsi ilə bağlı xəbərlər yayılandan sonra kompensasiya üçün Köçürmə Komissiyasına müraciət edən olmayıb. Məlumat üçün bildirək ki, "Sovetski" sakinləri üçün bina inşa edən şirkətlərdən biri ötən həftə mətbuat konfransı keçirərək "Sovetskaya Kooperativi" layihəsini təqdim ediblər. Mətbuat konfransında bildirilib ki, yaşayış binası 16 mərtəbəli, 9 blok və hər blokda 90 mənzildən (ümumilikdə 810 mənzil) ibarət olacaq. Mənzilin bir kvadrat metri 380 manat təşkil edəcək. Bildirilib ki, binanın Ukrayna dairəsi, Gəncə prospektində inşa edilməsi nəzərdə tutulur.

Ümumi "Pay Fondu" yaradılacaq, sakinlərlə müqavilə imzalanacaq və 50 faiz ödəniş etdikdən sonra mənzil sahibinin adına sənədləşdiriləcək. Artıq layihənin hazırlıq dövrü bitib. Binanın tikintisinin 18 aya yekunlaşması nəzərdə tutulur. Mənzillər sakinlərə təmirsiz şəkildə təqdim olunacaq. Hələlik sakinlərdən ərizələr yığılır. Artıq binada mənzil almaq istəyən sakinlərin 50 faizdən çoxundan ərizə toplanıb. Ancaq Yasamal Rayon İcra Hakimiyyəti "DES Kosaltinq" şirkətinin fırıldağını ortaya çıxarıb. Belə ki, şirkət indidən sakinlərdən pul yığmağa başlayıb. Yasamal, Səbayel rayonlarının, eləcə də Bakı Şəhər Prokurorluğunun əməkdaşları "DES Konsaltinq"in ofisində araşdırmalar aparıblar. Şirkətin direktoru Nazim Səmədov öz əməlinə haqq qazandırmağa çalışıb. Şirkət nümayəndəsi vətəndaşlarla müqavilələr bağladığını etiraf etsə də, onlardan hər hansı məbləğdə pul almadıqlarını iddia edib. Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan sakinlər bildirdilər ki, Yasamal Rayon İcra Hakimiyyətində olarkən onlara deyilib ki, bina tikintisi ilə bağlı onlara təkcə "DES Konsaltinq" təklif və layihə təqdim etməyib. Bir neçə şirkətlə görüşlər başlayıb. "Sovetski" sakinlərinə tikiləcək bina Gəncə prospektinə uyğun olmadığından ola bilsin ki, bina "Ağ şəhər"in qonşuluğundakı boş ərazidə tikilsin. Sakinlər həmçinin təmirli evlər tələb etdiklərini vurğuladılar.

Xatırladaq ki, Bakının "Sovetski" məhəlləsində evlərini müəyyən edilmiş şərtlərlə satmaq istəyən ailələrin sayı isə 1950-yə çatıb. İndiyədək 1274 mənzilin sahibi ilə razılaşma protokolu imzalanıb, artıq 1130 əmlak sahibinin bank hesabına vəsait köçürülüb. Köçürmə Komissiyanın son iclasında 78 mənzil sahibi ilə razılaşma protokolu imzalanıb.

Xatırladaq ki, "Sovetski" məhəlləsində ümumilikdə 10 minə yaxın ailə yaşayır.

**❑ Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**








## DİN-dən böyük narkotik əməliyyatı...



**Gəncə Şəhər Baş Polis İdarəsinin əməkdaşları narkotik maddələrin əkilib becərilməsi və satışında təqsirli bilinən şəxsi saxlayıb. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən «Trend»ə verilən məlumata görə, Gəncə şəhər sakini, 57 yaşlı Namiq Musayevin kirayə götürdüyü evin həyətyanı sahəsinə baxış zamanı 600 kvadratmetr ərazidəki istilikxanadan ümumi çəkisi 251 kiloqram olan 505 ədəd çətənə kolu aşkarlanaraq götürülüb.**

Saxlanılan şəxs bildirib ki, narkotik tərkibli bitkiləri bir neçə ay əvvəl əkib. Bu müddət ərazində xüsusi aqrotexniki qaydalara uyğun olaraq becərib. Namiq Musayev çətənə kollarını satış məqsədilə əkib becərdiyini etiraf edib.

Onun yaşadığı Gəncə şəhəri Ozan küçəsindəki evə baxış zamanı isə kibrit qutularına doldurulmuş qurudulmuş marixuana aşkarlanaraq götürülüb.

Qeyd edək ki, saxlanılan şəxs əvvəllər də Cinayət Məcəlləsinin bir neçə ağır maddəsi ilə dəfələrlə məhkum olunaraq 14 il həbsdə yatıb. Faktla bağlı cinayət işi açılıb, istintaq aparılır.

## Bakıda 2 yaşlı uşağın əli ətçəkən maşında qaldı



**Bakıda 2 yaşlı oğlanın əli ət maşının içində qalıb. Bu gün saat 14:03-də 112 Xidmətindən Nəsimi rayonu, Mircəlal küçəsi 38/35 ünvanında uşağın əlinin ət maşınında sıxılıb qalması və köməyə ehtiyacı olması barədə Xüsusi Riskli Xilasetmə Xidmətinə məlumat daxil olub. Dərhal mobil mütəxəssis-xilasedicilər və Yasamal rayonu üzrə xilasedicilər qrupu hadisə yerinə cəlb edilib.**

Hadisə yerində məlum olub ki, 2012-ci il təvəllüdlü Əliyev Elvin Emin oğlunun sol əlinin barmaqları ət maşınında sıxılaraq qalıb. Xilasedicilər hadisə yerinə olan Təcili Tibbi Yardım Stansiyasının əməkdaşlarının nəzarəti altında ət maşınının hissələrini təhlükəsizlik qaydalarına riayət etməklə xüsusi alətlər (kəsici laqunda aləti) vasitəsilə kəsərək hissələrə ayırıb. Sıxılmış vəziyyətdə olan uşağın sol əlinin barmaqlarını ət maşınından çıxararaq onu hadisə yerində olan Təcili Tibbi Yardım Stansiyasının əməkdaşlarına təhvil veriblər.

## Sabahdan hava sərinləyəcək

**Sabahdan başlayaraq Bakı və Abşeron yarımadasında küləkli hava şəraiti müşahidə olunacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosundan APA TV-yə verilən məlumata görə, belə hava şəraiti 3 gün ərzində davam edəcək. İyulun 20-dən isə havanın temperaturu 3-5 dərəcə düşəcək. İyulun 19-da Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 22-26, gündüz 33-38 dərəcə isti olacaq. Sabah Azərbaycanın rayonlarında əsasən yağmursuz hava şəraitinin müşahidə olunacağı, lakin axşam və gecə bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturu gecə 21-26, gündüz 33-38, bəzi yerlərdə 40 dərəcə, dağlarda gecə 11-16, gündüz 23-28 dərəcə isti olacaq.

## ELAN

**Şəmkir rayon İslahat Komissiyası tərəfindən Ələkbərova Xətayə Məcid qızının adına verilən JN 475 saylı Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.**

*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
✓ *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
✓ *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
✓ *Əla tələffüz və güvənlə danışmaq*
✓ *Real ingiliscə söhbətlər*

BONUS
English EXPLOSION
*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

# Ukraynada sərnişin təyyarəsinin vurulması dünyanı dəhşətə saldı

## 295 nəfərin həlak olduğu olayın törədilməsində daha çox Donetskdəki separatçıların və Rusiyanın adı çəkilir; dəhşətli təyyarə qəzalarının statistikası

**Ukrayna səmasında vurulan sərnişin təyyarəsi ilə bağlı müəmmalar artır. Son olaraq bildirilir ki, Ukrayna səmasında sərnişin təyyarəsini vuranlar izi itirmək üçün raket qurğusunu ölkə ərazisindən çıxarıblar. Bunu Ukrayna daxili işlər nazirinin məsləhətçisi Anton Qeraşenko deyib. O bildirib ki, separatçılar zenit-raket qurğusu olan "Buk"u Rusiyaya keçiriblər. Təyyarənin "qara qutu"su isə Rusiya Federal Təhlükəsizlik Xidmətinin əməkdaşlarına verilib.**

**A.Qeraşenko deyib ki, bu məlumatlar Ukrayna kəşfiyyatı tərəfindən əldə edilib:** "Son məlumata görə, "Buk" Rusiyada məhv ediləcək. Bu terroru törədənlər də aradan götürüləcək. Təyyarənin "qara qutu"su isə Luqanskda saxlanılır. Bunun özü də məsələdən Rusiya prezidenti Putinin xəbərdar olmasını göstərir".

Qeyd edək ki, Ukraynanın Donetsk vilayətində "Boeing-777" sərnişin təyyarəsi vurulub. Vurulan təyyarədə 280 sərnişin və 15 ekipaj üzvü olub. Amsterdam- Kuala-Lumpur reysini yerinə yetirən təyyarə Torez yaşayış məntəqəsi üzərində olarkən "Buk" zenit-raket kompleksi ilə vurulub. Nəticədə 295 nəfər həlak olub.

Ukraynanın daxili işlər nazirinin müşaviri Anton Qeraşenko təyyarənin separatçılar tərəfindən vurulduğunu iddia edib. Separatçılar isə təyyarənin Ukrayna ordusunun antiterror əməliyyatı nəticəsində vurulduğunu bildiriblər. Ukrayna prezidenti Petro Poroşenko isə təyyarənin Rusiya tərəfdarı olan separatçılar tərəfindən vurulduğunu qeyd edib.

Hadisə yerindən yüz cəsəd çıxarılıb. Digər cəsədlər ətrafa səpələndiyindən axtarışlar davam etdirilir. Əraziyə çoxlu sayda yanğınsöndürən briqadaları və təcili yardım maşınları cəlb olunub.

Təyyarə Ukrayna ərazisində, Rusiya sərhədinin 60 kilometrliyində vurulub. Qəza təyyarənin Rusiya sərhədlərinə girməyə bir neçə dəqiqə qalmış baş verib. Təyyarə Amsterdamdan Kuala-Lumpura hərəkət edirdi. Ukrayna üzərində təyyarə 10 min metr yüksəklikdə uçurdu. Ukrayna kəşfiyyatı bildirir ki, təyyarə silahlı separatçılar tərəfindən vurulub. "The Wall Street Journal" nəşri qeyd edir ki, Amerika kəşfiyyatı "torpaq-hava" tipli raketin uçuşunu qeydə alıb. Bu tip raketlər həm üsyançılarda, həm də Ukrayna ordusunda mövcuddur.

Separatçıların isə məsələyə öz baxışları var. Onlar iddia edirlər ki, təyyarəni Ukrayna qırıcıları vurub. Təyyarənin uçuşunu izləyən ispaniyalı dispetçer də öz tvitter səhifəsində 2 qırıcını radarda gördüyünü yazıb. Rusiya və Ukrayna müdafiə nazirlikləri, eləcə də silahlı separatçılar bu olayın baş verməsində iştiraklarını istisna edirlər. Ukrayna prezidenti Petro Poroşenko isə baş verən hadisəni terror aktı adlandırıb. Məsələ ilə bağlı cinayət işi qaldırılıb.

Rusiyalı jurnalistlər vurulan təyyarə ilə bağlı araşdırma apararkən maraqlı detallara rast gəliblər. Etatist.com xəbər verir ki, jurnalistlərin apardığı araşdırmalardan məlum olub ki, iyulun 17-də vurulan təyyarə öz ənənəvi kursundan çıxıb. Təyyarənin kursunun kim tərəfindən dəyişdirilməsi ilə bağlı heç bir dəqiq məlumat yoxdur.

Versiyalara görə, təyyarənin vurulması rusiyameyilli qüvvələr tərəfindən edilə bilər ki, bu da Rusiyanın xeyrinədir. Çünki Rusiya tərəfi Ukraynadakı böhranın bitməsini istəmir, əksinə, dərinləşməsinin tərəfindədir. Başqa versiyalara görə isə təyyarə Qərb tərəfindən vurula bilər. Bunda isə Qərbin işinə yarayan təyyarənin vurulmasını Rusiyanın üstünə atıb, ölkəyə tətbiq etdiyi sanksiyaları daha da sərtləşdirməsi ola bilər.

Xatırladaq ki, təyyarə vurulandan dərhal sonra rusmeyilli separatçılar öz aralarında danışıqlar apararaq təyyarənin vurulması ilə bağlı məruzələr ediblər. Bu danışıqlar da Ukrayna dövləti tərəfindən mətbuata ötürülüb.



Rusiya prezidenti Vladimir Putin mülki təyyarənin vurulmasından sonra açıqlama verərək, faciədə Ukrayna dövlətinin günahı olduğunu açıqlamışdı.

Sözügedən təyyarənin raketlə vurulması versiyası hələlik ehtimal olaraq qalır. Azadlıq.org isə aviasiya tarixinə nəzər salıb buna bənzər faciələrin qısa tarixçəsini toplayıb.

**1940-cı il, iyunun 14-də** Tallindən Helsinkiyə gedən Finlandiyanın kiçik mülki təyyarəsini sovet bombardmançıları avtomat silahlarla vurub salıblar. Hadisədə 9 sərnişin və heyət üzvü həlak olub.

**1942-ci martın 3-də** Hollandiyadan Avstraliyaya uçan kiçik təyyarəni Yaponiyanın döyüş təyyarələri vurublar. Broome şəhəri yaxınlığında çimərliyə düşən təyyarədə 4 nəfər həlak olub. Təyyarənin o vaxtın pulu ilə 40 milyon dollarlıq zinət əşyalarından ibarət yükü qarət olunub.

**1943-cü il, iyunun1-də** İngiltərənin sərnişin təyyarəsi Portuqaliyadan vətənə uçarkən Almaniya hərbi hava qüvvələri tərəfindən vurulub. Təyyarədə olan bir neçə tanınmış şəxs, o cümlədən ingilis aktyor Leslie Hovar həlak olub.

**1954-cü il iyulun 23-də** Bankonqdan Hon-Konqa uçan "Cathay Pacific Airways" hava yollarının təyyarəsini Çin ordusu vurub. Təyyarədə olan 10 nəfər həlak olub.

**1955-ci il iyulun 27-də** Vyanadan Tel-Əvivə uçan İsrail hava yollarına aid sərnişin təyyarəsini Bolqarıstanın döyüş təyyarələri vurublar. Təyyarənin 51 sərnişini və 7 heyət üzvü həlak olub.

**1973-cü il fevralın 21-də** Liviya hava yollarına aid "Boeing 727" təyyarəsi Benqazidən Qahirəyə uçarkən səhvən İsrailin nəzarətində olan hava məkanına girib və İsrail ordusu tərəfindən vurulub. Təyyarədə olan 113 nəfərdən cəmi 5 nəfəri sağ qalıb.

**1978-ci il aprelin 20-də** Cənubi Koreyanın sərnişin təyyarəsini sovet qırıcıları atəşə tutublar. Murmansk yaxınlığında donmuş gölə enməyi bacaran təyyarədə cəmi 2 sərnişin həlak olub, 108 nəfər sağ qalıb.

**1978-ci il sentyabrın 3-də** o zaman Rodeziya adlanan *(indi Zimbabvedə)* ölkənin Karibdən Harare şəhərinə uçan sərnişin təyyarəsini raketlə vurublar, 56 sərnişindən 18-i sağ qalıb. Amma sağ qalanlardan da 10 nəfərini təyyarəni vuran üsyançılar yerdə güllələyiblər.

**1979-cu il, fevralın12-də** yenə həmin marşrut üzrə hərəkət edən sərnişin təyyarəsini üsyançılar raketlə vurublar, 59 sərnişindən heç biri sağ çıxmayıb.

**1983-cü il, sentyabrın 2-də** sovet ordusu Koreya hava yollarına məxsus "Boeing 747" təyyarəsini Saxalin adası yaxınlığında vurub. ABŞ konqresmeni Larry MsDonald da daxil olmaqla, təyyarədə olan 269 nəfərin hamısı həlak olub.

**1987-ci il noyabrın 6-da** Malavi hava yollarına aid təyyarə Mozambik yaxınlığında vurulub, 10 nəfər həlak olub. O zaman Mozambikdə vətəndaş müharibəsi getdiyindən təyyarəni kimin vurduğu bəlli olmayıb.

**1988-ci il iyulun 3-də** İran hava yollarının Bəndərabaddan Dubaya uçan sərnişin təyyarəsi ABŞ ordusu tərəfindən vurulub, təyyarədə olan 290 nəfər həlak olub.

**1989-cu il sentyabrın 29-da** İndoneziyanın Lionair hava yollarına məxsus olan sərnişin təyyarəsi naməlum səbəbdən Şri-Lanka yaxınlığında dənizə düşüb. Təyyarənin Tamil üsyançıları tərəfindən vurulduğu barədə məlumatlar yayılıb. Təyyarədə olan 49 sərnişin və 7 heyət üzvünün hamısı həlak olub.

**2001-ci il oktyabrın 4-də** Tel-Əvivdən Novosibirskə uçan Siberian Airlines şirkətinin "Tu-154" təyyarəsi Ukrayna ordusunun hərbi təlimləri zamanı səhvən vurulub. Krım yaxınlığında vurulandan sonra Qara dənizə düşən təyyarənin 66 sərnişini və 12 həyət üzvü həlak olub.dirilib. Qondarma "Donetsk Xalq Respublikası"nın separatçıları təyyarənin partlama nöqtəsində "qara qutu"ların tapdıqlarını və Moskvaya təhvil vermək istədiklərini bildiriblər. Poroşenko isə onları hərtərəfli istintaqa maneçilik göstərməkdə günahlandırıb.

**Sözügedən təyyarənin vurulmasından sonra digər reyslər yollarını dəyişib Ukrayna hava sərhədlərinə girməməyə çalışırlar. Ancaq Ukraynada yaranmış vəziyyətə baxmayaraq, AZAL bu ölkəyə olan reysləri təxirə salmayıb. Bununla bağlı AZAL-dan "Trend"ə bunlar bildirilib:** "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL-ın) təyyarələri ilə Azərbaycandan Ukraynaya, o cümlədən Kiyevə aviareyslər Rusiya ərazisi üzərindən həyata keçirilir". **QSC-dən vurğulayıblar ki, təyyarələr hərbi əməliyyatların getdiyi ərazilərin üzərindən keçmirlər:** "Əvvəllər aviareyslər Ukrayna ərazisi üzərindən keçirilirdi, lakin indi onlar Rusiya ərazisi üzərindən həyata keçirilir". Həmçinin bildirilib ki, iyulun 18-də Ukraynanın paytaxtı Kiyevə aviareys yerinə yetirəcək. Bunu AZAL-ın mətbuat xidmətinin rəhbəri Məhərrəm Səfərli deyib. AZAL-ın təyyarələrinin Azərbaycandan Ukraynaya reysləri Rusiya ərazisi üzərindən həyata keçirməsinə gəlincə, M. Səfərli bu barədə məlumata malik olmadığını söyləyib.

Xatırladaq ki, Ukraynada vurulan təyyarə "Malaysia Airlines" şirkətinə məxsusdur.

❑ **Röya RƏFİYEVA**



# "Dini maarifçilik zəif olanda xurafata meydan açılır"

## **Kənan Rövşənoğlu:** "Qələmin Məkkədən gəlməsi belə, onun hansısa sehrli gücdə olmasına əsas vermir"

## **İbrahim İbrahimli:** "Yanlış inanclar sonda bizim taleyimizə çevrilir"

**İyulun 14-də I ixtisas qrupu üzrə keçirilən imtahanlardan əvvəl Bakının bir sıra ali və orta məktəblərinin qarşısında müəyyən şəxslər tərəfindən abituriyentlərə Məkkədən gətirildiyi iddia edilən qələmlər satılıb. Hadisə şahidlərinin sözlərinə görə, həmin şəxslər qələmlərin "qeyri-adi güc"ə malik olduğunu iddia edərək bir qələmi 5-10 manata satıblar.**

21-ci əsr olmasına rəğmən insanlarımızın hələ də bu cür inanclara qapılması, ümidini işbazlara bağlaması hansı səbəblərdən qaynaqlanır? Məsələyə rəyini bildirən dini yazar Kənan Rövşənoğlu bu addımı dələduzluq adlandırdı:

"Açığı Məkkədən gələn qələm satan rastıma çıxmayıb. Amma prinsip etibarı ilə bu klassik dələduzluqdur.

Bildiyimiz kimi, qələm onu istifadə edənin fikirlərini yazıya köçürmək üçündür. Bu mənada qələmin haradan gətirilməsi onunla yazılan yazıya təsir edə bilməz. Bunlar əsasən insanlar arasında yaranmış yanlış inanclardır. Nəyinsə düşərli olması, hansısa əlamətin uğur gətirməsi yanlış, İslam dini ilə əlaqədar olmayan inanclardır. Sadəcə, Azərbaycanda dini maarifçilik zəif olduğu üçün insanlar arasında bu kimi adətlər, xurafat din adı ilə təqdim olunur.

O ki qaldı qələm məsələsinə, aydın məsələdir ki, o qələmlərin əksəriyyəti Məkkəyə aid deyil. Çoxu Çində istehsal olunur. İkincisi isə qeyd etdiyimiz kimi, qələmin hətta Məkkədən gəlməsi belə onun hansısa sehrli gücünün olması ilə bağlı inanca əsas vermir. Allah insanlara ağıl, düşüncə, istedad verib. Oxuyub, zəhmət çəkib nəticə göstərmək lazımdır. Təbii ki, hər bir işdə Allahın razılığı da mühüm şərtdir. Bu mənada bir işə başlayan insanın dua etməsi, Allahdan yardım diləməsi normaldır. Amma bu, hansısa qələm almaqla və ya başqa vasitələrlə deyil, dua ilə olur".

**Məsələnin psixoloji aspektlərinə aydınlıq gətirən psixoanalitik İbrahim İbrahimli isə insanların çətinə düşəndə mütləq bir qüvvəyə arxalandığını deyir. Bunu balaca uşaqla valideyn münasibəti fonunda izah edən, İ.İbrahimli bunları söylədi:** "Freyd bunu insanın çətin situasiyada uşaqlığına qayıtması kimi qiymətləndirir. Necə ki, uşaq həm atadan qorxur, həm də ona sığınır. Bir şey olan kimi gedir atasına deyir. İnsanlar da bu cür imtahanla qarşılaşdıqda və çətində özlərini hiss etdikdə hansısa qüvvəyə, inanca qaçırlar. Bu kimi inanclar plansız iş görən, öz güvəni az olan insanlarda daha çox olur. Onlar işin asan yolunu tapıblar. İmtahana hazırlaşmaqdansa, sirli qələm götürərək işi həll edəcəklərini düşünürlər. Yaxud kimsə imtahana gedərkən başqa dini ayinlər yerinə yetirir. Özləri ilə dua aparırlar".

**Bu işdə valideynlərin rolunu da qeyd edən psixoanalitik, uşaqları bu inanclarla tanış edənlərin də elə valideynləri olduğunu bildirdi:** "Onlar öz istedadları, qabiliyyətləri nəticəsində əldə etdikləri şeyləri daima hansısa kənar qüvvənin təsiri ilə etdiklərinə inanıblar. Uşaqlarına da bunu təbliğ ediblər. Həmin valideynlərə də öz valideynləri belə təbliğ ediblər. Məsələn, siz keçmiş zamandan gələn bir insanı avtomatik açılan bir mağazaya aparsanız, onlar bunu ilk dəfə gördükləri və elmi izahını bilmədikləri üçün bunu Tanrının işi adlandıracaqlar. Və hansısa xeyirxah əməlinin nəticəsi ilə bunu mükafat kimi izah edəcəklər. Yaxud bir insanı insanın əlinin yaxınlaşması ilə suyu axan kranta yaxınlaşdırsanız, bunu üzünün nuru hörmətinə gələn su kimi başa düşəcəklər. Yəni insan nəyi izah edə bilmirsə onu ilahiləşdirir. İmtahan qabağı da insanların pirə getməsi, boynundan muncuq asıb imtahana girməsi, özüylə dua gəzdirməsi, imtahana başlayanda dua oxuması və s. bu bizim millətə xas xüsusiyyətdir. Bir növ özlərini imtahanın qəzalarından sığortalayırlar. İmtahanda qəbul olmadınsa bu evdən çıxarkən gələn tək səbrin nəticəsidir, sənin nəyisə yanlış etməyinlə əlaqədar deyil və s. Bu cür yanlış inanclar sonda bizim taleyimizə çevrilir. Konfutsinin belə bir sözü var: "Düşüncələrinə diqqət et, davranışlarına çevrilə bilər. Davranışlarına diqqət et, vərdişlərinə çevrilə bilər. Vərdişlərinə diqqət et, taleyinə çevrilə bilər".

❑ **Fəridə ABDIYEVA**

YENİ MÜSAVAT
Son səhifə
N 183 (5892) 19 iyul 2014

# Dağı satışa çıxardılar

İngiltərənin Lonsdale bölgəsinin tanınmış əsilzadələrindən biri olan Clayton Lovterin Blenkatra Dağını 3 milyon sterlinqə satışa çıxarıb. 868 metr hündürlüyündəki dağı satın alan şəxs "Threlkeld mülkünün rəhbəri" ünvanını da əldə etmək imkanı qazanacaq. Mütəxəssislərin sözlərinə görə, dağı almaq istəyən bir neçə nəfər var. Onlardan biri dağı aldıqdan sonra orada xalqın gediş-gəlməsinə əngəl olmayacağına söz verib. Dağın ətəkləri beynəlxalq park hesab edilir. Həmçinin yüzlərlə idmançı dağa çıxmaq və parkda yeriyib, qaçmaq üçün buraya üz tutur.





## 4-cü arvad xəyalı puç oldu

Dünyanın ən çox uşaq sahibi olanlardan biri də Pakistanda yaşayır. Pakistanda uzun müddətdir davam edən hərbi əməliyyatlar bəzi sahələrdə vəziyyəti nisbətən düzəltsə də 36 uşaqlı kişinin dördüncü arvad almaq xəyalları yıxılıb. Gulzar Xan "Taliban"la mübarizə çərçivəsində Şimali Vəziristandan qaçan yüzlərlə sakindən biridir. Amma 54 yaşlı kişi bu qaçış zamanı həyat yoldaşları, uşaqları və nəvələrindən ibarət 100-dən çox insanı da özü ilə aparır. 36 uşaqlı kişinin sözlərinə görə, yaşadığı Şava kəndini tərk edərkən 4-cü dəfə evlənmək üçün topladığı pulu xərcləməyə məcbur olub. "Frans Press"ə açıqlamasında Gulzar Xan 4-cü dəfə evlənmək üçün yenidən pul toplamağa və hərbi əməliyyatların bitməsini gözləməyə məcbur olduğunu deyib. Onun 4-cü dəfə evlənmək istəməsinin əsas səbəbi isə daha çox övlad sahibi olmaq istəyidir. İlk evliliyini 17 yaşında 14 yaşlı xalası qızı ilə edən pakistanlı kişinin bu evlilikdən 12 uşağı olub. 8 il sonra o, 17 yaşlı qızla ailə qurub. Üçüncü dəfə isə ölən qardaşının dul arvadı ilə nikaha daxil olub. Pakistanlı kişinin sözlərinə görə, uşaqlarını bir-bir tanısa da, onların hansı qadından olduğunu xatırlamaqda çətinlik çəkir. Xanın oğlu da indidən atasının yolunu davam etdirmək haqqında düşünür. 14 yaşlı Qufran atasından daha çox evlənməyi və daha çox uşaq sahibi olmağı arzulayır.

# Kişinin başından 133 iynə çıxarıldı

Türkiyənin Sivas bölgəsində inanılmaz hadisə baş verib. ANS PRESS-in məlumatına görə, Sivasın Yunus Əmrə məhəlləsində yaşayan iki uşaq atası Mahmud Qılıç Yıldızeli rayonundakı kəndə bostan sulamağa gedib. Təqaüdçü olan Mahmud kişinin bostana getmək üçün mindiyi ulağa qəflətən arılar hücum çəkib. Ulağı arıların əlindən qurtarmaq istəyərkən özü arıların hədəfinə çevrilib. Arılar onun başından sancmağa başlayıblar. Mahmud kişi zorla arıların əlindən canını qurtara bilib və evə qayıdıb. Qohumları kişinin vəziyyətinin yaxşı olmadığını görüb onu rayon xəstəxanasına çatdırıblar. Həkimlər onun başından 30, qulaq, göz və saqqal bölgəsindən isə 103, ümumilikdə ondan 133 arı iynəsi çıxarıblar. Həkimə vaxtında çatdırılan kişinin vəziyyətinin yaxşı olduğu bildirilir. Qeyd edək ki, bəzi elm adamları tərəfindən arı sancmasının faydalı olduğu deyilsə də, bəzən arı sancmaları ölümlə də nəticələnə bilir.





## Bu şəhərdə şirdən at kimi istifadə edirlər

Dubayda baş verən qeyri-adi hadisələrin fotoları yayımlanıb. Hər il milyonlarla turistin axın etdiyi bu şəhərdə bir-birindən maraqlı hadisələr baş verir. Xüsusən zəngin insanların var-dövləti və qeyri-adi həyat tərzləri görənləri heyrətə gətirir. Səhra ortasında nəhəng bir şəhər olan Dubayda kimisi şirdən at kimi istifadə edir, kimi isə dəvəni dayanacağa "park" edir. Bu şəhərdə tıxac zamanı qəflətən ətrafınızda onlarla milyon dollarlıq avtomobil görə bilərsiniz. Dənizin ortasında tennis oynayanları görəndə isə elə də çox təəccüblənməyin. Çünki bu şəhərdə belə hallar normal qarşılanır.




**QOÇ** - Vəzifəcə sizdən yüksək olan şəxslər haqqında mənfi fikrə gəlməyiniz işlərinizin gedişində qüsurlar yaradır. Naşükür olmayın. Unutmayın ki, həmişə "su axıb öz çuxurunu tapar".

**BUĞA** - Fəaliyyətlə bağlı müəyyən irəliləyişlərə nail olacağınızdan xəbər verən ulduzlar hər an təmkin göstərməyinizi tələb edir. Çünki hər şeyə birdən-birə nail olmaq mümkün deyil.

**ƏKİZLƏR** - Ümumi məziyyətlərinə görə gərgin gündür. Az qala ətrafınızda olan hər kəs əsəblərinizi tarıma çəkməyə çalışacaq. Odur ki, mənasız söhbətlərə aludə olmamağınız məsləhətdir.

**XƏRÇƏNG** - Əsas işinizi pul məsələləri üzərində qurun. Çünki bütün astroloji göstəricilər yalnız maliyyə cəhətdən uğurlarınızın artacağını bəyan edir. Heç kimə borc verməyin.

**ŞİR** - Qarşılıqlı münasibətlər zəminində mübahisələriniz gözlənilir. Bu istiqamətdə daha çox iş yoldaşlarınız və qonşularınızla soyuqluq mümkündür. Xırdaçılığa meyl etməyin.

**QIZ** - Səhhətlə bağlı problemləriniz bu gündən etibarən qaydasına düşəcək. Bununla da aktivliyiniz artacaq. Saat 15-19 arası perspektivli danışıqların və digər sürprizlərin iştirakçısı olacaqsınız.

**TƏRƏZİ** - Nə qədər qaynar olsa da, bu təqvim öz çalarlarına görə, iç dünyanızda böyük dəyişiklik edə bilər. Odur ki, savab işlərinizin sayını artırmalısınız. Saat 20-dən sonra mütləq evdə olun.

**ƏQRƏB** - Yaxşı olar ki, əsas enerjinizi fəaliyyətə yönəldəsiniz. Hansısa sövdələşmə və maliyyə planları isə perspektivli deyil. Risk etməkdənsə həyatın axarına qoşulmağınız yaxşıdır.

**OXATAN** - Bütün göstəricilər maraqlı insanlarla rastlaşacağınızdan, uğurlu məqamlar yaşayacağınızdan xəbər verir. Fəaliyyətdə və işgüzar sövdələşmələrdə isə hansısa yenilik olmayacaq. Səfərə çıxmayın.

**OĞLAQ** - Qərarlarınızda ədalətlilik prinsiplərinə söykənsəniz, mövcud problemləriniz həll oluna bilər. Heç olmasa bu gün hamı haqqında yaxşı düşünün ki, hər şey müsbət sonuclansın.

**SUTÖKƏN** - İş barədə düşünməyə dəyməz. Çünki ulduzlar sizə istirahət, əyləncə və səfərlər tövsiyə edir. Qətiyyən "kef-damaq harama yaraşır?" deməyin. Axı dərdlə sevinc əkiz yaranıb.

**BALIQLAR** - Saat 12-17 arası qalmaqallı situasiyalara cəlb oluna bilərsiniz. Bu, ilk növbədə pulla bağlı ola bilər. Göy qübbəsi əmin olmadığınız işlərə görə vəd verməyinizin əleyhinədir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kosmik stansiya inşa edilir



Son zamanlar kosmosa sadə adamları göndərmək üçün atılan addımlar sürətləndirilib. Bu məqsədlə İngiltərədə kosmik gəmilərin qalxıb-enməsi üçün stansiya inşa edilir. "Guardian" qəzetinin xəbərinə görə, başda Bristol, Norfolk, Şotlandiya olmaq üzrə 8 bölgədən birində qurulacaq olan kosmik stansiya 2018-ci ildə istifadəyə veriləcək. Yeni stansiya həm insanlı, həm də insansız kosmik gəmilərin enib-qalxması üçün inşa ediləcək. Virgin Galactic və XCOR Aerospace kimi özəl kosmik firmaların limanın ilk müştəriləridən olacağı düşünülür.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 6.450